İmam Xomeyni (r.ə) . . . 3
Həqiqi İslamın əsl bayraqdarı . . . 3
İmam Xomeyninin amalları . . . 4
Hərəkatının səmərələri . . . 5
Gördüyü böyük işlər . . . 6
Həcc . . . 7
Həcc 2009 . . . 7
Həcc 2008 . . . 10
Fələstin . . . 15
Fələstinlilərin İslami qiyamına dəstək olmalıyıq . . . 15
İlahi vədənin gerçəkləşməsi . . . 16
Fələstinliləri dəstəkləmək . . . 17
Fələstin torpağı fələstinlilərə aiddir . . . 18
Son əsrdə müsəlmanların oyanışı . . . 19
İctimai azadlıq . . . 21
İctimai azadlıq . . . 21
Qadınlar . . . 31
Qadının ictimai fəaliyyəti . . . 31
İslamda qadının dəyəri . . . 32
Müsəlman qadının üstünlükləri . . . 33
Qadının hərtərəfli tərəqqisi . . . 34
İslam dövlətinin xüsusiyyətləri . . . 35
Əməlisaleh . . . 35
“Ən yaxşı” kimdir? . . . 35
İş başına gələn kim olmalıdır? . . . 36
Vicdanlı təbliğat . . . 37
Həqiqi kimlik və əsl ləyaqət . . . 38
Xalqa xidmət işində ciddilik və məsuliyyət . . . 39
Xalqa xidmət işində ciddilik və məsuliyyət . . . 39
Yorulmaq bilmədən xidmət göstərmək . . . 40
Şüar və deviz . . . 41
Antiimperializm . . . 42
Milli şərəf və heysiyyəti uca tutmaq . . . 43
Milli şərəf və heysiyyəti uca tutmaq . . . 43
Milli qürurun və müstəqilliyin qorunması . . . 44
Düşmənlərin zorakılığı və yersiz tələbkarlığı qarşısında müqavimət göstərmək . . . 45
Sekularizm təmayüllərinin nüfuzunun qarşısını almaq . . . 46
Dəyişikliklər etmək əzmi . . . 47
Dünya arenasındakı hegemon qüvvələrə qarşı mübarizədə hücuma keçmək əzmi . . . 48
Xalqa yaxın olmaq əhval-ruhiyyəsi . . . 49
Sadə həyat tərzi keçirmək . . . 50
Xalqa yaxın olmaq və sadə həyat tərzi keçirmək . . . 50
Cəmiyyətdəki təbəqələr arasında məsafənin azaldılması . . . 52
Sadə, dəbdəbəsiz yaşayışa üstünlük vermək . . . 53
Qanunlara riayət etmək . . . 54

دفتر مقام معظم رهبری
www.leader.ir


Tabeçiliyində olan kollektivə nəzarət . . . 55
Digər hakimiyyət orqanları ilə əməkdaşlıq . . . 56
Hakimiyyət nümayəndələrinin görkəmli şəxslər və ziyalılarla həmkarlıq etməsi . . . 57
Mədəniyyətə diqqət göstərmək . . . 58
Tənqidlərə qarşı diqqətli olmaq . . . 59
“Tərəqqi və ədalət” şüarı . . . 60
Prinsipial dövlət . . . 63
- Prinsipial dövlət . . . 63
- Fəsada qarşı çıxmaq . . . 64
- Din, şəriət baxımından bəyənilən və qanuni sayılan fəaliyyət . . . 65
- Fəsadla mübarizə aparmaq . . . 66
- Fəsadla mübarizədə qətiyyət və ciddilik . . . 67
- İslam dinini uca tutmaq . . . 68
- Sadə həyat tərzi keçirmək və xalqa yaxın olmaq . . . 69
- Təvazökarlıq və eqoizm girdabında batıb qalmamaq . . . 70
- İsrafçılıqdan, sağa-sola pul xərcləməkdən çəkinmək . . . 71
- Məntiqli və tədbirli olmaq, müdrik qərarlar qəbul etmək və düşünülmüş addımlar atmaq . . . 72
- Məsuliyyətli olmaq və cavabdehlik daşımaq . . . 73
- Elmə və elmi tərəqqiyə can atmaq . . . 74
- Genişqəlblilik və əleyhdarlarına qarşı dözümlülük . . . 75
- Nəfsin istəklərinə uymaqdan çəkinmək . . . 76
- Layiqli şəkildə rəhbərlik etmək . . . 77
- Allahla, Quranla ünsiyyətdə olmaq, daim Tanrıdan kömək ummaq . . . 78

Çoxsaylı problemləri olan ucqar məntəqələrə yardım . . . 79
- Çoxsaylı problemləri olan ucqar məntəqələrə yardım . . . 79
- Ölkənin müxtəlif məntəqələrinə qayğı və diqqətlə yanaşmaq . . . 80
- Nəticələri göz qabağında olan müsbət istiqamətli fəaliyyət . . . 81

İslami dəyərlərə qəlbən bağlı olmaq . . . 82
Sözün əsl mənasında gərgin əmək və səy göstərmək . . . 83
Dini rəhbər tutaraq mövqe seçmək və inqilabi dəyərləri uca tutmaq . . . 84
Ən çox sevilən dövlət . . . 85
İqtisadi sferada müsbət istiqamətli işlərin görülməsi . . . 86

İMAM XOMEYNİ – HƏQİQİ İSLAMIN ƏSL BAYRAQDARI

Həmişə olduğu kimi bu gün də İslam dünyası zülm və zorakılığa, istismar və qarətə qarşı çıxmaqdadır. Belə bir İslamın hegemon və istismarçı dövlətlərin, o cümlədən Amerika və İsrailin düşmənçiliyinə məruz qalması təbiidir. Biz hələ o zaman – həqiqi İslamın bayraqdarı olan əziz İmamımızın (r.ə) arxasında şüarlar deyəndə bilirdik ki, İslam düşmənlərinin və hegemon qüvvələrin bizimlə müxalifətçiliyə qalxacaqlarını çox yaxşı bilirdik. İslamın zühur etdiyi illərdə də vəziyyət eynilə belə idi. Yəhudilər, münafiqlər, kafirlər və müşriklər Mədinə şəhərini mühasirəyə alıb Əhzab müharibəsinə qalxdıqları zaman həqiqi möminlər belə dedilər:

هذا ما وعدنا اللّٰه و رسوله

“Bunu Allah və Onun peyğəmbəri bizə vəd etmişdi”. Yəni bu, gözlənilməz bir hadisə deyildi. Allah və Onun peyğəmbəri (s) möminlərə xəbər vermişdilər ki, azğın və şər qüvvələr sizin əleyhinizə birləşəcəklər. Buna görə də İlahi vədənin gerçəkləşdiyini gördükdə onların imanları daha da möhkəmləndi.

Hər zaman həqiqi İslam aşkar olduqda mənfur və şər qüvvələr ona qarşı ayağa qalxsalar da, qəlbi pak və ruhu saf insanlar bütün varlıqları ilə onu qorumuşlar. Sizcə, nə üçün on milyonlarla insan İmam Xomeyninin (r.ə) dəfn mərasimində onun cənazəsi ətrafına toplaşdılar və əzizini itirən bir şəxs kimi sinələrinə, başlarına döydülər? Sizcə, nə üçün dünyanın hər bir yerində yüz milyonlarla müsəlman bir nəfərin ölümünə görə matəmə büründü? Nə üçün bu qədər insan İmam Xomeynini (r.ə) sevirdi? Şübhəsiz bu sualların bir cavabı var: “İslama xatir”. O böyük şəxsiyyət bizə başa saldı ki, Allah İslama xatir qəlbləri inqilab ruhiyyəsi ilə birləşdirdi və nəhayət, İslam inqilabı bütün dünyada zəfər çaldı.

Sizin bu qədər böyük məsafəni qət edib bura toplaşmağınız üçün qəlblərinizi və cisminizi qüvvətləndirən, məzlumlara arxa olan, zalımlara isə qarşı çıxan qüdrət həqiqi İslamdır. Allah yolunda ürəkləri birləşdirən, əzəmətli və məğlubedilməz bir qüvvəyə çevirən amil, məhz həqiqi İslamdır. Biz bu mühüm həqiqəti dərk etməli və hər zaman yadda saxlamalıyıq.

**Ali Məqamlı Rəhbər Ayətullah Xameneinin Fars, Hormozqan bölgələrinin, Qəzvin, Takistan və s. şəhərlərinin ruhaniləri, vəzifəli şəxsləri və əhalisi qarşısındakı çıxışından bir parça. 21/4/1368**

# İMAM XOMEYNİNİN AMALLARI

Bəyanatlarına əsasən İmam Xomeyninin (r.ə) amalları aşağıdakılardan ibarət idi:

İstismarçılarla mübarizə, heç bir hegemon qüdrətə tərəf yönəlməmək, “Nə Şərq, nə də Qərb” şüarını əsas tutmaq, millətinin hərtərəfli və həqiqi azadlığını təmin etmək, müqəddəs İslam şəriətini qorumaq, İslami vəhdəti yaratmaq, dünyanın məzlum və müsəlman millətlərinə əl tutmaq, İslama və müsəlman xalqlara izzət bəxş etmək, qüdrətli dövlətlərdən qorxub çəkinməmək, İslam ictimaiyyətində ədaləti bərqərar etmək, cəmiyyətin aşağı və imkansız təbəqələrini himayə etmək.

Hamımız şahidik ki, İmam Xomeyni (r.ə) qətiyyətlə və vaxt itirmədən bu müqəddəs yolda hərəkət etdi və amallarına çatmaq üçün əlindən gələni əsirgəmədi. Biz də var-gücümüzlə onun bu şərəfli yolunu davam etdirməliyik.

**Baş Nazirin vəzifəyə təyin olunma mərasimində Ali Məqamlı Rəhbər Ayətullah Xameneinin çıxışından bir parça. 17/3/1368**

# İMAM XOMEYNİ HƏRƏKATININ SƏMƏRƏLƏRİ

İmam Xomeyni (r.ə) məzlumları əsarətdən qurtarmaq, onlara nicat vermək üçün mübarizəyə qalxıb, dövrünün fironlarını vəlvələyə saldı və məzlumların qəlbində ümid çırağı yandırdı. O, insanlara kəramət, möminlərə izzət, müsəlmanlara şövkət, mənəvi dəyərlərdən uzaq düşmüş dünyaya mənəviyyat, İslam dünyasına təkan, Allah yolunda mübarizə və cihad edənlərə isə şəhamət və şəhadət bəxş etdi. O, bütləri sındırdı və şirkə yönəlik inancları kənarlaşdırdı. O, kamil bir insan olmaq, Əli (ə) sayağı yaşamaq və mənəviyyatın zirvələrini fəth etməyin əfsanə olmadığını hamıya sübut etdi. Həmçinin, o, millətlərə göstərdi ki, əsarət zəncirlərini qırmaq və zalım hökmdarlarla mübarizə etmək mümkündür. Bəsirət sahibləri onun nurlu çöhrəsində “Liqaullahın” nişanələrini görürdülər və hamı onun vücudu sayəsində İlahi bərəkətdən bəhrələnirdi.

الهی لم یزل برک علی ایام حیاتی فلا تقطع برک عنی فی ممات

“İlahi, məni həyatda ikən bərəkətindən daim bəhrələndir, həyatdan köçdükdən sonra da bərəkətini məndən əsirgəmə”. Onun daim etdiyi bu dua qəbul olundu.

**İmam Xomeyninin (r.ə) vəfatının qırxıncı günü münasibətilə düzənlənmiş mərasimində Həzrət Ayətullah Xameneinin çıxışından bir parça. 23/4/1368**

# İMAM XOMEYNİNİN GÖRDÜYÜ BÖYÜK İŞLƏR

İmam Xomeyninin (r.ə) İslam üçün gördüyü ən böyük iş İslamı dirçəltmək oldu. Artıq iki yüz il idi ki, istismarçı rejimlər İslamı müsəlmanlara unutdurmaq üçün səy göstərirdilər. Hətta İngiltərənin baş nazirlərindən biri dünya siyasətçilərinin toplantısında açıq-aşkar bildirmişdi ki, onların əsas planları ilk növbədə, müsəlman ölkələrində İslam dinini həyat səhnəsindən kənarlaşdırmaq, daha sonra bu dini ictimai həyat və siyasətdən, tədricən isə fərdi həyatdan ayırmaqdır. Çünki onlar bu dinin hegemonların istismar və qarətlərinin qarşısında böyük bir sədd olduğunu çox gözəl dərk edirdilər və bu məqsədlə hədər yerə çoxlu pullar da xərclədilər. İmam Xomeyni (r.ə) isə İslamı dirçəldib, yenidən insanların ictimai və fərdi həyatına qaytardı.

Onun ikinci böyük işi müsəlmanların əldən getmiş izzətini onlara geri qaytarmaq oldu. Beləki, İslam İnqilabının səmərələri təkcə elmi mərkəzlərdə, universitetlərdə İslam dininin araşdırılması, eləcə də İslamın ictimai və fərdi həyata qaytarılması ilə xülasələnmir, eyni zamanda, bu inqilabın ən gözəl bəhrəsi məhz dünya müsəlmanlarına izzət bəxş etmək oldu. Müsəlmanların azlıq təşkil etdiyi böyük ölkələrin birində yaşayan bir şəxs mənə belə deyirdi: “İran İslam İnqilabı baş verməmişdən qabaq müsəlman olduğumu gizlədirdim. Bizim ölkənin adətinə görə hamı uşaqlarına yerli adlar qoymalı idi. Lakin müsəlman ailələri uşaqlarına islami adlar qoysalar da övladlarını həmin adla çağırmaqdan çəkinir və xəcalət çəkirdilər. Sizin İslam İnqilabınızdan sonra isə bizim müsəlmanlar başıucalıqla öz islami adlarını dilə gətirirlər”. Beləliklə, İmam Xomeyninin inqilabı sayəsində dünyanın hər yerində yaşayan müsəlmanlar İslam dinində olduqları üçün iftixar hissi duyurlar.

Onun gördüyü üçüncü böyük iş isə müsəlmanlara “İslam ümməti” anlayışını aşılamaq oldu. Ayrı-ayrı məntəqələrdə yaşayan müsəlmanlarda “vahid İslam ümməti” anlayışı yox idi və buna əhəmiyyət belə vermirdilər. Bu inqilabdan sonra isə Asiya, Afrika, Avropa və Amerikada yaşayan bütün müsəlmanlar sözün tam mənasında vahid İslam ümmətinin bir parçası olduqlarını hiss etdilər. Müsəlmanlarda belə bir vəhdət hissini oyatmaq İslam dünyasının müdafiəsində çox böyük əhəmiyyətə malikdir.

O böyük şəxsiyyətin gördüyü işlərdən biri də regionda və dünyada mürtəce quruluşlardan biri olan şahlıq rejimini devirmək oldu. İran şahının hakimiyyətini devirmək təsəvvür olunduğu qədər böyük bir iş idi. İran müstəmləkəçilərin Fars körfəzində və Orta Şərqdə ən mühüm qalası sayılırdı. İmam Xomeyni bu qalanı fəth edib, istismarçıların əlini bu məmləkətdən tamamilə kəsdi.

Onun İslam üçün gördüyü böyük işlərdən beşincisi İslam hökuməti qurmaq idi. Belə bir hökumətin qurulması nə müsəlmanların, nə də qeyri-müsəlmanların ağlına belə gəlməzdi. Müsəlmanlar bu xoş xəyalın bir gün gerçəkləşəcəyini təsəvvür belə etmirdilər. İmam Xomeyni sanki bir möcüzə göstərərək onların bu şirin xəyallarını həqiqətə çevirdi.

Onun gördüyü mühüm işlər sırasında dünyada İslam hərəkatın yaranmasını xüsusilə qeyd etmək lazımdır. Hal-hazırda zorakılığa və istismara qarşı mübarizəyə qalxan hər bir hərəkatın prinsipləri məhz İslama söykənir.

Onun İslam üçün göstərdiyi ən gözəl xidmətlərdən biri də şiə fiqhinə gətirdiyi yeniliklər idi. Bizim fiqhimiz möhkəm dayaqlar üzərində qurulubdur. İmam Xomeyni (r.ə) dünyada baş verən yenilikləri və qloballaşmanı nəzərə alaraq fiqh sahəsində də öz dövrünə qədər mövcud olmayan yeni bölmələr açdı.

## Ali Məqamlı Rəhbərin möhtəşəm həcc toplumuna müraciəti

– Mehriban və bağışlayan Allahın adı ilə!
Həcc mövsümü mənəviyyatın baharının yetişdiyi və cahan üfüqlərində tövhid – təkallahlılıq günəşinin parlayıb nur saçdığı mövsümdür. Əslində, həcc ayini hər bir zəvvarın mənəviyyatını günah və qəflət girdabından pak edib onun varlığına və ruhuna Allah tərəfindən bəxş edilmiş nurlu fitrətini qaytara biləcək saf bir çeşmədir. Həcc miqatında ətrafdakılardan seçilən, şöhrətpərəst paltarlarını soyunub heç kəsinkindən fərqlənməyən birrəngli ehram libasını geymək İslam ümmətinin bərabərliyinin rəmzi, dünyanın hər bir yerində olan müsəlmanların birlik və həmrəyliyinə simvolik bir çağırışdır. Həccin şüarı bir yandan:

فَالٰهُكُم اِلٰهٌ واحِدٌ فَلَه اَسلِموا وَ بَشِّرِ المُخبِتين
"...Çünki sizin Allahınız tək olan Allahdır. Buna görə də Onun qarşısında təslim olun və (ey Peyğəmbər, sən) təvazökar və xalis (niyyət və əməlli)lərə müjdə ver". *("Həcc" surəsi, ayə 34)*

Digər tərəfdən isə belədir:

و المَسجِدِ الحَرام الَّذى جَعَلنه لِلنّاسِ سَوآءَ العاكِفُ فيهِ وَ الباد
"Və yerli ilə müsafirin bərabər olduğu Məscidul-həramdan saxlayan kəslər (yollarını azmış və camaata zülm edən bir dəstədirlər)" *("Həcc" surəsi, ayə 25)*

Odur ki, Kəbə təkallahlılığın simvolu olmaqdan başqa, həm də İslami qardaşlıq, bərabərlik və söz birliyinin də mükəmməl təcəssümüdür.

Dünyanın dörd bir yanından buraya axışıb şövqlə Kəbəni təvaf etməyə və əzəmətli İslam Peyğəmbərinin (s) hərəmini ziyarətə gələn müsəlmanlar aralarındakı İslam ümmətinin böyük dərdlərindən bir çoxuna dərman ola biləcək qardaşlıq bağlarını möhkəmlətmək üçün bu dəyərli fürsəti qənimət bilməlidirlər. Bu gün açıq-aşkar görürük ki, İslam dünyasına qarşı bədxah niyyətdə olanların əlləri müsəlmanlar arasında təfriqə salmaq üçün əvvəlkindən də çox işləyir. Halbuki, İslam ümməti birlik və həmrəyliyə əvvəlkindən daha da artıq ehtiyac duyur. Bu gün düşmənlərin qanlı pəncəsi İslam ölkələrinin müxtəlif yerlərində aşkar surətdə faciələr törətməkdədir. Fələstin sionistlərin xəbis ağalığı altında günü-gündən artan əzab və möhnət içərisində çapalayır. Məscidul-əqsanı ciddi bir təhlükə gözləyir. Məzlum Qəzza əhalisi misli-bərabəri görünməmiş o dəhşətli soyqırımdan sonra hələ də əvvəlki kimi son dərəcə ağır bir vəziyyətdədir. İşğalçıların çəkmələri altında tapdanan Əfqanıstan hər gün yeni bir müsibətə düçar olur. İraqdakı qeyri-sabitlik xalqın asayişini pozub, rahatlığını əlindən alıb. Yəməndəki qardaş qırğını isə İslam ümmətinin qəlbinə yeni bir dağ çəkib.

Dünyadakı bütün müsəlmanlar bu barədə ciddi düşünməlidirlər ki, son illər ərzində İraqda, Əfqanıstanda, Pakistanda baş verən fitnələrin, müharibələrin, partlayışların, terror aktlarının və kor-koranə qırğınların layihəsi harada və necə düşünülüb hazırlanır? Nəyə görə Amerikanın başçılığı altında Qərbin zorakı və mülkiyyətçi ordusu bu məntəqəyə

ayaq basana qədər həmin xalqlar bir bu qədər müsibət və əzab-əziyyətin şahidi deyildi? İşğalçılar bir yandan Fələstin, Livan və digər yerlərdə xalqın müqavimət hərəkatına “terror” adını qoyur, digər tərəfdən isə özləri bu regionun xalqları arasında vəhşi etnik və qruplaşmalararası terrora təşkilatçılıq və rəhbərlik edirlər. Orta Şərq və Şimali Afrika regionu uzun illər boyu – bir əsrdən artıq bir müddət ərzində İngiltərə, Fransa və s. Qərb dövlətlərinin, daha sonra isə Amerikanın əli ilə işğal olunub istismara məruz qalmış və təhqir olunmuşdur. Onların təbii resursları talanmış, mənəviyyatlarındakı azadlıq əhval-ruhiyyəsi əzilmiş, xalqları isə təcavüzkar yadellilərin tamahkarlığının girovuna çevrilmişdir. İslami oyanış və xalqların müqavimət hərəkatı beynəlxalq despotlar üçün bu cür vəziyyətin davamını qeyri-mümkün bir işə çevirdikdən, habelə şəhidlik, Tanrı dərgahına yüksəlmək, Allah yolunda vuruşmaq İslami cihad meydanında misilsiz bir amil kimi bir daha təzahür edəndən sonra pərt olmuş qaniçən təcavüzkarlar daha hiyləgər və ikiüzlü taktikalara əl atdılar, üstəlik keçmiş metodlarını da yeni müstəmləkəçilik strategiyaları ilə əvəz etdilər. Lakin bu gün min bir siması olan imperializm əjdahası İslamın kürəyini yerə vurmaq üçün bütün bacarığını ortaya qoymuşdur: hərbi qüvvəsindən, polad yumruğundan və açıq-aşkar işğalından tutmuş zülm və şərə xidmət edən təbliğat şəbəkəsinə, yalan və şayiələr yaymaqla məşğul olan minlərlə strukturların işə salınmasına qədər; habelə ayrı-ayrı terror qruplaşmalarına və qəddarcasına törədilən insan qırğınlarına təşkilatçılıq etməkdən tutmuş cürbəcür əxlaqsızlıq və pozğunluq təzahürlərinə qəsdən rəvac verilməsinə, narkotik maddələrin çoxaldılması və yayılmasına, gənclərdəki yüksək əxlaqi-mənəvi psixologiyanın və əzmin sındırılmasına qədər; müqavimət mərkəzlərinə qarşı hərtərəfli surətdə həyata keçirilən siyasi hücumlardan tutmuş qardaşlar arasında etnik əsaslı xudpəsəndlik, məzhəb təəssübkeşliyi və düşmənçilik yaratmağa qədər.

Müsəlman xalqları, İslam məzhəbləri və müsəlman etnosları arasında düşmənin arzuladığı kimi pessimist və bədgüman əhval-ruhiyyənin yerini bir-birinə qarşı sevgi, xoşgümanlıq və həmrəylik tutsa, şübhəsiz ki, bədxahların tədbir töküb cızdığı hiyləgər planların böyük bir qismi darmadağın olacaq. Belə ki, onların İslam ümmətinə günü-gündən daha da çox ağalıq etmək məqsədilə hazırladıqları məkrli planlar səmərəsiz olacaq. Həcc ziyarəti bu ali məqsədə çatmaq üçün ən gözəl fürsətlərdən biridir.

Müsəlmanlar bir-biri ilə əməkdaşlıq etməklə, eləcə də Qurani-Kərimin və Peyğəmbər (s) sünnəsinin carçısı olduğu müştərək prinsiplərə söykənməklə min bir cildə girməyi bacaran bu şeytana qarşı müqavimət göstərib onu öz iradə və imanlarına məğlub edə bilmək üçün daha da güclənəcəklər. İran İslam Respublikası dahi imam Xomeyninin (r.ə) dərslərinə əməl edərək bu uğurlu müqavimətin bariz nümunəsinə çevrilmişdir. Onlar İslam Respublikasında məğlubiyyətə düçar olmuşlar; 30 il ərzində İİR-na qarşı əlbir surətdə cürbəcür hiyləgər, məkrli, düşmənçilik niyyəti güdən bir sıra sui-qəsd planları hazırlamışlar: çevrilişdən və 8 illik arzuolunmaz məcburi müharibədən tutmuş embarqo qoyulması və əmlakın müsadirə olunmasına qədər; mənəvi-psixoloji təbliğat müharibəsindən, informasiya agentliklərinin cəbhələşməsindən tutmuş elmi tərəqqinin qarşısının alınması, modern elmlərin, o cümlədən atom texnologiyası sahəsində biliklərin kəsb edilməsinin əngəllənməsinə qədər; hətta ölkədəki möhtəşəm və dərin məna tutumuna malik olan son prezident seçkisi olayına açıq-aşkar müdaxilə və provokasiyalara qədər – bütün bunlar düşmənin diz çökdürüldüyü, pərtliklə üzləşdiyi və çaşqın vəziyyətdə qaldığı tarixi səhnələrə çevrildi. Və:

ان ّ كيدالشيطان كان ضعيفاً

“Şübhəsiz, şeytanın məkr və hiyləsi həmişə (Allahın tökdüyü tədbir müqabilində) zəifdir”. *(“Nisa” surəsi, ayə 76)*

ayəsi bir daha iranlıların gözü qarşısında təcəssüm etdi. Əzm və imandan doğan güclü müqavimətin xalqı xudpəsənd imperialistlərə qarşı mübarizə meydanına çəkdiyi hər bir nöqtədə də qələbə həmişə möminlərin, məğlubiyyət və rüsvayçılıq isə zalımların mütləq alın yazısı oldu. Livandakı 33 günlük açıq-aşkar qalibiyyət, son üç il ərzində Qəzzada gedən vüqarlı və qalibiyyətlə müşayiət olunan cihad hərəkatı bu gerçəkliyin canlı şahididir.

Mən bu İlahi görüşdə iştirak edən bütün möhtərəm hacılara, xüsusilə də İslam ölkələrindən gəlmiş alim və xətiblərə təkidlə tövsiyə edirəm ki, problemin mahiyyətini düzgün dərk edərək özlərinin bugünkü təxirəsalınmaz vəzifəsini bir daha anlasınlar. Bütün qüvvə və bacarıqlarını sərf edərək onları dinləyən şəxslərə İslam düşmənlərinin əlbir olub hazırladıqları məkrli planları bir daha bəyan etsinlər və insanları birliyə, səmimi ünsiyyətə çağırsınlar. Habelə müsəlmanların bir-birinə qarşı bədgümanlığına yol aça biləcək hər bir şeydən ciddi surətdə çəkinsinlər, bütün stimul və şüarlarını müstəmləkəçilərin, İslam ümmətinin düşmənlərinin və fitnənin rəhbərlərinin, yəni sionizmin və Amerikanın başına yağdırsınlar. Həmçinin müşriklərə nifrət edib onlardan bezar olduqlarını sözdə və əməldə açıq-aşkar surətdə təzahür etdirsinlər.

Uca Yaradandan özüm, eləcə də sizlər üçün bizi doğru yola istiqamətləndirməsini, dəstək və yardımçı olmasını, Öz geniş rəhmətini əsirgəməməyini acizanə şəkildə diləyirəm.

Salam olsun sizlərə!

***Seyid Əli Hüseyni Xamenei***
***26 noyabr, 2009-cu il***

## Ali Məqamlı Rəhbərin möhtəşəm həcc toplumuna müraciəti

– Mehriban və bağışlayan Allahın adı ilə!
Vəhy diyarı mömin insanları növbəti dəfə özünün hər il təşkil etdiyi izdihamlı ziyafətdə bir araya gətirmişdir. Hal-hazırda Yer kürəsinin dörd bir yanından axışıb gəlmiş, qəlbi həsrətlə çırpınan insanlar İslamın və Quranın beşiyi olan bu məkanda xüsusi ayinləri yerinə yetirməklə məşğuldurlar. Həmin ayinlər haqqında dərindən düşündükdə onların mahiyyətində İslamın və Qurani-Kərimin bəşəriyyətə təlim etdiyi əbədi bir dərsi müşahidə etmək olar. Bu dini ayinlərin özləri də həmin əbədi dərsin reallığa çevrilməsi və səmərəli nəticələr verməsi üçün son dərəcə əhəmiyyətli addımlardır.

Bu böyük dərsin məqsədi insanın əbədi səadəti və başıucalığı, onun təlim metodu isə əməlisaleh insanların və əməlisaleh cəmiyyətin yetişdirilməsidir. Elə insanlar ki, onlar qəlblərində və əməllərində vahid Allaha pərəstiş edir, mənəviyyatlarını şirkdən, əxlaqi çirkinliklərdən və yanlış meyillərdən təmizləyirlər. Elə bir cəmiyyət ki, onun strukturunda ədalət, azadlıq, iman, optimizm – biz sözlə, bütün həyat və inkişaf amilləri qüvvədədir.

İslam dinində yerinə yetirilməsi vacib olan həcc ziyarəti həmin fərdi və ictimai tərbiyələndirməyə nail olmaq üçün zəruri olan əsas elementləri özündə birləşdirir. Həccə gələn zəvvar ehram bağlayıb, özünün individual xüsusiyyətlərini, nəfsinin bir sıra ləzzət və istəklərini tərk etdiyi andan başlayaraq təktanrılılıq əqidəsinin simvolu olan Kəbəni təvaf etdiyi, fədakar, bütləri qırıb məhv edən İbrahimin (ə) məqamında namaz qıldığı, iki dağın arasında tələsik yürümə əməlini yerinə yetirdiyi, Ərəfatın qoynunda müxtəlif irqlərdən olan möminlərlə birgə düşərgə salıb dayandığı, Məşərül-Həramda – o izdihamlı toplumun içərisində hər bir qəlbin Uca Yaradanla baş-başa qalıb, ünsiyyət etdiyi məkanda gecəni zikr və dua ilə keçirdiyi, daha sonra isə Minada şeytana simvolik daşatma əməlini, dərin bir məna daşıyan qurbankəsmə, yoxsulları və yoldan keçən müsafirləri doyurma ayinini yerinə yetirdiyi ana qədər sadalanan bütün bu əməllərin hər biri başdan axıra qədər ibrət dərsi, təcrübə və xatırlatmadır.

Mükəmməl bir proqram şəklində yerinə yetirilən həcc ziyarətində insan bir yandan ixlası (pak və xalis niyyət), qəlbini saflaşdırmağı, maddi aləmin cazibəsindən xilas olmağı, paralel olaraq isə səy, çalışqanlıq və dözümlülüyü, ətraf aləmdən mənəvi baxımdan təcrid olunaraq xəlvətdə öz Tanrısı ilə baş-başa ünsiyyət qurmağı, bununla yanaşı isə özünü Allah bəndələri ilə vəhdətdə və həmrəy hiss etməyi, qəlbin və ruhun zinətləndirilməsinə məşğul olmaqla yanaşı, İslam ümmətinin möhtəşəm selinin müşahidəsinə heyran qalıb riqqətə gəlməyi, Haqq-Taalanın hüzurunda müti şəkildə durmaqla bərabər batil və haqq olmayanın müqabilində cəsarət və mətinlik göstərməyi – bir sözlə, bir yandan axirət həvəsi ilə pərvazlanmağı, digər yandan isə dünya həyatını gözəlləşdirmək naminə böyük əzm nümayiş etdirməyi bir ana xətt üzrə, bir-biri ilə vəhdətdə və sıx bağlılıqda öyrənir, məşq edir:

وَ مِنْهُمْ مَنْ يَقُولُ رَبَّنا آتِنا فِي الدُّنْيا حَسَنَةً وَ فِي الْآخِرَةِ حَسَنَةً وَ قِنا عَذابَ النَّار

«Bəziləri isə: “Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!” – deyirlər». *(“Bəqərə” surəsi, ayə 201)*

Beləliklə, Kəbeyi-şərif, həcc ziyarəti zamanı yerinə yetirilən simvolik ayinlər bəşər cəmiyyətlərinin formalaşmasının, yüksəlişinin qaynağıdır və tamamilə insanların xeyri, faydası üçündür.

الْحَرامَ قِياماً لِلنّاس جَعَلَ اللّهُ الْكَعْبَةَ الْبَيْتَ
“Allah Kəbəni – o möhtərəm və təhlükəsiz evi insanların (din və dünyasının) dayaq və bərqərarlıq vasitəsi etdi”.
*(“Maidə” surəsi, ayə 97)*

اللّهِ فِي أَيّامٍ مَعْلُومَاتٍ لِيَشْهَدُوا مَنافِعَ لَهُمْ وَ يَذْكُرُوا اسْمَ
“Nəticədə öz (dünya və axirət) mənfəətlərinin bir hissəsini müşahidə etsinlər və müəyyən günlərdə Allahın onların ruzisi etmiş olduğu heyvanlar üzərində Onun adını çəksinlər”. *(“Həcc” surəsi, ayə 28)*

İstənilən dövlətdən, istənilən irqdən olan müsəlmanlar bu gün bu əzəmətli, vacib dini ayinin qədrini həmişəkindən daha artıq bilməli və ondan bəhrələnməlidirlər. Çünki bu gün önünə nəzər salan müsəlman ümməti həmişəkindən daha geniş və işıqlı üfüqləri müşahidə edir və artıq bu gün İslam dininin müsəlman fərdlər, ümumilikdə bütün müsəlman cəmiyyəti üçün təyin etdiyi hədəflərə yetişməyə ümid həmişə olduğundan daha çoxdur. Əgər ötən iki yüzillik ərzində İslam ümməti Qərbin maddi sivilizasiyası və onun hər iki – həm sağ, həm də sol yönümlü ateist məktəbləri qarşısında əzilərək geri çəkilməyə məcbur olurdularsa, hicrətin XV yüzilliyində Qərbin elə həmin siyasi və iqtisadi ideoloji məktəbləri zəifləmiş, məğlubiyyətə uğramış, pərən-pərən düşərək geri çəkilməyə düçar olmuşlar. Müsəlmanların oyanışı, öz həqiqi kimliyini yenidən dərk etməsi, təkallahlılıq əqidəsinin, ədalət və mənəviyyat prinsipləri əsasında formalaşmış məntiqin geniş vüsət alması nəticəsində İslam dini özünün yeni bir çiçəklənmə, izzət və ehtiram dövrünə başlamışdır.

Yaxın keçmişdə pessimizmə qapanıb, Qərb sivilizasiyasının hücumları qarşısında nəinki İslam dininin və müsəlman ümmətinin, hətta dini dəyərlərin və mənəvi-əxlaqi prinsiplərin də əldən getdiyini düşünənlər artıq bu gün İslam dininin başını dik tutduğunun, Quran və İslama yeni həyat bəxş edildiyinin, bunun müqabilində isə həmin bədxah hücumçuların get-gedə zəifləyərək sıralarını tərk etdiyinin öz gözləri ilə şahidi olurlar. Bu, zaman qəlblərində və dillərində təsdiq edirlər.

Mən tam əminliklə deyirəm: Bu hələ başlanğıcdır. İrəlidə İlahi vədələr tamamilə gerçəkliyə çevriləcək, yəni haqq batil üzərində qəti qələbə çalacaq, Qurana itaət edən ümmət yenidən formalaşacaq və İslam dini yeni intibah dövrünə qədəm qoyacaq:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِي الأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِنْ قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ
وَلَيُبَدِّلَنَّهُمْ مِنْ بَعْدِ خَوْفِهِمْ أَمْنًا يَعْبُدُونَنِي لا يُشْرِكُونَ بِي شَيْئًا وَمَنْ كَفَرَ بَعْدَ ذَلِكَ فَأُولَئِكَ
هُمُ الْفَاسِقُونَ

“Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi Yer üzünün varisləri edəcəyini, möminlər üçün onların Allahın öz bəyəndiyi dinini (İslamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla,

arxayınçılıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir!” *(“Nur” surəsi, ayə 55)*

Xilaf çıxılması mümkün olmayan bu İlahi vədənin – bu vədi verənin ona xilaf çıxması qeyri-mümkündür və onun – ilk və ən mühüm mərhələdə əlaməti İranda İslam İnqilabının qələbəsi, əzəmətli İslam dövlətinin qurulmasıdır. Bu hadisə İranı müsəlman sivilizasiyası, İslam hakimiyyəti ideyaları üçün möhkəm, dağılmaz bir bünövrəyə çevirdi. Materializmin, sağ və sol təmayüllü siyasi, ideoloji anti-İslam cərəyanlarının çaxnaşdığı bir dövrdə belə bir ecazkar hadisənin baş verməsi, daha sonra isə onun dörd bir yandan üstünə tökülüşən siyasi, hərbi, iqtisadi, təbliğat zərbələrinin qarşısında davam gətirərək möhkəm durması İslam dünyasında yeni bir ümid, qəlblərdə isə həyəcan və təlatüm yaratdı. Zaman ötdükcə o müqavimət Allahın iradəsi və dəstəyi ilə daha da gücləndi, qəlblərdəki o ümid isə daha da dərinə kök saldı. Həmin olaydan sonra ötən üç onillik ərzində Orta Şərq, Asiya və Afrikanın müsəlman ölkələri İslamın, müsəlmanların qələbəsi uğrunda mübarizə meydanına çevrilmişlər: Fələstində müsəlmanların müqavimət hərəkatı; müsəlman Fələstin dövlətinin ayağa qalxması; Livanda Hizbullahın tarixi qələbəsi, qəsbkar və qaniçən sionist rejiminə qarşı müsəlmanların qətiyyətli müqaviməti; İraqda baş verən olaylar, allahsız Səddam diktaturasının xarabalıqları üzərində demokratik müsəlman dövlətinin qurulması; Əfqanıstanda işğalçı kommunistlərin və onların əli ilə taxta çıxarılmış rejimin rüsvayçı surətdə süqut etməsi; ABŞ-ın Orta Şərqi tutmaq məqsədini güdən bütün müstəmləkəçi planlarının puç edilməsi; qəsbkar sionist rejiminin daxilində əlacsız çaşqınlıq və dağınıqlıq; regionun bir sıra, yaxud demək olar ki, bütün ölkələrində xüsusilə də gənclər və ziyalılar arasında İslama sayğı və sevgi dalğasının yayılması; mövcud iqtisadi blokada və sanksiyalara baxmayaraq İİR-nın heyranedici elmi-texniki tərəqqisi; ABŞ-da müharibəpərəstlərin siyasi və iqtisadi arenada süqutu; Qərb ölkələrinin bir çoxunda yaşayan müsəlman azlıqların öz həqiqi kimliyini və individuallığını dərk etməyə başlaması – əslində, bütün bunlar və buna bənzər olaylar bu əsrdə, yəni hicri tarixi ilə XV əsrdə İslamın öz düşmənlərinə qarşı mübarizədə açıq-aşkar qələbəsinin və yüksəlişinin bariz göstəricilərindəndir.

Qardaşlar və bacılar! Bütün bu qələbələrin hamısı bilavasitə cihad və ixlasın məhsuludur. Tanrının səsi Onun bəndələrinin dilindən eşidiləndə, haqq naminə, Allah yolunda çalışıb-vuruşanların qüvvəsi və əzmi meydana çıxanda, müsəlmanlar Tanrı ilə bağladıqları əhd-peymana əməl etməyə başlayanda qadir Allah da öz vədlərini gerçəkləşdirdi və tarixin axarı dəyişdi:

أَوْفُوا بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

“Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim (sizin əhd-peymanınız itaət, Mənimki isə savab və mükafat verməkdir)” . *(“Bəqərə” surəsi, ayə 40)*

إِنْ تَنْصُرُوا اللَّهَ يَنْصُرْكُمْ وَ يُثَبِّتْ أَقْدامَكُم

“Əgər Allaha (Onun peyğəmbərinə, dininə və kitabına) yardım etsəniz, Allah da (məqsədlərinizə çatmaqda) sizə yardım edər və qədəmlərinizi möhkəmləndirər”. *(“Muhəmməd” surəsi, ayə 7)*

إِنَّا لَنَنْصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الأَشْهَادُ

“Şübhəsiz ki, Biz öz peyğəmbərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə (Qiyamət günündə) yardım edəcəyik!” *(“Ğafir” surəsi, ayə 51)*

وَ لَيَنْصُرَنَّ اللَّهُ مَنْ يَنْصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيز

“Allah Ona (Öz dininə) yardım edənlərə, şübhəsiz, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət və qüdrət sahibidir!” *(“Həcc” surəsi, ayə 40)*

Bu, hələ yolun başlanğıcıdır. Müsəlman xalqlarını irəlidə hələ çox çətin sınaqlar gözləməkdədir. Həmin sınaqlardan yalnız və yalnız iman və ixlas, ümid və cihad, uzaqgörənlik və səbirlə çıxmaq mümkündür. Məyusluq və pessimizmlə, etinasızlıq və iradəsizliklə, səbirsizlik və tələskənliklə, Allah-Taalanın verdiyi vədlərə inamsızlıqla bu yol heç vaxt qət oluna bilməz.

Zərbə almış düşmən bütün güc və potensialını meydana çıxarmış və bundan sonra da çıxaracaqdır. Ayıq-sayıq, müdrik və şücaətli olmaq, həmçinin fürsəti əldən verməmək lazımdır. Ancaq belə olan surətdə düşmənin bütün cidd-cəhdləri boşa çıxacaq. Bu 30 il ərzində də düşmən, yəni başlıca olaraq ABŞ və sionizm özlərinin bütün qüvvə və potensialı ilə meydanda olmuş, lakin onların bütün səyləri müvəffəqiyyətsizliyə uğramışdır. Gələcəkdə də eynilə bu cür olacaq. İnşallah ki, düşmənin hiddəti əksər hallarda onun zəif və çarəsiz situasiyada olmasının açıq-aşkar əlamətidir. Fələstinə, xüsusən də Qəzzaya diqqət yetirin! Düşmənin Qəzzada törətdiyi əməllərin bütün bəşərin çəkdiyi zülmlər tarixində misli-bərabərinə çox az təsadüf etmək olar. Bu amansız və qəddar əməllər düşmənin əliyalın surətdə qəsbkar rejimə və onun himayədarına – yəni ABŞ dövlətinə qarşı mübarizə aparan, onların HƏMAS hökumətindən üz çevirmək tələbini ayaqlar altına atan mübariz kişilərin, qadınların və uşaqların güclü iradəsinə qalib gəlməkdə özünü necə də aciz hiss etməsinin aşkar əlamətidir. O böyük və mübariz millətə Allahın salamı olsun! Qəzza əhalisi və HƏMAS hökuməti Qurani-Kərimin bu əbədi ayələrinin kəsb etdiyi mənanı tamamən aydınlaşdırdılar:

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الأَمْوَالِ وَالأَنْفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ
الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ
أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِنْ رَبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ
لَتُبْلَوُنَّ فِي أَمْوَالِكُمْ وَأَنْفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ الَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلِكُمْ وَمِنَ الَّذِينَ أَشْرَكُوا أَذًى كَثِيرًا وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا فَإِنَّ ذَلِكَ مِنْ عَزْمِ الأُمُورِ

“Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Muhəmməd (s)! Belə imtahanlara) səbir edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman “Biz Allahın bəndələriyik və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq” – deyirlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (Cənnət) gözləyir. Onlar doğru yolda olanlardır”. *(“Bəqərə” surəsi, ayə 155, 156, 157)*

“Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz və mütləq sizdən əvvəl (səmavi) kitab verilmiş şəxslərdən və həmçinin müşriklərdən çoxlu cansıxıcı sözlər eşidəcəksiniz. Əgər səbir və təqvaya yiyələnsəniz, bu (dözümlülük), həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir”. *(“Ali-İmran” surəsi, ayə 186)*

Haqq və batilin bir-biri ilə mübarizə apardığı bu meydanda son qələbə yalnız və yalnız haqqa aid olacaq! Məzlum və səbirli Fələstin xalqı, nəhayət ki, düşmənə qalib gələcək!

وَكَانَ اللَّهُ قَوِيًّا عَزِيزًا

“Allah daim güclüdür, qüdrətli qalibdir”. *(“Əhzab” surəsi, ayə 25)*

Elə bu gün də fələstinlilərin müqavimətini qırmaqda aciz qalmaqdan əlavə, siyasi arenada ABŞ-ın və Avropanın bir çox hökumətlərinin azadlıq, demokratiya, insan haqları barədə irəli sürdükləri şüarların və iddiaların yalandan ibarət olan gerçək iç üzünün açılması həmin dövlətlərin beynəlxalq aləmdəki simasına bu tezliklə əsla təmizlənə bilməyəcək rüsvayçı bir ləkə vurmuşdur. Həyasız sionist rejimi həmişəkindən daha da üzüqaradır. Həmçinin bəzi ərəb dövlətləri də bu qəribə imtahanda özlərinin olan-qalan nüfuzlarını da itirməkdədirlər.

وَسَيَعْلَمُ الَّذِينَ ظَلَمُوا أَيَّ مُنْقَلَبٍ يَنْقَلِبُونَ

“Zülm edənlər tezliklə biləcəklər ki, necə bir dönüş yerinə qaytarılacaqlaq”. *(“Şuəra” surəsi, ayə 227)*

Salam olsun əməlisaleh bəndələrə!

***Seyid Əli Hüseyni Xamenei***
***7 dekabr, 2008-ci il***

# Fələstinlilərin İslami qiyamına dəstək olmaq hər bir müsəlmana vacibdir

Bu gün İslam dünyasinda Fələstinin işğalı qədər böyük problem yoxdur. Bu, son zamanlarda İslam ümmətinin düçar olduğu ən böyük bəladır. Belə ki, İslamın düşmənləri müsəlmanların yurdunu, evini işğal edərək oranı müsəlmanların əleyhinə olan hücumlarının səngərinə çevirmişlər. Fələstinlilərin İslami qiyamları "müdafiə cihadı"nın bariz nümunəsidir və ona görə də onlara dəstək olmaq hər bir müsəlmana vacibdir.

Fələstin torpağının hər bir qarışı müsəlmanın evidir və orada İslam və müsəlmanların hökümətindən savayı hər bir hökümət işğalçı hökümət sayılır. Söhbət yəhudilərlə mübarizədən getmir, müsəlmanların işğal olunmuş torpaqlarından gedir.

Hər bir müsəlmanın dini vəzifəsidir ki, İslam adı ilə qiyam edən Fələstin millətinə səlahiyyəti çatdığı hər bir sahədə – siyasi, mədəni, iqtisadi, informasiya və s. sahələrdə – yardım etsin.

Fələstini işğal edən siyonist rejimi və onun himayədarları ilə həmkarlıq etmək çox böyük və bağışlanmayan bir səhvdir. Siyonistlərə və İsrailə dəstək olanlar və əl tutanlar, onlarla müzakirə aparanlar və saziş bağlayanlar elə onlardan sayılır. Mübarizə sazişlə ziddiyyət təşkil edir. Fələstin məsələsinə gəlincə mübarizə aparmaq bir dini vəzifə, saziş bağlamaq isə xəyanətdir.

İslam dünyasının hər bir guşəsində yaşayan ziyalılar, yazıçılar, mədəniyyət və incəsənət xadimləri bu gün Fələstin millətinə edilən zülmləri və vəhşilikləri dünya ictimaiyyətinə çatdırmalıdırlar.

**Ali Məqamlı Rəhbər Ayətullah Xameneinin Fələstin İslam Konfransının iştirakçıları qarşısındakı çıxışından bir parça. 13/09/1369**

# İlahi vədənin gerçəkləşməsi

Sionist rejimin təcavüzünə qarşı Livanın “Hizbullah” qruplaşmasının qələbəsi, Fələstində “Həmas” partiyasının əldə etdiyi uğur və İran İslam Respublikasının hərtərəfli inkişaf və tərəqqisi İlahi vədənin gerçəkləşməsinin ən bariz nümunələridir ki, müsəlmanların ümid və iradəsini  gündən-günə daha da artırır.

**Həzrət Ayətullah Xameneinin “Fələstinin İslami Cihadı” qruplaşmasının rəhbəri ilə görüşündə söylədiyi bəyanatdan bir parça. 18/11/1385**

# Fələstinliləri dəstəkləmək

Bu gün Fələstin milləti ayağa qalxmışdır və mütləq bütün dünya müsəlmanları fələstinlilərin cihadını dəstəkləməlidir. Biz fələstinliləri inamla dəstəkləyir və bu yolla “fələstinlilərin hüququnun müdafiəsi” adı ilə qəsbkarlarla saziş bağlayanları və “mühafizkarları” rədd edirik.

**Həzrət Ayətullah Xameneinin “Fələstinin İslam İnqilabı” komitəsinin üzvləri ilə görüşündə etdiyi çıxışdan bir parça. 04/09/1369**

# Fələstin torpağı fələstinlilərə aiddir

Fələstin müsəlman torpaqlarının mərkəzində yerləşir. Buna görə də dünyanın işğalçı ölkələri həmin məntəqədən İslama qarşı hücuma keçməyə, müsəlman millətlərini təzyiq altında salmağa və İslami hərəkatların qarşısını almağa cəhd göstərirlər. İslam dünyasının qəlbində yerləşən bu məntəqədə sionist rejimi dünya qəsbkarlarının və onların başında duran Amerikanın nümayəndəsidir. Qoy bilsinlər ki, onların apardıqları yalançı təbliğatların heç bir faydası olmayacaq və dünya millətlərini aldada bilməyəcəklər.

Biz yalnız Fələstin millətinin amalları uğrunda mübarizə aparan hər bir təşkilatı milli təşkilat hesab edirik! Təbii ki, öz şəxsi mənafeyini güdən və düşmənə satılıb fələstinlilərin amallarını ayaq altına qoyan təşkilat Fələstin millətini təmsil edən bir təşkilat deyildir.

Fələstinlilər dünya müsəlmanlarının yardımlarından məhrum qalıblar. Bütün müsəlman millətləri Fələstin torpaqlarında təzyiq altında olan müsəlmanlara və onların İslami qiyamına kömək göstərməli, bu işi özlərinin İslami və şəri vəzifələri bilməlidirlər.

Fələstin hadisəsində həqiqətin təhrif olunması olduqca böyük bir təxribatdır. Belə ki, işğal olunmuş torpağı, evi üçün mübarizəyə qalxan bir millət dünya qəsbkarlarının, İsrailin və onun əlaltılarının kütləvi informasiya vasitələrində dünya ictimaiyyətinə terrorist kimi tanıtdırıldı! Çox təəssüfləndirici bir haldır ki, özlərini sülhsevər və insan haqlarının müdafiəçisi adlandıran bir ictimaiyyətin dəstəyi ilə bu gün fələstin millətinin başına olmazın müsibətlər gətirilir. Halbuki, fələstinlilərə bu zülmü rəva görənlərin özləri insan hüquqlarını tapdalayan ünsürlərdir.

Fələstin fələstinlilərə aiddir! Yalnız Fələstin xalqı daxildə birləşib İslami bir dövlət yaratdıqları zaman, o torpaqlarda əmin-amanlığın bərqərar olması mümkündür.

Əgər sizin dedikləriniz həqiqətdirsə və Fələstin milləti, ümumiyyətlə, İslamla heç bir düşmənçiliyiniz yoxdursa, bu təklifi qəbul edin. Dünya qəsbkarları əmin olsunlar ki, əgər bu təklifi qəbul etməsələr, apardıqları müzakirələr və aldıqları qərarlar vasitəsilə fələstinlilərin qiyamını yatıra bilməyəcəklər və belə olan surətdə bu qiyam heç yatmamalıdı da!

Hal-hazırda fədakar və mübariz Fələstin müsəlmanları, qadın və kişi, qoca və cavan olmalarından asılı olmayaraq, o müqəddəs torpaqlarda mübarizə aparırlar. Onlara kömək  göstərin! Fələstinə kömək etmək, əslində, müqəddəs hədəf uğrunda mübarizə aparan bir millətə kömək etmək deməkdir. “Fələstin” dedikdə öz şəxsi mənafelərini güdən, millətini düşünməyən və düşmənə satılmış ünsürləri nəzərdə tutmuruq. Fələstini təmsil edən təşkilatlar yalnız onların müqəddəs amallarını üstün tutanlardır. Düşmənə satılan və bu millətin amallarını tapdalayan təşkilat fələstinlilərin nümayəndəsi deyildir.

**Həzrət Ayətullah Xameneinin “Fələstinlilərin İslami İnqilabının Müdafiəsi” adlı beynəlxalq konfransdakı çıxışından bir parça. 27/07/1370**

# Son əsrdə müsəlmanların oyanışı

Son əsrdə müsəlmanların oyanışının şahidiyik. Fələstinlilər isə bu barədə diqqət mərkəzindədirlər.

Fələstin torpaqlarının işğalından təxminən 60 il keçir. Məzlum Fələstin milləti çox əzab-əziyyətli günlər yaşamış və müxtəlif ağır sınaqları geridə qoymuşdur. Təsəvvür edin: hadisənin başlanğıcında arxasız bir millətin özünümüdafiəsi və ardıcıl məğlubiyyəti, didərginlik, qəriblik, evlərinin, yurd-yuvalarının viran edilməsi, doğmalarının öldürülməsi, kütləvi qırğınlar, Beynəlxalq təşkilatlara üz tutmaq və əliboş geri qayıtmaq, siyasi oyunların qurbanına çevrilmək və qəsbkarların sülhsevər vasitəçi rolunu oynaması...

Bu tarixi təcrübələrin nəticəsidir ki, rəşadətli və şücaətli Fələstin millətinin gənc nəsli azadlıqsevərlik və ayıq-sayıqlığın zirvəsinə yetişdi, bununla da müqəddəs azadlıq hərəkatı baş qaldırdı. Fələstinlilərin cihadında, ümumiyyətlə, İslami cihadların hamısında uğur və qələbənin rəmzi əqidədən dönməzlikdir. Düşmən daim hiylə işlətmək, vədə vermək və hədə-qorxu gəlməklə mübariz insanları əqidə və hədəfindən döndərməyə çalışır. Əgər əqidə itsə və ya zəifləsə, İslam dünyası öz doğru istiqamətini itirəcək və düşmənin təyin etdiyi istiqamətdə hərəkət edəcəkdir. Nəticə isə göz qabağındadır. Əksər hallarda öz aramızda olan və millətimizin nümayəndələri sayılan bəzi insanlar nəinki bizə öz əqidəmizdən dönüb, düşmənin dediklərinə əməl etməyi tövsiyə edir, hətta bunu siyasi taktika və ya tədbirlilik kimi qiymətləndirirlər! Onlar bu işdə hansı məqsədi güdürlər güdsünlər, istər tamahkarlıq, istər xəyanət, istərsə də sadəlövhlük üzündən belə bir tövsiyə etsələr, əmin olsunlar ki, bu ilahi kəlam onlara şamil olacaqdır:

فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ يُسَارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشَى أَنْ تُصِيبَنَا دَائِرَةٌ فَعَسَى اللَّهُ أَنْ يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِنْ عِنْدِهِ فَيُصْبِحُوا عَلَى مَا أَسَرُّوا فِي أَنْفُسِهِمْ نَادِمِينَ

"Ona görə də ürəklərində xəstəlik (nifaq xəstəliyi) olanları onların (yəhudi və xaçpərəstlərin) içində vurnuxan və: "Bizə bir fəlakət üz verməsindən (İslamın məğlubiyyətindən) qorxuruq" – deyən görərsən. Amma ola bilsin ki, Allah (möminlərə) bir zəfər gətirsin və öz tərəfindən elə bir iş qursun ki, onlar (münafiqlər) ürəklərində gizlətdiklərindən (küfr və nifaqdan) peşman olsunlar". *("Maidə" surəsi, ayə 52)*

Onlar düşmənə yardım etməklə heç bir mənfəət əldə etməyəcəklər. Amerika və Qərb dünyası hətta onlara itaət edənlərə, onlarla həmkarlıq və əməkdaşlıq edənlərə belə mərhəmət göstərmədiklərini dəfələrlə sübut etmişlər. Belə ki, onlarla həmkarlıq edənlərdən istifadə müddəti sona yetən kimi onları çox asanlıqla özlərindən kənarlaşdırmışlar.

Bəziləri düşmənin güclü olduğunu xatırlatmaqla haqq-ədalət uğrunda mübarizə aparanları qorxutmağa çalışırlar. Bu, çox aldadıcı bir oyundur. Düşüncəli insanın mübarizə apardığı düşmən həqiqətdə onun varlığını, mənliyini, heysiyyət və şərəfini nişan almışdır. Belə düşmənlə, sözsüz ki, mübarizə aparmaq lazımdır. Qarşıda yalnız iki yol var: ya mübarizədən başıucalıqla çıxmaq, ya da təslim olub mənliyi itirmək və zillətlə yaşamaq.

Fələstinin şücaətli və əzmkar millətinə müraciət edirəm:

"Siz öz səbriniz, yenilməzliyiniz və cihadınızla İslam dünyasının başını uca etdiniz və müsəlman millətlərinə örnək oldunuz. Bu böyük müsibət sizin belinizi bükmədi, əksinə, şəhidlərinizin pak qanı dözümünüzü daha da artırdı. Qəddar düşməniniz kütləvi soyqırımla, qanınızı tökmək və evinizi viran etməklə sizi məhv edə bilmədi və bu gün siz həmişəkindən daha güclüsünüz.

İndiyədək Şeyx Əhməd Yasin, Fəthi Şəqaqi və yüzlərlə belə ucaməqamlı şəhidləriniz, şəhadət yolunu seçən gəncləriniz düşmənə qələbə çalmışlar və bundan sonra da Allahın köməkliyi ilə qələbə çalacaqsınız. Biz – İran İslam Respublikasının müsəlmanları, eləcə də bütün dünya müsəlmanları və azadlıqsevər insanlar sizin qəminizə şərikdirlər. Biz sizin şəhidlərinizi öz şəhidlərimizlə bərabər tutur, başınıza gətirilən müsibətləri, kədər və qəminizi öz qəmimiz hesab edirik. Sizin qələbəniz bizim qələbəmizdir!"

**Həzrət Ayətullah Xameneinin "Beynəlxalq Qüds günü və Fələstin millətinin hüquqlarının müdafiəsi" toplantısındakı çıxışından bir parça. 25/01/1385**

# İctimai azadlıq

Mehriban və bağışlayan Allahın adı ilə

Mənim üçün bu gün çox əlamətdar bir gündür. Əlbəttə ki, əvvəllər – prezident olduğum dövrdə mən bu universitetdə dəfələrlə olmuşam. Lakin, zənnimcə, bugünkü görüş özünün bəzi xüsusiyyətlərinə görə mənim zehnimdə daha da unudulmaz və xoş təəssüratlarla dolu olan bir görüş kimi qalacaq. İki-üç ay bundan əvvəl sizin belə bir görüş keçirmək istədiyinizi mənə xəbər verdilər. Çox güman ki, universitetinizin rektoru görüşün tarixini dəqiqləşdirmək üçün mənim ismarış göndərəcəyimi, yaxud dostların mənimlə görüşüb vədələşəcəyini gözləyirdi. Mən elə həmin vaxtdan sizinlə görüşə gəlməyi, bu universitetin bir neçə illik fəaliyyətinin məhsulunu öz gözlərimlə görməyi qərara aldım.

Bu universitetin bünövrəsi böyük ümidlərlə qoyulmuşdur. Şübhəsiz ki, ölkədəki ali təhsil ocaqlarının hamısının İslam İnqilabının, mövcud dövlət quruluşunun, eləcə də ölkədə elm və mədəniyyət cərəyanının inkişaf etməsində fövqəl dərəcədə böyük rolu var. Lakin bu universitet inqilabın təsis etdiyi bir universitetdir. Onun təsis olunmasında məqsəd İslam İnqilabının əli ilə ölkənin bütün ali təhsil müəssisələri üçün elmi kadrların və müəllimlərin yetişdirilməsi idi. Hal-hazırda – Allaha şükürlər olsun ki, ölkədəki ali təhsil ocaqlarında İslam İnqilabının yetişdirməsi olan imanlı gənclərin çox olduğu bir dövrdə bu sözlər bəziləri üçün o qədər də böyük əhəmiyyət kəsb etməyə bilər. Lakin 60-cı illərin əvvəlində bu sözlər həddindən artıq önəmli idi.

O zaman bəzi ali məktəb müəllimləri inqilabla həmkarlıq etməmək üçün universitetlərdə işləməməyi üstün tutur, bəziləri ölkədən xaricə gedir, bəziləri isə tələbələrin dəfələrlə bizə şikayət etdiyi kimi, gördükləri işə qətiyyən can yandırmırdılar. Əlbəttə ki, imanla və pak niyyətlə ali təhsil ocaqlarında xidmət edənlər də az deyildi. Belə bir dövrdə ölkədəki universitetlərin fəaliyyətini genişləndirmək üçün vahid bir strategiyaya ehtiyac var idi. Həmin vahid strategiya isə bu universitetin yaradılması oldu. Allaha şükürlər olsun ki, bu gün mən bu universitetin kişili-qadınlı minlərlə məzunu və yetişdirməsi olduğunun şahidiyəm. Bu isə bizim üçün çox əhəmiyyətli bir fakt, unudulmaz və şirin xatirə, əsaslı təcrübədir.

Əziz bacı və qardaşlarım! Mən bu mövzuda bircə cümləni də sizin diqqətinizə çatdırmaq istəyirəm ki, bu gün ali təhsil ocaqlarındakı ziyalı gənc nəsil xüsusi məsuliyyət daşıyır. Bu gün sizin ölkəniz, sizin inqilabınız və sizin iftixar doğuran, İslami əsaslara söykənən dövlət quruluşunuz elə bir həssas dövrünü yaşayır ki, rəy və analitik düşüncə sahibi olan bütün insanlar bu quruluşun, onun ideologiyalarının daha da məhsuldar olması üçün idarəedici orqanlarla səylərini cəmləşdirməli və həmkarlıq etməlidirlər. Biz çox çətin mərhələləri artıq arxada qoymuşuq. Müharibənin getdiyi dövrdə də, həmçinin müharibədən sonrakı mərhələdə də çoxlu problemlərlə və çətinliklərlə üzləşmişik.

Artıq bu gün elə bir dövr gəlib çatmışdır ki, biz bilik və elm sahəsində yüksək intellekt, gərgin əmək nümayiş etdirməklə ölkəmizin uzunmüddətli diktatura ağalığı dövründə düçar olduğu geriliyi aradan qaldırmalıyıq. O dövrdə istedadların çiçəklənməsinə heç vəchlə imkan verilmir, bu millətin həqiqi simasının ortaya çıxması üçün şərait yaradılmırdı. Müxtəlif sənaye məhsullarını ölkəyə idxal etməklə həm Qərbin elm və sənayesinin inkişafına nail olur, həm də ölkəni Qərbdən asılı vəziyyətdə saxlayırdılar. Habelə, mədəni-intellektual məhsullar da ölkəyə xaricdən gətirilirdi. Onların ilk növbədə həyata keçirdikləri plan bu ölkənin savadlı təbəqəsində öz varlığına, öz mədəniyyətinə, öz adət-ənənəsinə, öz biliyinə, İran xalqında olan parlaq və tükənməz istedada inam hissini boğmaq oldu. Bu özünəgüvənc hissinin yoxluğu uzun illər boyu öz acı nəticələrini verdi. Həmin məfkurənin – iranlının təhqiri ideyasının bu ölkəyə gətirildiyi və xalqın seçilmiş təbəqəsinin varlığının dərinliklərinə qədər nüfuz etdiyi gündən Qərbin bu planın ilk nübarını daddığı günə qədər, əlbəttə ki, uzun illər ötdü. Lakin son nəticədə onlar istədiklərinə nail oldular və bunun bariz nümunəsi ölkəmizdə müşahidə etdiyiniz həmin bu gerilikdir. Bu qədər insan potensialına, bu qədər maddi resurslara, malik olduğumuz əlverişli coğrafi mövqeyimizə, parlaq tarixi keçmişimizə və nəhəng elmi-mədəni irsimizə rəğmən bizim hazırkı vəziyyətimiz lazımi səviyyədən kifayət qədər aşağıdır. Elm və texnika meydanında müxtəlif elmi nailiyyətlər əldə etməli olduğumuz bir vaxtda biz çox geridə qalmışıq.

Ölkəmizin tarixini, coğrafiyasını, ədəbiyyatını başqa xalqlar bizim özümüzdən daha çox tədqiq etmişlər. Hələ ki, İran xalqının parlaq istedadı mövcud geriliyin əmələ gətirdiyi boşluğu doldurmağa müvəffəq olmamışdır. Şübhəsiz ki, İslam İnqilabının qələbə çaldığı gündən indiyə qədər inanılmaz bir dönüş, möcüzə baş vermişdir ki, məhz həmin möcüzə sayəsində xalqımızın psixologiyasında "özünəinam" hissi formalaşmışdır. Xalqın təhtəlşüurunda yerləşdirilmiş əvvəlki həqarət və cılızlıq hissi isə artıq yoxa çıxmışdır. Lakin irəlidə görüləsi işlər hələ çoxdur.

İslam İnqilabının ilk illərində, xüsusilə də 8 illik məcburi müharibə dövründə problemlərimiz həddən artıq çox idi. Bu gün sizin öhdənizə düşən ən mühüm vəzifə budur ki, çalışıb-vuruşasınız və bütün səylərinizi cəmləşdirərək İslamın nüfuzunu qaldırmağa, İslam Respublikası olan İranın müstəqilliyini qoruyub-saxlamağa nail olasınız. Həmçinin ölkəmizin azadlığını və müstəqilliyini hər cəhətdən təmin edəsiniz. Əlbəttə ki, azad və müstəqil olmaq ölkənin xaricə çıxış sərhədlərini bağlamaq mənasına gəlmir. Şübhəsiz ki, bu ağlabatan iş deyil və heç kəs belə bir təkliflə çıxış etmir. Tarix boyu bəşər övladları bir-biri ilə əlaqələr yaratmış, bundan faydalanmışlar. Lakin iki bərabərhüquqlu, bərabərsəlahiyyətli və bərabərsəviyyəli varlığın özünün intelektual və maddi mülkiyyətini bir-biri ilə paylaşması, mübadilə etməsi birinin digərinin qapısında əl açıb təhqir olunaraq ondan pay gözləməsindən tamamilə fərqlidir. Ölkəmizdə həmin bu hal inqilabdan əvvəlki dövrə qədər bu və ya digər dərəcədə müşahidə olunub.

Sizlər ölkəmizi inkişaf baxımından tələb olunan səviyyəyə çatdırmalısınız. Bu, ölkənin savadlı, ziyalı gənc nəslinin üzərinə düşən böyük bir məsuliyyətdir. Zənnimcə, bu baxımdan sizlərin – bu universitetdə təhsil alan bacı və qardaşlarımızın çiyinlərinə düşən yük daha ağırdır. İnşallah, gələcəkdə siz öhdənizə düşən vəzifəni yerinə yetirməkdə günü-gündən daha artıq müvəffəqiyyət qazanacaqsınız.

Bu gün mənim məqsədim, əlbəttə ki, sizinlə görüşmək və ünsiyyətdə olmaq idi. Bugünkü görüşümüzdə mən hökmən konkret bir mövzu barədə söhbət etmək niyyətində deyildim. Sizin suallarınızı dinləyib cavablandırmaq və sizlərlə ünsiyyətdə olmaq mənim üçün çox xoş olardı. Lakin müəyyən məqamlar vardır ki, ölkənin hazırkı vəziyyətində onları sizin üçün şərh etməyin faydalı ola biləcəyini düşündüm. İndi həmin mövzularda apardığım qeydlər əsasında qısaca icmal şəklində sizinlə söhbət etmək istəyirəm.

"Azadlıq" məsələsi ilə bağlı iki mühüm məqamı qeyd etmək yerinə düşər. Hal-hazırda "azadlıq" mövzusunun ölkə mətbuatında, analitik düşüncə və rəy sahibi olan şəxslər arasında geniş yayılması təqdirəlayiq bir faktdır. İslam İnqilabının ortaya qoyduğu əsas və prinsipial məsələlərin müzakirə obyektinə çevrilməsi, ayrı-ayrı şəxslərin həmin məsələlər barədə öz rəyini bildirməsi bizim üçün daim gözlənilən bir şey olmuşdur. Digər müxtəlif məsələlər ətrafında da bu cür təhlillər az-çox aparılmışdır. Hal-hazırda da bu məsələ gündəmdədir. Mən də mətbuatda yazılanları, səslənən müxtəlif fikirləri mümkün qədər izləməyə çalışır, özlüyümdə onları araşdırır və hətta bəzən onlardan istifadə də edirəm. Ortaya qoyulan rəylər və fikirlər çoxcəhətlidir, yəni hamı eyni istiqamətdə düşünüb yazmır. Bir-birinə müxalif olan tərəflərin hər ikisinin sözündə düzgün və haqlı olduğu məqamlar müşahidə olunur. Polemikaların davam etdirilməsi müsbət bir haldır. Mən istərdim ki, bizim analitiklərimiz prinsipial məsələləri mətbuat tribunasında şərh və təhlil etməyə təşviq olunsunlar, mətbuatımızı məhdud əhatəli mövzuların çərçivəsindən çıxararaq düşündürücü və istiqamətləndirici mövzulara doğru yönəltsinlər. Biz daim tövsiyə edirik ki, İslam İnqilabının cəmiyyətimizə gətirdiyi mədəniyyəti möhkəmləndirmək lazımdır. Bunun əsasında isə həmin məsələlər durur.

Mənim "azadlıq" məsələsi barədə qeyd etmək istədiyim iki əsas məqamdan biri budur ki, biz digər bir şüarımız olan "istiqlal" şüarını həyata keçirməliyik. Başqa sözlə desək, müstəqil surətdə düşünməliyik, şüurumuzu hər cür təqlidçilikdən və asılılıqdan qorumalıyıq. İnkişafımızın əsasında duran bu məqamda başqalarını təqlid edib hadisələrə yalnız Qərbin təfəkkür tərzini bizə təlqin edən prizmalardan baxsaq, böyük bir səhvə yol vermiş olarıq və gələcəkdə bunun acı nəticələri ilə üzləşərik.

Əvvəldə qeyd etdim ki, "azadlıq" mövzusu Qurani-Kərimdə və məsum imamlarımızın (ə) kəlamlarında dəfələrlə və təkidlə toxunulan bir mövzudur. Şübhəsiz ki, biz "mütləq azadlıq" barədə danışmırıq. Dünyanın heç bir yerində "mütləq azadlıq" ideyasının tərəfdarı yoxdur. Mənim fikrimcə, dünyada "mütləq azadlıq" ideyasının carçısı olan bir şəxs belə tapılmaz. Bizim məqsədimiz İslam dinində, xüsusilə də İslam irfanının ən ali mərhələlərində şərh edilən "mənəvi azadlıq" anlayışı da deyil. Bu, bizim söhbətimizin mövzusu deyil. "Mənəvi azadlıq" mənəviyyata etiqadı olan bütün insanların qəbul etdiyi bir məfhumdur. Onu nə rədd etmək, nə də məcburi surətdə kiməsə qəbul etdirmək qeyri-mümkündür. Bizim burada bəhs etdiyimiz "azadlıq" məhz "ictimai azadlıq"dır. Biz bir insanın real hüquqları olan fikir, söz, seçim və digər bu kimi azadlıqlarından danışırıq. Həmin bu mövzu İslam dininin müqəddəs kitabında, İslam Peyğəmbərinin (s) və məsum imamların (ə) ənənəsində və buyurduqları

kəlamlarda yüksək qiymətləndirilmiş, təqdirə layiq görülmüşdür.

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِنْدَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُمْ بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنْكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَائِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلالَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُوا بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُوا النُّورَ الَّذِي أُنْزِلَ مَعَهُ أُولَئِكَ هُمُ الْمُفْلِحُونَ

“O kəslər ki əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula – ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər)”. *(“Əraf” surəsi, ayə 157)*

Allah-Taala bu ayədə buyurur ki, Peyğəmbərə (s) xas olan xüsusiyyətlərdən biri də insanları onların azadlığını məhdudlaşdıran buxovlardan, إِصْراً [əsr], yəni “əsarət zəncirləri”ndən, yəni məcburi surətdə onların üzərinə qoyulmuş öhdəçiliklərdən azad etməkdir. Bu, çox maraqlı və geniş bir anlayışdır. O dövrdə cəmiyyətə hakim olan dini və ümumilikdə sosial mühiti nəzərə alsaq, görərik ki, həmin “əsarət zəncirləri”, insanların zorla boynuna qoyulmuş müxtəlif öhdəliklər, sazişlər bir sıra batil, xurafat mahiyyətli inanclardan, mütləqiyyət, eyni zamanda qaydaları təhrif edərək xalqın avamlığından istifadə edən şəxslər tərəfindən insanlara yük edilmiş yanlış sosial qanunlardan qaynaqlanır. Hamıya məlumdur ki, elə ayədə keçən الأَغْلال [əğlal] sözünün mənası da “buxovlar” və “zəncirlər” deməkdir.

Əmirəl-möminin Əli (ə) haqqında olan “Ədalətin səsi” adlı məşhur kitabın müəllifi Corc Cordaq  həmin əsərdə Həzrət Əlinin (ə) və ikinci xəlifə Ömərin dediyi iki cümlə arasında müqayisə aparır. Xəlifə Ömərin hakimiyyəti dövründə bir gün vilayət hakimlərindən  bir neçəsi onun hüzurunda durmuşdular. Həmin şəxslərdən şikayət daxil olduğuna görə xəlifə onlara qarşı çox qəzəbli idi. O, üzünü həmin valilərə tutaraq belə bir yaddaqalan cümlə deyir:

استعبدتم النّاس و قد خلقهم اللّه احرارا؟

“Siz insanları qul etmisiniz, halbuki, Allah onları azad yaratmışdır”.

Həzrət Əli (ə) isə başqa bir cümlə deyir ki, həmin fikir “Nəhcül-Bəlağə”də də öz əksini tapmışdır. Əli (ə) buyurmuşdur:

لاتكن عبد غيرک وقد خلقک اللّه حراً

“Özündən başqasına qul olub, ona boyun əymə. Allah səni azad xəlq etmişdir”.

Corc Cordaq  həmin cümlələri bir-biri ilə müqayisə edir və Əmirəl-mömininin (ə) dediyi fikri Ömərin dediyindən qat-qat üstün hesab edir. Çünki Ömər sözünü elə şəxslərə deyirdi ki, onlar azadlıq və hürriyyətə heç bir zəmanət vermirdilər, onların özləri Ömərin:

استعبدتم النّاس

“İnsanları özünüzə qul etmisiniz, indi isə onları azad buraxın”

– deyə irad tutduğu kəslər idilər. Burada biz xəlifə Ömərin konkret müraciət tərzini, danışıq metodunu müşahidə edirik. Digər bir metod isə budur ki, Əmirəl-möminin (ə) həmin insanların özlərinə müraciət edir və əslində, dediyi sözün icrasına zəmanəti elə sözün öz həqiqi mənasında qoyur:

لاتكن عبد غيرک وقد خلقک اللّه حراً

“Özündən başqasına qul olma, Tanrı səni azad yaratmışdır”.

Bu kəlamların hər ikisində “azadlıq” məfhumuna xas olan iki xüsusiyyətə rast gəlinir. Şübhəsiz ki, Həzrət Əlinin (ə) kəlamı daşıdığı mənanın icrasına zəmanət verdiyi üçün daha üstündür. Qeyd etdiyim xüsusiyyətlərdən biri budur ki, “azadlıq” insan fitrətinin bir parçasıdır (خلقک وقدً حرا اللّٰه ). Mən bu gün Qərb təfəkkür tərzi ilə İslami təfəkkür tərzini müqayisə edib “azadlıq” məfhumunun insan təbiətinə, insan fitrətinə xas bir cəhət olduğunu qeyd etmək istəyirəm.

Əlbəttə ki, bu gün həmin mövzuda tam təfsilatı ilə danışmaq fikrində deyiləm. “Azadlıq” məfhumu barədə qeyd olunası bir çox vacib məqamlar da vardır ki, Allahın köməkliyi ilə mən başqa bir vaxt, başqa bir görüşümüzdə, İnşallah, bu mövzuda daha ətraflı danışaram. İndi isə iki mühüm nöqtəni qeyd etmək istəyirəm ki, bunlardan biri elə həmin “azadlıq” mövzusu barədə azad və müstəqil surətdə düşünmək, fikir yürütməkdir.

Baxın, müasir dünyanın siyasi terminologiyasında işləndiyi mənada “ictimai azadlıq” prinsipinin kökləri müqəddəs Qurani-Kərimə gedib çıxır və XVIII əsr Avropa liberalizmi dövrünə qayıdıb Kantın, Jan Stüart Milin və yaxud başqalarının bu barədə irəli sürdüyü fikirləri araşdırmağa heç bir lüzum yoxdur. Bizim öz sözümüz və öz məntiqimiz var. Mən qətiyyətlə deyərdim ki, yuxarıda adlarını çəkdiyim insanların dedikləri fikirlər müəyyən dəlillərə əsasən bu mövzuda bizə bələdçilik edə bilməz. Bilin ki, “azadlıq” kateqoriyası birmənalı şəkildə İslam dininə məxsusdur! Əlbəttə ki, zənnimcə, “azadlıq” məfhumunun İslam dininə, müsəlman ümmətinə aid edilməsinin, özümüzünküləşdirilməsinin əleyhinə çıxan və bu işdə bir-biri ilə həmkarlıq edən iki insan qrupu mövcuddur:

Bunlardan biri daim sonuncu iki-üç yüzillik ərzində Qərb fəlsəfəsində “azadlıq” kateqoriyası haqqında irəli sürülən fikirləri misal gətirən, “Filankəs bu cür demişdir”, yaxud “Filankəs bu cür yazmışdır” – deyə təkrar edən şəxslərdir. Şübhəsiz ki, konkret filosofların və fəlsəfi cərəyanların adını çəkib onlardan nümunə gətirən insanlar nəcib və alicənab insanlardır. Lakin mətbuatda çıxış edən bəzi “filosoflar” da var ki, Jan Stüart Milin, yaxud başqa bir fransız, alman və ya amerikalı filosofun irəli sürdüyü fikri yazır, əsil müəllifin adını isə qeyd etmir, bununla da başqalarının dediyi sözləri öz adlarına çıxarırlar! Beləələri fırıldaqçılıq və plagiatla məşğul olmaqla yanaşı, həm də “azadlıq” məfhumunun, “ictimai azadlıq” kateqoriyasının Qərbə məxsus bir prinsip – Qərbin bizə olan bir “hədiyyəsi” fikrini formalaşdırırlar!

Həmin insanlara özləri də bilmədən dəstək olan digər qrup insanlar isə “azadlıq” məfhumunun adı çəkilən kimi qorxu və dəhşət hissi keçirməyə başlayan, “Amandır, din əldən getdi!” – deyə fəryad edən kəslərdir. Xeyr! Əsla belə deyil! Din azadlığın ən böyük elçisi və müjdəçisidir! Din nə üçün əldən getməlidir ki?! Sağlam və məntiqli azadlıq dinin bir xalqa və cəmiyyətə verdiyi ən böyük töhfədir. Azadlığın bərəkəti sayəsində düşünən beyinlər inkişaf edir, istedadlar çiçəklənir. İstibdad isə istedadın əleyhinədir! Zülmün, istibdadın olduğu hər bir yerdə istedadlar qol-qanad aça bilməz. Halbuki, İslam dini insanların daha da canlanması, ruhlanması və inkişaf etməsini istəyir. Nəhəng təbii resurslar kimi nəhəng insan potensialı da üzə çıxarılaraq aşkar edilməli, dünyanı abadlaşdırmalıdır. Məgər azadlıq olmadan bu mümkündürmü? Yalnız əmr və qadağalarla bu, mümkün ola bilərmi? Elə buna görə də “azadlığın” din üçün təhlükə törətdiyini düşünənlər yanlış fikirdədir. Beləliklə, bu iki qrup – “qərbmeyillilər” və “azadlıqdan çəkinənlər” (onları şərti olaraq belə adlandıraq) əslində, özləri də bilmədən “azadlıq” məfhumunun İslamın əhatə etdiyi kateqoriyalar sırasından tamamilə uzaqlaşdırılmasında əlbir olurlar. Halbuki, bu həqiqətə uyğun deyil və “azadlıq” İslam dininə tam aidiyyatı olan bir məfhumdur.

Qeyd edim ki, İslamda deyilən mənada azadlığa, yəni “ictimai azadlığa” Qərb mütəfəkkirlərinin yazılarındakından daha çox üstünlük verilir. Şübhəsiz ki, liberalizm tərəfdarı olan mütəfəkkirlərin də bu mövzuda bir çox traktatları vardır. Renesans dövründən sonra Fransada, Avropada, ardınca isə bütün dünyada liberalizm cərəyanı yayıldı və Fransa İnqilabı ilə nəticələndi. Daha sonra isə liberalizmdən təhrif olunmuş formada Amerikanın istiqlal uğrunda müharibələrində istifadə olundu və “ABŞ Xartiyası” meydana gəldi. Əlbəttə, bütün bu mövzulara ətraflı nəzər salmaq üçün daha artıq zaman tələb olunur. İndiyə qədər, xüsusən də son zamanlarda liberalistlər onlarla əsərlər və traktatlar yazmışlar. Son dövrdə, belə demək mümkündürsə, amerikalı nəzəriyyəçilər, ideoloqlar, yaxud “qabaqcıllar” bu mövzu ətrafında periodik olaraq yazırlar.

Nəzərinizə çatdırım ki, bu mütəfəkkirlərin xeyli hissəsi hətta amerikalı olmasalar belə, ABŞ-ın xüsusi təyinatlı mexanizmlərinin sifarişi ilə bu istiqamətdə yazır, xüsusilə də liberalizm mövzusunda olan mətləblərə toxunurlar. Belə əsərlər Avstriyada,

Almaniyada, yaxud Fransada yazıla bilər. Lakin bu əsərlərin hamısı məhz Nyu-Yorkda çap olunur! Onların sifarişçisi isə ABŞ-dır! Həmin əsərlərin qələmə alınması faktı da elə ABŞ-ın qarşıya qoyduğu məqsədlərdən qaynaqlanır, bunun özü isə ayrıca danışılmalı olan əhatəli bir mövzudur. Bütün bu deyilənlərə, müxtəlif fikirlərin irəli sürülməsinə baxmayaraq İslam dininin "azadlıq" məfhumuna yanaşması ən qabaqcıl yanaşmadır.

Qərb mütəfəkkirləri "azadlıq" məfhumunun fəlsəfi məfhum kimi şərh etməkdə çətinliklərlə üzləşirlər. Bəs azadlığın fəlsəfəsi nədir? İnsan nəyə görə azad olmalıdır? Bütün bu suallara verilən cavablar mütləq fəlsəfi dəlillərə, fəlsəfi dünyagörüşünə söykənməlidir. Yuxarıdakı suallara cavab olaraq cürbəcür fikirlər: azadlığın cəmiyyət və fərd üçün faydalı olması, azadlıqdan ictimai və fərdi miqyasda həzzalma, ən uzağı isə azadlığın sivil hüquqlardan biri olduğu deyilmişdir. Bütün bunlar yanlış təsəvvürlərdir və bu fikirləri səsləndirənlər böyük səhvə yol vermişlər.

Son illərdə liberalizm mövzusunda nəşr edilmiş yazılara baxsanız, "azadlıq" məfhumu barədə orta əsrlərdə aparılan müzakirələrə bənzər vaxt itkisi tələb edən nə qədər boş və faydasız yazıların, əsassız fikirlərin olduğunu görərsiniz. Biri fikir yürüdür, başqa birisi isə ona cavab yazır, birinci bir daha ikincinin fikrinə öz iradını bildirir. Bəli, bu, üçüncü dünya ölkələrinin ziyalıları üçün heç də pis bir məşğuliyyət deyil! Biri bu nəzəriyyəyə, o biri isə başqa bir nəzəriyyəyə tərəfdar çıxa! Biri müəyyən bir dəlili qəbul edə, digəri onun dəlilinə şərh yaza! Başqa birisi isə həmin nəzəriyyəni öz adından başqasına təqdim edə!

Bütün bu polemikalardan hasil ola biləcək ən maksimal nəticə budur: azadlığın fəlsəfəsi və mənşəyi onun insanın hüquqlarından biri olmasıdır. İslam dini isə bundan daha üstün bir fikir irəli sürür. İslam – az öncə qeyd etdiyim hədisdən anlaşıldığı kimi – azadlığı insan fitrətində, insan təbiətinin yaradılış nizamında qoyulmuş bir anlayış hesab edir. Bəli, azadlığın insanın hüquqlarından biri olduğu doğrudur. Lakin azadlıq insanın yaşamaq, var olmaq kimi daha üstün imtiyazlı hüquqlarından biridir. Belə ki, insanın yaşamaq hüququnu onun məskunlaşmaq, səs vermək hüququ ilə eyni sırada qoymaq əsla mümkün deyil. Yaşamaq haqqı sadalanan həmin hüquqlardan daha önəmlidir, onlar üçün bir növ zəmin rolunu oynayır. İnsanın azadlıq hüququ da bax, bu cürdür! Bu, İslam dininin "azadlıq" məfhumuna baxış prizmasıdır.

Şübhəsiz ki, burada da bir sıra istisnalar mövcuddur. Konkret hallarda insan yaşamaq hüququ kimi azadlıq hüququndan da məhrum edilə bilər. Məsələn, insan bir kəsi qətlə yetirdikdə ondan analoji surətdə qisas alına bilər, yaxud biri fəsad törədirsə, cəzasını alır. Lakin bunlar müstəsna hallardır. Bu, İslamın konkret problemə baxışıdır. Buna görə də "ictimai azadlıq" ideologiyasının "Qərbin töhfəsi" bizə olduğunu düşünmək, bu mövzuda maraqlı və diqqətəlayiq bir söz söyləmək istədikdə isə hökmən yabançı birinin yazdığı əsərdən nümunə gətirməyə çalışmaq, öz ağlına görə düşünüb yazan qərbli bir müəllifin adını çəkmək yanlışdır. Xeyr! Müstəqil surətdə düşünmək, fikir yürütmək lazımdır! Öz mənbələrimizə, İslami mənbələrə müraciət etmək gərəkdir. İnsan başqalarının irəli sürdüyü fikirlərdən kor-koranə təqlid üçün deyil, zehnini açmaq, özünə qaranlıq qalmış məqamları aydınlaşdırmaq üçün istifadə etməlidir. Təqlidçilik insana və cəmiyyətə böyük ziyanlar vura bilər.

Bu günümüzdə mən mətbuat və ideologiya meydanında aparılan polemikalarda – ilk öncə qeyd etdim ki, onların mövcud olması faktını təqdirəlayiq hesab edirəm – çoxlarının bu mühüm məqama diqqət yetirmədiyini görürəm. Mən sizlər üçün İslam məntiqində "azadlıq" məfhumunun kəsb etdiyi mahiyyəti Qərb məntiqindəki mənadan fərqləndirən bir neçə ən başlıca cəhəti qeyd edəcəyəm. Əlbəttə, az öncə qeyd etdim ki, liberalizm Qərb ideoloji məktəblərinin irəli sürdüyü müxtəlif nəzəriyyə və tendensiyalardan biridir və həmin cərəyanlardan bəzilərinin müəyyən cəhətlərə görə digərlərindən bir qədər fərqlənməsi mümkündür. Lakin ümumi müddəalar bunlardır:

Qərb liberalizm məktəbi insanın azadlığını "din" və "Tanrı" adlanan həqiqətlərlə əlaqələndirmir və buna görə də "azadlığı" heç bir zaman insana Tanrı tərəfindən bəxş edilmiş bir başlanğıc hesab etmir. Liberalistlərdən heç biri azadlığın insana Tanrı tərəfindən əta edildiyini demir və bu məfhumun mənşəyi barədə verilən suallara fəlsəfi, rasional bir cavab axtarıb-tapmağa çalışırlar. Onlar bu problemlə bağlı müxtəlif fikirlər irəli sürmüş, müxtəlif şərhlər yazmışlar.

***

İslam dinində azadlıq ilahi bir başlanğıc hesab edilir. Bunun özü ən ümdə fərqli xüsusiyyətdir və digər fərqli cəhətlərdən bir

çoxunun mənşəyidir. İslam məntiqinə görə azadlığa qarşı çıxmaq ilahi, müqəddəs bir gerçəkliyə qarşı çıxmaq deməkdir, yəni belə bir fakt qarşı tərəfin üzərinə din, Tanrı qarşısında cavabdehlik qoyur. Qərbdə isə belə bir əqidə yoxdur, yəni bu məsələyə Qərb liberializm ideologiyası nöqteyi-nəzərindən yanaşsaq, görərik ki, dünyada ictimai azadlıq uğrunda aparılan mübarizələrin heç bir məntiqi izahı yoxdur. Məsələn, bir çox hallarda onlar ictimai azadlığın mənşəyindən, zəruriyyətindən danışdıqda onun "toplum üçün" və ya "əksəriyyət üçün xeyirli olması"nı dəlil gətirirlər. İctimai azadlığın "kökü" də elə budur. Sual oluna bilər: "Nə üçün mən toplumun, başqalarının xeyri naminə döyüşə gedib məhv olmalıyam?" Bu ki tamamilə məntiqsiz bir fikirdir. Əlbəttə, bir anlıq, ötəri emosiyalar çoxlarını döyüş meydanlarına çəkib aparır. Lakin bu cür ideologiyaların bayrağı altında səfərbər olub mübarizəyə qalxmış insanlar (əgər, həqiqətən də, onları mübarizəyə təhrik edən amil həmin ideologiyadırsa) mübarizə meydanının emosional atmosferindən kənarlaşan kimi gördüyü iş barədə şəkkə düşüb öz-özünə sual verəcək: "Mən nəyə görə güllə qabağına getməliyəm ki?!"

İslam təfəkküründə isə məsələnin qoyuluşu tamamilə başqa cürdür. Burada "azadlıq uğrunda mübarizə" insanın öhdəsinə düşən və onun üçün cavabdehlik daşıdığı bir vəzifədir. Çünki bu, "İlahi bir başlanğıc" naminə aparılan mübarizədir. Necə ki, insan bir kəsin canına qəsd olunduğunun şahidi olarsa, ona yardım etməyə borcludur. Bu, dini etiqaddan qaynaqlanan elə bir vəzifə borcudur ki, insan onu yerinə yetirməsə, günah etmiş olacaqdır. Azadlıq məsələsində də problemin qoyuluşu məhz bu cürdür. Azadlıq naminə mübarizəyə getmək vacibdir, çünki bu, insanın dini vəzifəsidir.

Bu ən ümdə fərqli xüsusiyyətin bünövrəsi üzərində digər fərqli cəhətlər durur. Onlardan biri budur ki, Qərb liberalist məktəbində əxlaqi dəyərlər və gerçəkliklər nisbi anlayış olduğundan "azadlıq" qeyri-məhdud bir məfhumdur. Niyə? Çünki siz bir sıra əxlaqi dəyərlərə etiqad bəsləyirsinizsə, bu, o demək deyil ki, həmin dəyərlərə məhəl qoymayan bir kəsi buna görə məzəmmət etməyə haqqınız çatır. Belə ki, o, sizdən fərqli olaraq bu dəyərlərə ehtiram bəsləməyə bilər. Buna görə də Qərbdə azadlıq üçün mənəvi-əxlaqi baxımdan heç bir hədd qoyulmur. Onların məntiqinə görə azadlıq məhdudlaşdırılması qeyri-mümkün olan bir anlayışdır. Çünki onlar üçün sabit, dəyişməz bir gerçəklik mövcud deyil. Onların fikrincə, əxlaqi dəyərlər və həqiqətlər nisbi xarakter daşıyır.

İslamda isə "azadlıq"la bağlı məntiqi dəyərləndirmə tamamilə fərqlidir. İslamda konkret və sabit dəyərlər vardır. İslamda gerçəklik vardır. İslamda, sözün həqiqi mənasında, yüksək dəyərlər üçün başlanğıc rolu oynamağa qadir olan mükəmməl bir gerçəkliyə doğru can atma vardır. Buna səbəbdən də azadlığın həmin dəyərlərlə məhdudlaşdırılması mümkündür. Həmin dəyərlərin hansı meyarlara əsasən təyin və qəbul edilməsi isə tamamilə başqa bir söhbətin mövzusudur. Ola bilər ki, bu dəyərlərin dərk edilməsində bəziləri düzgün, digərləri isə yanlış yollara istiqamətləndirilsinlər. Söhbətimizin əsas mövzusu bu deyil. Hər halda demək istədiyimiz budur ki, "azadlıq" məhz gerçəkliklə və konkret dəyərlərlə məhdudlaşdırılır.

İslamda bu qədər dəyər verilən "ictimai azadlıq" prinsipi də bir xalqın mənəvi dəyərlərini, yaxud maddi nailiyyətlərini korlamağa, aradan aparmağa xidmət edərsə, ziyanlı hesab edilir. Elə insan həyatının özü kimi. Quranda belə buyurulur:

من قتل نفساً بغير نفس او فساد في الارض فكانّما قتل النّاس جميعاً
"... Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur..." *("Maidə" surəsi, ayə 32)*

Quran məntiqinə görə bir insanı qətlə yetirmək bütün bəşəriyyəti məhv etməyə bərabərdir. Çox maraqlı və diqqətəlayiq bir məntiqdir: əlini bir insanın qanına bulayan şəxs sanki bütün insanlığı qətlə yetirmiş kimidir. Belə ki, onun tutduğu bu iş, əslində, insan şəxsiyyətinin, bəşəri başlanğıcın hüdudlarına təcavüz etmək anlamındadır. Lakin burada da müstəsna bir hal mövcuddur:

بغير نفس او فساد في الارض
"yer üzündə fitnə-fəsad törətməmiş"

Yəni şəxsiyyətinin hüdudlarına bu şəkildə təcavüz edilən şəxsin özü kiminsə canına qəsd etmiş, yaxud fəsad törətmiş olsun.

Diqqət edin: konkret, sabit dəyərlər və həqiqətlər insanın yaşamaq hüququnu məhdudlaşdırdığı kimi azadlığı da məhdudlaşdırır.

Digər bir fərqli cəhət budur ki, Qərbdə azadlığın həddini və meyarını maddi maraqlar təyin edir. Belə ki, Qərb dövlətləri əvvəlcə fərdi və ictimai azadlıq üçün konkret hüdudlar müəyyənləşdirir, daha sonra isə özlərinin nəhəng nüfuzu və elmi cəhətdən müstəmləkəçilik ağalığı kimi maddi maraqları təhlükə altında qaldıqda isə azadlığı hər vəchlə məhdudlaşdırırlar. Azadlıq maariflənmə və biliklərə yiyələnmə baxımından insanın ən müstəqim hüquqlarındandır. Hər bir insanın öyrənmək, bilik əldə etmək hüququ var. Lakin insanların bu hüququ Qərb dünyasının aparıcı universitetlərində məhdudlaşdırılır! Yüksək səviyyəli elm və texnologiya, onların öz təbirincə desək, HIGH TEC başqalarına ötürülmür! Texnoloji nailiyyətlərin konkret ölkələrə ötürülməsi qadağandır. Nə üçün?! Çünki bu nailiyyətlərin və biliklərin ötürülməsi o ölkələrin nəhəng dövlətlərin monopoliyasından çıxmasına səbəb olar, həmin maddi nüfuz və inhisar itirilə bilər. Bax, burada azadlığın qarşısına sədd çəkilir, yəni ali təhsil ocağında çalışan müəllimin, fərz edək ki, üçüncü dünya ölkəsindən olan bir şəxsə – iranlı tələbəyə, yaxud çinli tədqiqatçıya konkret elm sahəsinin konkret bir bölməsini öyrətməyə hüququ çatmır!

İnformasiyanın ötürülməsində də vəziyyət eynilə bu cürdür. Hal-hazırda bütün dünya informasiyanın əldə olunması və ötürülməsində azadlıq əldə etmək uğrunda çalışıb-vuruşur. Qərbdə insanın hüquq və azadlıqlarının genişləndirilməsinin ən gurultulu şüarlarından biri budur: “Qoy insanlar baş verən hadisələrdən xəbərdar olsunlar! Qoy hamı məlumatlı olsun!” Lakin buna baxmayaraq Buş administrasiyası dövründə Amerikanın İraqa hücumu zamanı bir həftə, ya bir qədər də artıq müddət ərzində bütün informasiya agentlikləri rəsmi surətdə senzuranın nəzarəti altında idi. Hətta onlar fəxrlə belə deyirdilər ki, heç bir müxbirin ABŞ-ın İraqa hücumunu işıqlandırmaq üçün bircə fotoşəkil və ya bircə məlumat belə olsun, əldə edib yayımlamasına icazə verilmir. Hücumun baş tutduğunu hamı çox yaxşı bilirdi. Amerikalılar özləri bu barədə məlumat yaymışdılar. Lakin hadisənin təfsilatı barədə heç kəs heç nə bilmirdi. Çünki ABŞ informasiyanın ötürülməsinin onun hərbi təhlükəsizliyinə zərər vura biləcəyini elan etmişdi. Baxın, hərbi təhlükəsizlik mənafeyi – yəni maddi bir sədd, maddi bir məhdudiyyət azadlığın qarşısını kəsdi.

ABŞ hökumətinin bünövrəsinin möhkəmləndirilməsi də insan azadlığının qarşısında sədd rolunu oynaya biləcək digər bir amildir. Təxminən dörd-beş il bundan əvvəl xüsusi dini sektanın üzvləri olan bir qrup insan o dövrdə Amerikada hakimiyyətdə olan Klinton administrasiyasına qarşı çıxış etmişdilər. Dövri mətbuatı izləyənlər bu barədə yazılan xəbərləri, yəqin ki, oxumuş olarlar. Şübhəsiz ki, mən baş vermiş olayla əlaqədar olan məlumatları tam təfsilatı ilə əldə etmişdim. Lakin ölkəmizdəki bütün qəzetlər də bu barədə yazılar dərc etmişdilər. ABŞ hökuməti həmin insanlara qarşı müxtəlif inzibati və təhlükəsizlik tədbirləri görsələr də, bunun heç bir faydası olmadı. Nəticə etibarilə həmin qrupun toplandığı ev mühasirəyə alındı, onlara odlu silahlardan atəş açıldı və təxminən 80 nəfər güllələbaran edildi! O zaman baş vermiş bu olayın fotoşəkilləri bütün dünyaya yayımlanmış və hamı bu hadisədən xəbər tutmuşdu. İçərisində qadınların və uşaqların da olduğu həmin 80 nəfərdən, böyük ehtimalla heç biri hərbçi olmamışdır. Baxın, insanların yaşamaq hüququ, əqidə və siyasi mübarizə azadlığı bu həddə qədər məhdudlaşdırıla bilir! Buna əsaslanaraq demək olar ki, Qərbin maddi dünyasında belə azadlığın önünə çəkilən sədlər və sərhədlər mövcuddur. Lakin bütün bunlar maddi sədlər və sərhədlərdir.

Qərbdə əxlaqi dəyərlər azadlıq üçün heç bir maneə rolunu oynamır. Məsələn, ABŞ-da homoseksualistlərin hərəkatı ən geniş yayılmış hərəkatlardan biridir! Hətta bununla fəxr də edirlər! Küçələrdə etiraz aksiyaları təşkil olunur, jurnallarda belə insanların şəkilləri çap olunur. Habelə filan biznesmenin, filan siyasət adamının bu hərəkatın tərəfdarı olduğunu böyük qürur hissi ilə qeyd edirlər. Heç kəs bundan nə xəcalət çəkir, nə də deyilənləri təkzib edir. Bu azmış kimi, homoseksualistlər hərəkatına qarşı çıxan bəzi şəxslər bu hərəkətlərinə görə bəzi mətbuat orqanlarının və qəzetlərin şiddətli hücumuna məruz qalırlar. Başqa sözlə desək, Qərbdə əxlaqi dəyərlər heç bir halda azadlıq üçün sədd və sərhədi təyin etmirlər.

Avropa ölkələrində bariz şəkildə müşahidə olunan digər bir faktı da nümunə gətirmək olar. Misal üçün: faşizm hərəkatının təbliğatı istiqamətində söz azadlığı məhdudlaşdırılır. Bu, şübhəsiz ki, hökumətin maddi maraqlarını əks etdirən bir amildir. Lakin çılpaqlığın təbliğatı istiqamətində (bəli, bu da bir hərəkatdır) söz azadlığı isə məhdudlaşdırılmır! Buradan belə bir nəticəyə gəlmək olar ki, Qərb liberalizminin bütün fəlsəfəsinə, fəlsəfi başlanğıcına və fəlsəfi baxış prizmasına baxmayaraq Qərbdə fərdi və ictimai azadlığı məhdudlaşdıran amillər əxlaqi amillər deyil, yalnız və yalnız maddi amillərdir. İslamda isə fərdi və ictimai azadlıq üçün maddi sərhədlərdən əlavə, əxlaqi baxımdan da məhdudiyyətlər mövcuddur. Şübhəsiz ki, kimsə ölkənin mənafeyinin ziddinə olan bir iş görsə, onun azadlığının məhdudlaşdırılması mümkündür. Lakin bununla yanaşı mənəvi-əxlaqi sərhədlər də mövcuddur. Kimsə azğınlıq, pozğunluq əqidəsi ilə yaşayırsa, eybi yoxdur. Burada “eybi yoxdur” ifadəsini bu

anlamda işlədirik ki, onun əqidəsi Allah-Taalanın və mömin bəndələrin qarşısında eyibli olsa da, dövlət ona qarşı heç bir məsuliyyət daşımır. Azğın əqidəli insanlar müsəlman, yəhudi, xristian və digər dinlərə etiqad bəsləyən cəmiyyətlərdə də var və hal-hazırda bizim ölkəmizdə də onlara rast gəlmək mümkündür, hətta İslamın yayıldığı ilk dövrlərdə də belələri olub. Bu hər kəsin öz işi və fərdi seçimidir. Amma əgər azğın, fəsadlı əqidədə olan şəxslər mənəvi-psixoloji cəhətdən tam formalaşmamış, özünü müdafiə etmək iqtidarında olmayan insanların beyninə və hisslərinə təsir göstərmək, onları da yolundan azdırmaq fikrinə düşsələr, bu halda onların qarşısına sədd çəkiləcək, azadlıqları məhdudlaşdırılacaq. İslam nöqteyi-nəzərindən problemin qoyuluşu, bax bu cürdür. Yaxud, misal üçün, azğın insanlar öz fitnə-fəsadlarını genişləndirmək, siyasi, cinsi, ideoloji baxımdan təxribat xarakterli fəaliyyət göstərmək və ya bir qədər əvvəl qeyd etdiyim orda-burda rast gələnən "həvəskar filosoflar" ali təhsilin gənclər üçün heç də xeyirli bir iş olmadığı barədə məqalələr yazmaq, habelə bu əsassız iddialarını müəyyən dəlillərlə sübut etmək fikrinə düşsələr, şübhəsiz, böyük ehtimalla, yüzdə doxsan faiz uğursuzluqla üzləşəcəklər. Lakin onların bu təbliğatının yüzdə on faiz tənbəl gənclərin zehnində təsir buraxa biləcəyi də mümkündür. Kimlərinsə yalan və mənfi təbliğatla insanları elm öyrənməkdən çəkindirməsinə qətiyyən icazə vermək olmaz.

Azadlıq – yalan danışmaq deyil! Azadlıq – yalandan cürbəcür şaiyələr yaymaq deyil! Mənim üçün ən ağrılı məqam budur ki, nəyə görə azadlıqla bağlı məsələlərdə İslam mənbələrinə, İslami bəhslərə müraciət olunmur? Qurani-Kərimdə "Əhzab" surəsinin 60-cı ayəsində buyurulur:

لئن لم ينته المنافقون و الذين في قلوبهم مرض والمرجفون في المدينة لنغرينک بهم
"Əgər münafiqlər, qəlblərində mərəz (ziyankarlıq, pozğunluq mərəzi) olanlar və Mədinədə qəsdən yalan şaiyələr yayanlar (bu pis əməllərinə) son qoymasalar, şübhəsiz ki, səni onların üstünə qaldırarıq".

Ayədən göründüyü kimi, (مرجفون) "mərcəfun"un – "yalan şaiyələr yayanlar"ın adı "münafiqlər" və "qəlblərində azğınlıq, pozğunluq mərəzi (xəstəlik) olanlar"dan ibarət digər iki dəstə ilə yanaşı çəkilir. "Münafiqlər" bir, "qəlblərində mərəz olanlar" isə digər dəstədir. Onlarla eyni sırada (مرجفون) "mərcəfun" dəstəsinə aid olanların adı çəkilir. "Mərcəfun" (مرجفون) daim camaatı qorxu və təşvişə salmağa çalışan insanlardır.

Təsəvvür edin: İslam cəmiyyəti yenicə qurulmuşdur, dörd bir yandan düşmən təhlükəsi var, Peyğəmbərin (s) və Qurani-Kərimin təbliğatı nəticəsində səfərbərliyə nail olunmuşdur, həm ölkəni, həm də insanların, geniş xalq kütləsinin mənafeyinə əsaslanan bu əzəmətli quruluşu müdafiə etmək üçün hamının mənəvi-psixoloji cəhətdən hazırlıqlı olması vacibdir. Belə bir məqamda bir qrup insan cüzam xəstəliyi kimi camaatın canına düşərək onların mübarizə və müdafiə əhval-ruhiyyəsini zəiflədir. Bax, bunlar Quranda مرجفون "mərcəfun" adlandırılan şəxslərdir. Quran buyurur: "Əgər mərcəfunlar – yəni daim camaatı qorxudub təşvişə salan, pessimizmə düçar edən və insanları irəliyə doğru addım atmaqdan çəkindirənlər öz əməllərinə son qoymasalar, "لنغرينک بهم", şübhəsiz ki, səni onların üstünə qaldırarıq". Bu, konkret situasiyada azadlığın qarşısına çəkilən səddir. Deməli, İslam məntiqində "azadlıq" anlayışının fərqli xüsusiyyətlərindən biri budur ki, mənəvi-əxlaqi dəyərlər onu məhdudlaşdıra bilər.

Qərb liberalist təfəkkürünün digər fərqli cəhəti isə azadlığın mükəlləfiyyət və məsuliyyətlərlə bir araya sığmamasıdır. Qərb liberalizminə görə "azadlıq" dedikdə bütün mükəlləfiyyətlərdən, hətta insanın öhdəsinə düşən məsuliyyətdən də azad olmaq başa düşülür. İslam dinində isə "mükəlləfiyyət" adlı sikkənin o biri üzü elə "azadlıq"dır. Əslində, insanlar müəyyən mükəlləfiyyətlər daşıdıqları üçün azaddırlar. Əgər insanın öhdəsində həmin mükəlləfiyyətlər olmasaydı, azadlığa heç bir lüzum qalmazdı və insan mələk kimi olardı. Mövlana Cəlaləddin Rumi bunu öz kəlamında aşağıdakı kimi ifadə edir: "Hədisdə deyilir ki, Uca Yaradan məxluqları üç qisimdə xəlq etmişdir. Onlardan bir qisminin xisləti başdan-başa elm, müdriklik və alicənablıqdır. Bunlar gecə-gündüz Yaradana səcdə edən mələklərdir.

Bəşər övladının təbiətində isə müxtəlif ziddiyyətli instinktlər, meyillər mövcuddur və hər bir insanın öhdəsinə düşən vəzifə bütün bunların içərisindən keçib kamala, mükəmməlliyə doğru irəliləməkdir. Kamal yolunu qət etmək üçün ona azadlıq verilmişdir. Burada "azadlıq" bəşəri bir dəyər kimi təkamülə xidmət edir. Baxmayaraq ki, elə insan həyatının özünün də məqsədi təkamüldür, kamala yetişməkdir. Quranda belə buyurulur:

و ما خلقت الجنّ و الانس الاّ ليعبدون
"Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam".*("Zariyat" surəsi, ayə 56)*

Yaradan insanları və cinləri übudiyyət (Ona ibadət və xalis bəndəlik) məqamına yetişmək üçün xəlq etmişdir. Bu isə həddən artıq ali bir məqamdır. Gerçəkdən azadlıq da həyat kimidir. Azadlıq da ibadət və xalis bəndəlik məqamına çatmağa xidmət edən bir müqəddimədir.

Qərbdə məsuliyyət və mükəlləfiyyətləri inkar etməkdə o qədər "irəli getmişlər" ki, nəinki dini əqidədən qaynaqlanan mükəlləfiyyətləri, hətta dinə heç bir aidiyyatı olmayan, mahiyyətində insanın üzərinə düşən məsuliyyət və öhdəçilikləri, vacib və haramları, "etməli" və "etməməli" anlayışlarını ehtiva edən hər bir ideologiyanı inkar edirlər! Son illərdə Amerikanın həmin liberalmeyilli yazıçıları, həmçinin özlərini onlara bənzətməyə çalışan digər yazarlar (bir sıra ölkələrdə, o cümlədən elə bizim öz ölkəmizdə də, təəssüflər olsun ki, belə insanların sözünü peyğəmbər kəlamı kimi ali hesab edənlər var) öz əsərlərində belə bir fikri qeyd edirlər ki, Qərbin "azadlıq" anlayışı "etməli və etməməli" kateqoriyalarına, konkret icazə və qadağalara, ideoloji əsaslara müxalifdir! İslam dini isə bu fikrə tamamilə əks olan cəbhədə durur. İslam "azadlığı" insanın öhdəsinə düşən "məsuliyyət və mükəlləfiyyətlərlə" paralel cərgədə götürür. "Azadlıq" İslami nöqteyi-nəzərdən insanın həmin "öhdəçilik və mükəlləfiyyətləri" düzgün yerinə yetirə bilməsi, böyük işlər görməsi, möhtəşəm seçimlər etməsi və təkamülə yetişməsi üçün lazımi şərait yaratmalıdır.

Buna görə də mənim bu mövzu ətrafında yazan və çıxış edən şəxslərə ilk tövsiyəm budur: Gəlin, "azadlıq" məfhumunun dərk edilməsində müstəqil olaq, müstəqil fikir yürüdək, hər cür təqliddən və asılılıqdan uzaq olaq! İkinci tövsiyəm isə budur ki, "azadlıq"dan sui-istifadə edilməsin! Bəziləri dəfələrlə və israrla belə bir fikri səsləndirirlər: "yenicə əldə edilmiş söz və mətbuat azadlığı..." Zənnimcə, bu, həqiqətə heç də uyğun deyil və yabançı radiostansiyalardan sızdırılmış bir fikirdir. Şübhəsiz ki, hal-hazırda yazarlar qəzet və jurnallarda bəzi mətləblərə toxunur, bəzən də öz tənqidi münasibətlərini kəskin çıxışlarla ifadə edirlər. Həmin insanlardan bəziləri belə çıxışları əvvəllər də etmiş, bəziləri isə etməmişlər. Keçmiş illər ərzində biz ölkə mətbuatında həmin dövrdə hakimiyyətdə olmuş dövlət başçısına, müxtəlif səlahiyyətli şəxslərə, hətta bəzən İslam İnqilabının təməl prinsiplərinə qarşı fikirlərin yer almasının dəfələrlə şahidi olmuşuq. Həmin yazıların müəlliflərinə heç kəs təzyiq göstərməmişdir. Mənim zehnimdə bununla əlaqədar konkret faktlar da var. Əgər vaxtımız imkan versəydi, mən onlardan sizə bəzi nümunələr gətirmək istərdim.

Altı-yeddi il bundan öncə mən "mədəni hücum" mövzusu ilə əlaqədar çıxış etmişdim. O zaman həmin mövzu geniş səs-küyə səbəb olmuş və bəziləri bu məsələyə öz şəxsi fikirlərini də bildirmişdilər. Ola bilsin ki, sizlərdən də bəzileriniz xatırlayasınız. O dövrdə İran İslam Respublikasının televiziya kanalında bu mövzu ilə əlaqədar üç-dörd nəfərin iştirakı ilə dəyirmi masa təşkil olunmuşdu. Proqramda iştirak edən qonaqlardan biri mənim irəli sürdüyüm fikirlə razılaşaraq onu müdafiə edir, digərləri isə tamamilə əks mövqedə duraraq həmin fikri rədd edir və deyirdilər: "Xeyr! Əsla belə deyil! Bütün bunlar cəfəngiyatdır və həqiqətə uyğun deyil!" Məgər bu, heç kəsin öz şəxsi münasibətini bildirdiyinə görə hücumlara məruz qalmadığını göstərən əsaslı sübut deyilmi?

Bəli, bəzi insanların əlləri çirkin əməllərə bulaşmış olduğundan meydana atılıb söz deməkdən çəkinirdilər. Hətta onlar öz fikirlərini bildirmək, bu gün danışdıqları sözləri o zaman demək niyyətində olsaydılar belə, heç kəsin onlarla işi olmazdı. Lakin o insanların özləri öz qaranlıq keçmişləri ucbatından xoflanırdılar. Onların hələ keçmişdən bəri öz qəlblərində İslam İnqilabına, imam Xomeyniyə (r.ə) və onun təbliğ etdiyi İslam təfəkkürünə qarşı ədavət və kin-küdurət bəslədiyi bəlli olmuşdu. Bu səbəbdən də onlar özlərində meydana atılmağa cürət tapmırdılar. Ölkədə keçirilən sonuncu prezident seçkilərindən sonra seçki ilə əlaqədar aparılmış yanlış təhlil və şərhlər həmin insanları ürəkləndirdi! İrəli sürülmüş analitik şərhlərin yanlış cəhəti isə bu idi ki, onlar 30 milyonluq xalqın mövcud quruluşun əleyhinə səs verdiyini düşünmüşdülər. Onlar çıxardıqları bu səhv nəticədən xoşhal və məmnun idilər. Halbuki, 30 milyon insan yekdilliklə səs verərək mövcud quruluşu dəstəklədiyini sübut etmişdi. İslam Respublikasının dövlət quruluşu üçün fərəhləndirici bir faktdır ki, İslam İnqilabının qələbəsindən 18 il sonra xalqın səsvermə hüququ olan 32 milyon nümayəndəsindən 30 milyon nəfəri – demək olar ki, yüzdə doxsan faizi ölkədə baş tutan seçkidə hamılıqla iştirak etdi. Həmin bədxahlar isə bu quruluşun ən güclü cəhətini zəiflik və çatışmazlıq amili kimi qələmə vermişdilər! Şübhəsiz ki, əvvəlcə seçkinin elə ilk günlərində yabançı radio kanallar dayanmadan aləmə car çəkirdilər ki: "Bəli, 30 milyon insan mövcud quruluşdan narazı olduğunu bildirib!" Bu yolla onlar ölkədə düz yoldan sapınaraq səhvə və yanlışlığa doğru

yönəlməyə meyilli olan insanlara istiqamət vermək məqsədi güdürdülər! Onların istədiyi bu idi ki, quruluşun ən güclü nöqtəsini zəif nöqtə kimi təqdim etsinlər! Bu biçarələr isə ya bütün bunlara həqiqətən inanmış, ya da özlərini inandırmağa çalışmışdılar! Onlar belə düşünmüşdülər: "Bir halda ki, mövcud quruluşun əleyhinə 30 milyon insan çıxış edir, belə bir ölkədə biz nə üçün susub oturmalıyıq?! Elə isə biz də danışaq!" Onlar guya indi cürət tapıb danışmağa başlayıblar! Halbuki, heç bir fərqi yoxdur. O zaman da müxalif mövqedən çıxış etsəydilər, məntiqə tam uyğun olan hüdudları aşmış olacaq və qanunla müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunacaqdılar. Bu gün də eynilə həmin vəziyyətdir! Heç bir fərq yoxdur! Hal-hazırda da fitnə-fəsad törətmək, həqiqətə uyğun olmayan şayiələr yayaraq xalqı aldatmaq niyyətində olanlar eynilə həmin mənzərə ilə qarşılaşacaqlar! Bu baxımdan bu günümüzlə əvvəlki dövr arasında heç bir fərq yoxdur! Buna görə də "yenicə əldə edilmiş söz və mətbut azadlığı" ifadəsini addımbaşı təkrarlamaq lazım deyil. Mən məsul şəxslərdən bəzilərinin dəfələrlə mətbuat orqanlarına "Azadlıqdan sui-istifadə etməyin ki, azadlığın təməl prinsiplərinə ziyan dəyməsin!" – deyə müraciət etdiklərinin şahidi olmuşam. Bu sözlərin mənası nədir?! Azadlıqdan hər nə qədər çox istifadə olunsa, bir o qədər yaxşıdır. Bir şərtlə ki, hüdudlar və sərhədlər aşılmasın. İnsanlar Allahın onlara verdiyi bu hüquqdan nə qədər çox istifadə etsələr, İslami dövlət quruluşu qarşısına qoyduğu hədəf və məqsədlərə bir o qədər çatmış olar. Biz daim yazarlarımızdan gileylənmişik ki, niyə yazmırlar?! Nə üçün araşdırmalar aparmırlar?! Nəyə görə analitik şərhlər vermirlər?!

Sağlam, məntiqi hüdudlara və sərhədlərə riayət etmək vacibdir. Şübhəsiz ki, bunlar hər hansı bir hökumətin, yaxud dövlət aparatının öz mənafeyi xatirinə müəyyən etmək istədiyi hüdudlar deyil! Hazırda dünyada belə hökumətlər və dövlət quruluşları varsa da, (onların mövcudluğu labüddür) İslam Respublikasının dövlət quruluşu onlardan tamamilə fərqlənir. İslam Respublikasının təməli ədalətə dayanır, yəni misal üçün: əgər "Rəhbər" məqamı ədalətdən uzaqlaşmış olsa, öz-özlüyündə başqa heç bir amilə lüzum olmadan "Rəhbərlik"dən uzaqlaşmış, bu məqamı itirmiş sayılır. Belə bir quruluşun hakimiyyətdə olduğu ölkədə hüdudların hər hansı bir sinfin, partiyanın və ya hökumətin yürütdüyü siyasi kursun mənafeyinə xidmət edən meyarlarla müəyyənləşdirilməsinin heç bir mənası yoxdur. Burada təyin edilən hüdudlar İslam dininə aiddir və öz mənşəyini Qurani-Kərimdən, hədislərdən, düzgün qavranılmış dini hökmlərdən almışdır. Keçilməsi qadağan olunmuş bu hüdud və sərhədlər mötəbərdir. Onlara riayət etmək vacibdir. Əks təqdirdə aidiyyatı olan məsul şəxslər və səlahiyyətli orqanlar – ədliyyə və dövlət orqanları, Rəhbərlik və İstiqamətləndirmə Nazirliyi tərəfindən lazımi ölçü götürülməlidirlər. Həmin orqanların öz vəzifələrini yerinə yetirməməsi isə günahdır, qanun pozuntusudur, vəzifə borcunu yerinə yetirməməkdir. Onlar da həmin sərhədlərə və hüdudlara riayət etməyə borcludurlar. Hər kəs üçün mövcud olan bütün bu hüdudların çərçivəsində isə – şübhəsiz ki, bu hüdudlar konkret müstəsna şərtlərlə müəyyən olunmuşdur – azadlığın, sözün həqiqi mənasında, gözəl və parlaq mahiyyətindən bəhrələnmək lazımdır. Sözsüz ki, mən bəzi məsuliyyətsiz fikirlərin təkrar-təkrar səsləndirilməsini təqdirəlayiq hesab etmirəm.

Fikrimi yekunlaşdıraraq qısaca demək istəyirəm ki, "azadlıq" anlayışı İslam dininə aid olan bir kateqoriyadır. "Azadlıq" məfhumunu İslam dininin predmetlərindən biri kimi nəzərdən keçirməli, habelə "azadlığın" da İslamda göstərilən hər hansı bir davranış qaydası, şəriətlə müəyyən edilmiş hər hansı başqa bir vəzifə kimi müsbət nəticələr verəcəyinə hamılıqla etiqad bəsləməliyik. Allaha çox şükürlər olsun ki, cəmiyyətimizdə bu nemət var və biz bu nemətin qədrini bilməli, bu imkandan maksimum dərəcədə bəhrələnməliyik. Ziyalılar, cəmiyyətdəki problemlərə özünün analitik baxışı olan insanlar bu istiqamətdə öz səylərini əsirgəməməlidirlər. Əlbəttə, konkret mövzular da vardır ki, mütəxəssislər tərəfindən xüsusilə təhsil ocaqlarında, universitetlərdə və mətbuat orqanlarında peşəkar səviyyədə şərh olunmalıdırlar. Bəzi mövzular isə şərh edilərək geniş surətdə ictimaiyyətin diqqətinə çatdırılmalı, cəmiyyətə təqdim olumalı və hamı onlardan istifadə edərək yararlanmalıdır.

Ümidvaram ki, İnşallah, Allah-Taalanın izni ilə ölkəmizdə İslami dövlət quruluşunun, bu böyük, əziz və xeyirxah millətin çiçəklənməsinə xidmət edəcək bütün müvəffəqiyyətlərin şahidi olacağıq. Sizlərin – ali təhsil ocaqlarının tələbə və müəllim kollektivinin, xüsusilə də gələcəyimizin qurucusu və ümid yerimiz olan gənclərimizin həmin çiçəklənmə və müvəffəqiyyətlərin əldə edilməsində böyük rolu olacaqdır.

Allahın salamı, rəhməti və bərəkəti sizlərə olsun!

**İİR-nın Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xameneinin Pedoqoji Universitetinin məzunlarının buraxılış mərasimində etdiyi çıxışı (12.06.1377)**

## Qadının ictimai fəaliyyəti

Cəmiyyətdə qadının ictimai fəaliyyəti böyük əhəmiyyətə malikdir. Keçmiş dövrlərdə qadınların ictimai fəaliyyəti yox idi və buna əhəmiyyət də verilmirdi. Qadın üçün heç bir ictimai vəzifə nəzərdə tutulmurdu və qadınlar da bunu tələb etmirdilər. Xüsusilə də hal-hazırkı bir miqyasda qadının fəaliyyəti əsla təsəvvür olunmurdu. İndi isə nəzərə alın ki, hətta uzaq şəhərlər və kəndlərdə yaşayan qadınlarımız özlərini İslam İnqilabının qələbəsində rolu olan və onun mühafizəsində məsuliyyət daşıyan bir fərd hesab edirlər. Həqiqətən də, İslam İnqilabının qələbəsində qadınların rolu kişilərdən az olmamışdır. Hətta bəzən qadınlar ictimai məsələlərdə daha fəal və fədakardırlar.

İslamın qadın və kişi üçün təyin etdiyi məsuliyyətlər onun fitrəti və təbiətinə tamamilə uyğundur. Yəni, heç kimdən gücü çatmadığı iş tələb olunmur. Bəli, məntiq, İslamın bünövrəsi təşkil edir.

Təəssüflər olsun ki, tarix boyu qadın, lazımınca tanınmadığı və onun istedadlarına əhəmiyyət verilmədiyi üçün zülmə məruz qalmış və İslamın onun barəsində olan təsəvvürlərini gerçəkləşdirə bilməmişdir. Qadının öz gözəlliyini nümayiş etdirməyə sövq etdirilməsi və ticarətdə ondan bir vasitə kimi istifadə edilməsi ona edilən ən böyük zülmdür. Belə ki, onu həyatın ali hədəflərindən uzaqlaşdırmış və çox faydasız və puç işlərlə məşğul etmişlər.

Lakin İslam dini qadına onun fitrəti və təbiətinə cavab verən öz həqiqi dəyərini tanıtdırır və bu meyarla da onun üçün məsuliyyətlər təyin edir.

**Ayətullah Xameneinin "Qadınların ictimai-mədəni birliyi" təşkilatınım üzvləri ilə görüşündə etdiyi çıxışdan bir parça. 16/10/1369**

# İslamda qadının dəyəri

Müasir dövrdə aparılan geniş mədəni-maariflənmə işlərinə baxmayaraq, hələ də qadın və eləcə də kişinin hüquq və məsuliyyətləri düzgün və aydın şəkildə açıqlanmamışdır. Bunun başlıca səbəbi kimi bəşəriyyətin düçar olduğu və bu vaxta qədər öz həllini tapmamış bir sıra problemlər, o cümlədə qadın-kişi münasibətlərinin hüdudlarının müəyyənləşdirilməməsi, psixoloji problemlər, təcavüzkarlıqlar və s. hesab oluna bilər. Uzun illər boyu Avropa və Amerika ictimaiyyətində qadınların təbii hüquqları tapdalanmış, bunun ardınca isə onları "qadınlara dəyər və azadlıq vermək" adı altında heç bir çərçivəyə sığmayan cinsi münasibətlərə sövq etdirmişlər.

Vaxtilə Roma imperiyasına hakim olan ideologiya bu gün Qərb mədəniyyətinin əsasını təşkil edir. Qadını hədsiz dərəcədə alçaltdığına biz bu ideologiyanı ittiham edirik. Baxın, Qərb dünyasının qadına verdiyi dəyər əslində, bəşərin ən aşağı təbii istəyi olan cinsi meyillərin təmini istiqamətindədir.

Bu gün dünyada həllolunmaz bir problemə çevrilən ailə məsələsi qadınların məsuliyyət və vəzifələrinin onlara lazımi şəkildə tanıtdırılmaması, qadın-kişi münasibətlərinin hüdudlarının müəyyən edilməməsi, eləcə də bu iki cinsin səciyyəvi xüsusiyyətlərinin düzgün şəkildə tanınmamasından irəli gəlir. Bu problemin həllində isə bizə ən doğru yolu göstərən İlahi vəhy və göstərişlərdir. Quran öyüd-nəsihətlə yanaşı, qadınların mənəvi yüksəlişini təmin etmək məqsədilə onlara nümunəvi və ideal qadın simaları da təqdim edir.

Əziz İslam Peyğəmbəri (s) qızı Fatimeyi-Zəhranın (s.ə) əllərindən öpmüşdür. Əsla bunu duyğulardan irəli gələn bir hərəkət kimi dəyərləndirməyin. Xanım Fatimeyi-Zəhra (s.ə) kamil bir insan olduğundan o Həzrət (s) ona belə ehtiram göstərir. İslamda qadının dəyəri onun mənəvi yüksəlişi və kamilliyi ilə ölçülür . Məhz bu səbəbdən qadınların ictimai məsuliyyətləri və elmi tərəqqisi də bu istiqamətdə olmalıdır.

Bizim cəmiyyətdə İslami dəyərlər dirçəlməlidir. Məsələn, qadınların hicabı İslami dəyərlərdən biridir. Bizim hicab məsələsi üzərində bu qədər ciddi surətdə dayanmağımızın səbəbi odur ki, qadınlar yalnız və yalnız hicablarına riayət etməklə kamilliyin ən uca mərtəbələrinə yetişə və azğınlıq təhlükələrindən amanda qala bilərlər.

Qadınlar bilsinlər ki, hicaba riayət etmək yüksək mənəvi və elmi məqamlara çatmaqda onlara yardım edir. Qadının hicab məsələsi əsla Qərbin mədəni təzyiqlərinə məruz qalmamalı və müsəlman qadınlar yad mədəniyyətlərin təsiri altına düşməməlidirlər. Əlbəttə, təkcə çadra hicablı geyim sayılmır. Lakin çadra bizim üçün ən kamil və milli hicablı geyim tərzidir. Hicab müsəlman qadınların siyasi, ictimai və mədəni sahələrdə fəaliyyəti ilə ziddiyyət təşkil etmir.

Ölkəmizin qadınları elmin müxtəlif sahələrində öz istedadlarını çiçəkləndirməlidirlər. Onlar savadlanmalı və yüksək elmi dərəcələrə nail olmaq üçün səy göstərməlidirlər. Qadınların əxlaqsızlığa sürüklənməsi isə onların savadlanmasına əngəl olan ən başlıca amildir.

Ailə bütöv bir cəmiyyəti təşkil edən kiçik cəmiyyətlərdir. Qadın bu kiçik cəmiyyətin əsas sütununu təşkil edir və onun aparıcı qüvvələrindən sayılır. Ailə mühiti istedadların çiçəklənməsi üçün əlverişli bir mühitdir və belə bir mühitdə qadın ixtisasından asılı olmayaraq, öz evdarlıq vəzifələrinin öhdəsindən layiqincə gəlməlidir.

**Ayətullah Xameneinin "Qadınların ictimai-mədəni birliyi" təşkilatının üzvləri və "İslami hicab" qurultayının iştirakçıları ilə görüşündə söylədiyi nitqdən bir parça. 4/10/1370**

# Müsəlman qadının üstünlükləri

İnsanın mənəvi yüksəlişində əməl və rəftarlar böyük rol oynayır. Elə xanım Fatimeyi-Zəhranın (ə) gənc yaşlarında mənəviyyat və hikmətin ali dərəcələrinə yiyələnməsi məhz onun əməllərinin səmərəsi olmuşdur. Peyğəmbərin (s) əziz qızı atasının qəm şəriki, fədakar həyat yoldaşı və övladları üçün böyük tərbiyəçi idi. Bu xanım imam Həsən (ə), imam Hüseyn (ə) və xanım Zeynəb (s.ə) kimi şəxsiyyətlər yetişdirmişdir. O xanım Allaha ibadət etməklə imanını gücləndirdi, mənəviyyatını zənginləşdirdi və qəlbini İlahi nura qərq etdi. Həyatı boyu dünya bər-bəzəyindən və maddi ləzzətlərdən çəkindi. İslamın müdafiəsi, Peyğəmbər (s) və İmamı (ə) himayə etmək üçün cihad edən ən nümunəvi qadın idi.

Hər bir müsəlman qadını elmə yiyələnmək, özünü tərbiyə etmək, mənəviyyatını saflaşdırmaq və zənginləşdirmək üçün səy göstərməli, dünya bər-bəzəyinə, cah-cəlalına əhəmiyyət verməməli, ismət və iffətlərini qorumalı, ailəsinin, övladlarının və həyat yoldaşının rahatlığını təmin etməli və öz isti qucağında sağlam düşüncəli və pak insanlar yetişdirməlidir.

Bu gün dünyada “insan və qadın azadlığı” şüarlarını verənlər həqiqətdə bəşəriyyətə və qadına ən böyük zülmü rəva görənlərdir. Çünki məhz onlar “qadın azadlığı” şüarı arxasında qadını əyyaş kişilərin əyləncə vasitəsinə çevirmişlər. Bizim nəzərimizcə, müasir Qərb dünyasının qadın barəsindəki tərzi-təfəkkürü indiyədək qadına edilən zülmlər arasında bənzərsizdir. Qadına qarşı belə bir kütləvi şəkildə zülm və təcavüzkarlıq müasir Qərb mədəniyyətinin məhsuludur və yalnız indiki dövrə xasdır. Bu gün səslənən “qadın azadlığı” şüarı əslində, qadınların deyil, əyyaş kişilərin azadlığıdır.

Qərb dünyası qadınlara təkcə ictimai əmək fəaliyyəti sahəsində deyil, incəsənət və bədii ədəbiyyatda da zülm etmişdir. Bu həqiqət Qərbin bədii ədəbiyyatında, kino filmlərində və rəsm əsərlərində öz əksini tapmışdır. Belə ki, qadın ucuz və əliaçıq bir işçi kimi canlandırılır. Amma İslam bu cəhətləri qadın üçün üstünlük hesab etmir. İslam qadınların ictimai fəaliyyətinin əleyhinə deyil, əksinə hətta əgər qadının evdən kənarda əmək fəaliyyətini onun ən mühüm vəzifəsi olan övlad tərbiyəsi və evdarlığı ilə toqquşmadığı təqdirdə zəruri hesab edir. Lakin qadının işləməyi mənəvi və insani dəyərlərin tapdalanması ilə nəticələnməməlidir.

Bilin ki, əgər müsəlman qadınlar öz həqiqi simalarını bərpa edə bilsələr, İran İslam İnqilabı kimi bir möcüzə baş verəcəkdir. İran qadınları iffət və ismətlərini, hicablarını qorumaqla, saleh övladlar yetişdirmək və evdarlıqları ilə yanaşı, elm və savada da yiyələndilər. Hal-hazırda ölkəmizdə saysız-hesabsız həkim qadın, elmin müxtəlif sahələrində yüksək dərəcələrə yiyələnən alimə qadınlar və istedadlı gənc qız tələbələr vardır ki, İran İslam Respublikasının iftixarı sayılırlar.

Heç bir ideologiya İslam qədər insana və insanlığa dəyər vermir. İnsan hüquqlarının müdafiəsi İslamın əsas prinsiplərindən biridir və bu hüquqların qorunması yalnız İslamın hüquq və məhkəmə qanunlarının icrası ilə mümkündür.

**Xanım Fatimeyi-Zəhranın (s.ə) mövludu və “Qadınlar günü” münasibətilə Həzrət Ayətullah Xameneinin qadınlarla keçirdiyi görüşdəki çıxışdan bir parça. 25/9/1371**

# Qadının hərtərəfli tərəqqisi

Əgər biz ölkəmizdə qadınlara aid problemləri həll edə bilsək, bütün dünya qadınlarına böyük xidmət göstərmiş olarıq. Ola bilsin ki, bu xidməti bəziləri indi, bəziləri sonralar başa düşsünlər. Hər halda bir gün bunu dərk edəcəklər.

Siz ölkəmizin nümunəvi fəal qadınlarısınız. Siz İslamın qadına verdiyi dəyəri gözəl şəkildə nümayiş etdirirsiniz. Bəli, İslam İnqilabından əvvəl də İranda alimə qadınlar var idi. Amma mən demək istədiyim budur ki, keçmiş ilə müqayisədə hal-hazırda bu rəqəm olduqca yüksəkdir və tədqiqatçı, mütəxəssis, mütəfəkkir, yazıçı, şairə və rəssam qadınlarımız əvvəlki dövrə nisbətən qat-qat çoxdur, yəni o dövrdə ki, “qadın azadlığı”, “qadın hüququ” şüarı ilə aləmə car çəkirdilər, qadının hicabını əlindən alıb iffətsizliyə sövq etdirirdilər, qadın və kişi arasında pərdələri tamamilə qaldırırdılar, əxlaqsızlığı və iffətsizliyi gündən-günə daha çox təbliğ edir və hətta bəzən ustadlarını da ötüb keçirdilər – həmin o dövrdə siyasi, ictimai və mədəni sahələrdə fəaliyyət göstərən qadınların sayı bu qədər çox deyildi. Bu böyük izdiham İslam düşmənlərinin dedikləri və beyinlərə yeritmək istədikləri düşüncələrin tam əksini nümayiş etdirir, yəni iffətsizlik və məsuliyyətsizlik qadınların maddi və mənəvi tərəqqisini nəinki təmin etmir, əksinə, özlərinə bəzək-düzək verməkdən ötrü onları müxtəlif lazımsız və puç işlərlə məşğul etməklə kamilliyə doğru hərəkətdən yayındırır. Deməli, İslami hicab qadınların hər bir sahədə və hərtərəfli tərəqqisi üçün zəmin yaradan önəmli bir amildir.

**Həzrət Ayətullah Xameneinin müxtəlif sahələr üzrə mütəxəssis qadınlarla görüşündə etdiyi çıxışdan bir parça 13/4/1386**

“Ən yaxşı” kimdir?

İnsanlar ən əməlisaleh namizədi seçmək üçün səy göstərməlidirlər. Ölkə prezidentliyinə namizədliyini irəli sürmüş insanlarınhəmin posta layiq olub-olmadığı Nəzarət Şurası tərəfindən araşdırıldıqdan sonra adları açıqlanan namizədlərin hamısı əməlisaleh və layiqli namizədlərdir. Lakin əsas budur ki, siz yaxşıca götür-qoy edib həmin bu əməlisaleh insanların arasından ən əməlisalehini, ən layiqlisini tapasınız. Bu, elə bir situasiya deyil ki, mənim, yaxud sizin minimumlarla kifayətlənməyimiz mümkün olsun. Maksimum tələblər qoyun! Ən yaxşı olanı seçin!

“Ən yaxşı” kimdir? Mən heç bir vəchlə ayrı-ayrı fərdlərə qarşı öz münasibətimi ifadə etmərəm. Lakin burada müəyyən meyarlar vardır. “Ən yaxşı” insan elə bir kəsdir ki, ölkənin problemlərini yaxşı dərk etsin, xalqın dərdindən xəbərdar olsun, xalqa daha yaxın və səmimi olsun, fəsaddan və pislikdən uzaq olsun, fikri-zikri özünə elit səviyyəli, dəb-dəbəli həyat qurmaq olmasın. Elit həyat tərzi, dəbdəbə həvəsi bizim üçün ən böyük bəladır. Hər hansı bir vəzifəli şəxs dəbdəbəyə, yüksək maddi rifaha meyilli olsa, o, xalqı da israfa doğru sövq edəcək. Odur ki, biz bu ili “istehlak modelinin məqsədyönlü islahı” ili elan etmişik. Yəni bu il İran xalqı israfçılıqla mübarizə aparmağı qarşısına əsas məqsəd qoyacaq. Heç kəs demir ki, bircə ilin ərzində israfçılığa tamamilə, biryolluq son qoyulmalıdır. Xeyr! Biz bunu iddia edəcək qədər reallıqdan uzaq deyilik. Biz bilirik ki, belə bir sosial dəyərə yetişmək ardıcıl olaraq bir neçə il səy və zəhmət tələb edən bir işdir. Biz deyirik ki, artıq bu işə başlamaq lazımdır!

Ali Məqamlı Rəhbərin Sənəndəc şəhərinin “Azadlıq” meydanında Kürdüstan vilayətinin əhalisi ilə görüşündəki çıxışından (22.02.1388)

**İş başına gələn kim olmalıdır?**

Mənim əzizlərim, sizə demək istəyirəm ki, məlumatlı, xəbərdar olmaq həmişə – bugünkü gündə də, sabah da olduqca vacibdir. Xoşbəktlikdən, bu gün bizim gənc nəslimiz ölkədə başdan-başa bütün sahələrdə qalibiyyət qazanmış bir gənc nəsildir. Cavanlarımız müdrik, uzaqgörən olmalıdırlar! Konkret meyarlar tamamilə müəyyən olunmuşdur. Agahlıq, xəbərdarlıq seçkilərə öz təsirini göstərməlidir. Xalqın öz tələblərini ifadə etməsində bu məlumatlılıq, xəbərdarlıq öz təsirini qoymalıdır. Müxtəlif situasiyalarda, müxtəlif məsələlərdə bu məlumatlılıq, agahlıq öz təsirini göstərməlidir. İran xalqı öz seçimini edərkən – seçkilərdə rəhbər tutulmalı olan meyarları mən o gün açıqlamışdım, indi deyəcəyim də onlardan biri və ən mükəmməlidir – diqqətli olmalıdır! Xalq verdiyi səslərlə təslim olmaq üçün əlini düşmənə doğru uzatmaq, İran xalqının şərəfini alçaltmaq istəyən şəxsləri iş başına keçirməməlidir. Qərbə, Qərb dövlətlərinə, imperialist və zorakı hökumətlərə yaltaqlanmaq fikrinə düşməklə özlüyündə beynəlxalq aləmdə mövqe tutmaq üçün çalışdığını düşünənlər qətiyyən iş başına gəlməməlidirlər! Bunların İran xalqı üçün heç bir dəyəri yoxdur. Bu xalqın düşmənlərinin əlində alətə çevriləcək və onları xalqın bir-birinə sıx bağlı olan cərgələrini pozmaq, camaatı öz dinindən, fundamental əqidəsindən, inqilabi dəyərlərindən uzaqlaşdırmaq həvəsinə salacaq insanlar heç bir vəchlə iş başına gəlməməlidirlər! Xalq gözüaçıq, hər şeydən agah olmalıdır! Əgər müxtəlif iqtisadi və siyasi strukturlarda imam Xomeyninin (r.ə) yolunu, onun müəyyənləşdirdiyi dəyərləri və metodları davam etdirmək əvəzinə Qərbin filan qüdrətli hökumətinə, yaxud beynəlxalq aləmin filan imperialistinə xoş gəlmək üçün çalışanlar iş başına keçsələr, bu, İran xalqı üçün böyük bir faciə olacaq. Bunlardan xəbərdar olmaq xalq üçün olduqca vacibdir.

**Bicar sakinləri ilə görüş** (28.02.1388)

**Vicdanlı təbliğat**

Möhtərəm namizədlər özlərinin seçki platformasını təqdim edərkən vicdanlı olmalıdırlar. Onlar təsdiq və inkar edərkən haqqı, düzgünlüyü rəhbər tutmalıdırlar.Bəzən insan eşitdiyi sözlərin prezidentliyə namizədliyini irəli sürmüş, yaxud belə bir məsuliyyəti boynuna götürməyə meyilli olan bir şəxsin ağzından haqlı, düzgün olaraq çıxdığına heç cür inana bilmir. Bəzən insan qəribə sözlər, inanılmaz ittihamlar eşidir. Belə sözlər camaatı narahat etməklə yanaşı, heç kəsi inandırmır və xalqın onları deyən şəxsə qarşı meyillənməsinə də səbəb olmur! Möhtərəm namizədlər diqqətli olmalıdırlar ki, ictimaiyyətin təfəkkürünə mənfi təsir göstərməsinlər. Ona-buna bu qədər yalanlar isnad etmək reallıqdan uzaq olmaqla yanaşı, həm də insanların təfəkkürünə təxribatçı təsir göstərir. Bütün bunlar reallığın tam əksinədir. Mən özüm ölkədəki vəziyyət barədə həmin cənablardan daha çox və daha yaxşı xəbərdar olduğuma görə bilirəm ki, onların ölkədəki ümumi və iqtisadi vəziyyət barədə tənqid adı altında söylədiklərinin əksəriyyəti həqiqətdən tamamilə uzaqdır. Onlar yanılırlar! İnşallah ki, bu, bir yanlışlıqdır! Ümidvarıq ki, Uca Yaradan bu xalqın taleyinə mükəmməl xeyir, salamatlıq və abadlıq yazmış olsun!

**Sənəndəcin “Azadlıq” meydanında Kürdüstan vilayətinin əhalisindən ibarət böyük bir izdihamın qarşısında söylənən bəyanat** (22.02. 1388)

## Həqiqi kimlik və əsl ləyaqət

Titullar, adlar, yüksək məqamlar, vəzifə kürsüləri insanın kimliyini müəyyənləşdirmir. Sözün əsl mənasında "həqiqi kimlik və əsl ləyaqət" tamamilə başqa bir şeydir. Eynilə hədis və rəvayətlərdə buyurulduğu kimi:

اشراف امّتی حملة القران و اصحاب اللّیل

"Ən şərəfli, ən ləyaqətli olmaq" anlayışı maddi əsaslar üzərində dayanan quruluşlarda bir, İslam dövlətində isə başqa bir məna kəsb edir. Ən şərəfli, ən ləyaqətli o kəslərdir ki, "əshabul-leyl"dirlər (gecə əhli) – yəni Allah naminə gecələr namaza durur, yaxud gecə vaxtı xalq üçün çətin işlər görürlər. Yaxud ən şərəfli insanlar o kəslərdir ki, Qurani-Kərimin daşıyıcısıdırlar, Quranla ünsiyyətdədirlər, Quranın nuru, Quranın bələdçiliyi ilə hərəkət edirlər. İslam məntiqində, İslamın dəyərlər sistemində "ən şərəfli, ən ləyaqətli" şəxslər pulu, sərvəti, ictimai mövqeyi olanlar deyil.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüş** (02.06. 1387)

**Xalqa xidmət işində ciddilik və məsuliyyət**

Dövlətin xüsusiyyətlərindən biri budur ki, dövlət, həqiqətən də, iş görən bir dövlət olmalıdır. Hərəkət edən, təşəbbüs göstərən bir dövlət olmalıdır. Dövlətin öz işində tükənməz enerjiyə, optimist yanaşmaya malik olması diqqətalayiq bir faktdır. İnsanların yaşadıqları dövlətdə dinamikliyin, optimist əhval-ruhiyyənin, aktiv fəaliyyətin, qətiyyətli addımların varlığını hiss etməsi, yəni bütün bunların tənəzzül edib azalmağa doğru getmədiyinin şahidi olması olduqca dəyərli bir faktdır. İnsanlar yaşadıqları dövlətdə xalqa xidmət işində ciddiyyət və məsuliyyətin olduğunu hiss etməlidirlər. Müxtəlif şəhərlərə səfərlər etmək, kiçik şəhərlərdə olmaq, ölkənin bütün bölgələrini qarış-qarış dolanmaq, ölkənin heç bir məntəqəsinin mütəxəssislərin diqqətindən kənarda qalmaması – bütün bunlar olduqca dəyərli göstəricilərdir. Bu, ən birinci üstün cəhətdir. Bu cəhətin müşahidə olunduğu hər bir toplumda insanlar bu dəyərli xüsusiyyətə qədirbilənliklə yanaşmalı, ona lazımi əhəmiyyət verib uca tutmalı, habelə Allah-Taalanın Uca Yaradanın da belə bir xüsusiyyətə malik olan cəmiyyətə kömək edib savab nəsib edəcəyinə ümidvar və əmin olmalıdırlar.

**Yorulmaq bilmədən xidmət göstərmək**

Dövlət bütün dövrlərdə xalqa məxsusdur. Xalqın arzu və istəklərinin, mövqeyinin göstəricisidir. Hakimiyyətin meyarı yorulmaq bilmədən xalqın xidmətində durmaq, bütün güc və bacarığını ortaya qoymaq, eyni zamanda İslam İnqilabının yüksək amallarının dolğun çalarlarla qabardılmasından ibarətdir. Bunlar bu dövlətin göstəriciləri və meyarlarıdır. Bu dövlətin məramı İslam İnqilabının, əzəmətli imam Xomeyninin (r.ə) irəli sürdüyü şüarlara arxalanaraq bütün gücünü və bacarığını ortaya qoymaqdır! Bütün varlığı ilə çalışmaq, ciddi səy göstərməkdir! İnsanların yaşamındakı düyünləri açmaqdır! Gələcək inkişaf üçün ölkədəki infrastrukturları mümkün qədər tez, yaxşı və hərtərəfli hazırlamaq, həmçinin beynəlxalq arenada milli müstəqilliyə, İran xalqının qürur və heysiyyətinə arxalanmaqdır!

**İmam Rzanın (ə) pak hərəmində söylənilmiş bəyanat** (01.01.1385)

**Şüar və deviz**

Dövlətin rəhbər tutduğu şüarlar və devizlər imam Xomeyninin (r.ə) və İslam İnqilabının irəli sürdüyü şüar və devizlərlə üst-üstə düşür. Bu, olduqca dəyərli bir faktdır. Heç kəs bunu göz ardına ala bilməz. İnqilaba qəlbən bağlı olan hər bir kəs bunun qədir-qiymətini bilir. Ölkənin inkişaf və yüksəlişinin İslam İnqilabının bələdçiliyi və inqilabın istiqamətləndirməsi ilə reallaşacağına inananlar bunun qədrini bilməlidirlər. Bu dövlətdə ədalətsevərlik prinsipi irəli çəkilərək qabardılmışdır. “Ədalət” şüarı tam ciddi surətdə hökumət nümayəndələrinin, vəzifəli şəxslərin əhval-ruhiyyəsinə, dövlətin həyata keçirdiyi proqramların mahiyyətinə sirayət etdi.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**Antiimperializm**

İslam İnqilabının baxış prizmasında özünəməxsus mənası olan “antiimperializm” bu dövlətdə konkretləşdi və individuallıq kəsb etdi. “Antimperializm”in mənası dünya dövlətləri ilə düşmənçilik etmək yox, imperialistlərə, müstəmləkəçilərə qarşı çıxmaqdır. İmperializm hansı dövlətdən, hansı quruluşdan başlanğıc götürməsindən asılı olmayaraq bəşəriyyət üçün bir bəladır. Əlbəttə, bu günümüzdə ABŞ və sionizm imperializmin məskənidir. Lakin dünyanın istənilən yerində başqalarının üzərində hegemonluq iddiası edən hər hansı dövlət, yaxud toplum bəşər cəmiyyətini, insanlığın həyat sistemini böyük bir bəlaya məruz qoymaqdadır. Belə bir situasiyaya qarşı çıxış etmək isə İslam dinində bəyənilən, qəbul olunan bir davranışdır. Xoşbəxtlikdən, bunun özü də bu quruluşun qabarıq olan səciyyəvi xüsusiyyətlərindən biridir.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

**Milli şərəf və heysiyyəti uca tutmaq**

İstiqlaliyyət odur ki, hər hansı bir xalq öz individual kimliyinə, öz şərəf və heysiyyətinə etiqad bəsləsin, bu prinsipə böyük əhəmiyyət versin, onu qoruyub saxlamağa çalışsın, milli qüruruna təcavüz etməyə və yaxud hörmətsiz yanaşmağa cəhd göstərənlərin qarşısında özünün tutduğu mövqedən, onların cavabını verməkdən əsla utanmasın.

Təəssüflər olsun ki, biz əvvəllər bəzən vəzifəli şəxslərlə əlaqəsi olan, yaxud hətta özləri müəyyən bir sahədə məsul vəzifə tutan şəxslərin başqalarının qarşısında İslam İnqilabının irəli sürdüyü şüarlardan utandığının, bu şüarları dilə gətirməkdən, rəhbər tutmaqdan, yaxud onlara əhəmiyyət verməkdən xəcalət çəkdiklərinin şahidi olurduq. Bu, bir cəmiyyət üçün olduqca böyük bir bəladır.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

**Milli qürurun və müstəqilliyin qorunması**

Beynəlxalq arenada siyasi oyunbazların ən başlıca metodları hiylə və təhdiddir. Hər hansı bir dövlət onların hiyləgərliyi və hədələri qarşısında özünü sındırmayıb xalqına arxalansa, böyük müvəffəqiyyətlər əldə edəcək. Biz bu dövlətin milli qürur və heysiyyəti İran xalqının şəninə yaraşan tərzdə qorumaq niyyətində olduğunu görürük və hiss edirik.

**İmam Rzanın (ə) pak hərəmində söylənilmiş bəyanat** (01.01.1385)

**Düşmənlərin zorakılığı və yersiz tələbkarlığı qarşısında müqavimət göstərmək**

Milli qürurun qorunması prinsipinin özünü büruzə verdiyi məqamlardan biri də atom enerjisi məsələsidir. Atom enerjisi ilə əlaqədar ortalığa çıxmış problem yalnız bundan ibarət deyildi ki, biz həmin texnologiyaya malik olmaq istəyir, başqaları isə buna qarşı çıxırdılar. Bu problemin mahiyyətinin yalnız bir hissəsidir. Problemin digər hissəsi isə bu idi ki, müxtəlif həyasız, təcavüzkar, hegemon və "qoluzorlu" dövlətlər, habelə onların cılız, heç bir qədir-qiyməti olmayan əlaltıları bu işdə zorla öz dediklərini İran xalqına qəbul etdirmək niyyətində idilər. Bəli, İran xalqı, sizin dövlətiniz, şəxsən ölkə prezidentinin özü bu zorakılığın, başqalarının öz iradəsini İran xalqına yeritməsinin və yersiz tələbkarlığın qarşısında qətiyyətlə müqavimət göstərdi. Uca Yaradan da bu işdə irəliləmək üçün sizə kömək oldu. Bunlar bu dövlətin rəhbər tutduğu ümumi devizlərin mənim üçün əhəmiyyətli olan aspektləri və elementləridir.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

## Sekularizm təmayüllərinin nüfuzunun qarşısını almaq

Bir vaxtlar, təəssüf ki, ölkədə rəhbər vəzifə tutanların əhval-ruhiyyəsinə sirayət etməkdə olan sekularizmtəmayüllərinin qarşısı artıq alınmışdır. Dinə, İslama, Qurana əsaslanaraq təşəkkül tapmış və elə həmin səbəbdən də ölkədə milyonların dəstəyini qazanmış inqilabi dövlət quruluşu uğrunda bu xalq can qoyur, cavanlarını təhlükəli meydanlara yola salaraq ölümün ağuşuna atır, elə bu vaxt isə belə bir dövlətin məsul şəxsləri sekularizm anlayışlarından dəm vururlar?! Belə bir məsəl var: "Oturduğun budağı kəsmə". Yəni bu, birinin öz oturduğu tikilinin bünövrəsini külünglə dağıtmasına bənzəyir. Bu, olduqca təhlükəli bir hal idi. Yaxşı ki, Allaha çox şükürlər olsun, bu cür təmayüllərin qarşısı alındı.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

**Dəyişikliklər etmək əzmi**

Dəyişikliklər etmək əzmi; bu, dövlətin mənəvi əhval-ruhiyyəsində dəyişikliklər etməkdə cürətli olmaq və qətiyyətli addımlar atmaq əzmindən ibarətdir. Mən atılan bu addımlardan hamısının yüz faiz düzgün olduğunu demək istəmirəm. Xeyr! Müəyyən məqamlarda yanlışlıqlara yol verilməsi mümkündür. Lakin insanın çətinliklər qarşısında cəsarət hissinə malik olmasının, problemləri aradan qaldırmaq üçün konkret addımlar atmaq qərarına gələ bilməsinin özü də olduqca dəyərli bir amildir ki, xoşbəxtlikdən, bu dövlətdə var.

Fəsada, şərə qarşı çıxmaq cürəti; fəsadla mübarizə aparmaq olduqca çətin bir işdir. Bir zaman mən belə fikir söyləmişdim ki, bu yeddibaşlı fəsad əjdahasını belə asanlıqla qılıncdan keçirmək mümkün olmayacaq. Çox çətin bir işdir! Desəm ki, hazırda o şər əjdaha artıq qılıncdan keçirilib, xeyr, belə deyil! İndi də onun axırına çıxmaq mümkün olmayıb. Lakin artıq onunla mübarizə aparmaq əzmi vardır. Toplumu təşkil edən elementlərin özləri şər və fəsada bulaşmış olmasalar, təbii ki, onlarda cəsarət hissi, mübarizə əzmi daha da çox olar. Bundan əvvəlki toplumların əksəriyyəti də, həqiqətən, saf olmuşlar, yəni fəsada və şərə bulaşmamışlar. İntəhası, şərlə, fəsadla mübarizə aparmaq əzmi çox yüksək, imtiyazlı bir xüsusiyyətdir və həmin xüsusiyyət də sizdə var.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

## Dünya arenasındakı hegemon qüvvələrə qarşı mübarizədə hücuma keçmək əzmi

Dünyadakı “qoluzorlular”la mübarizədə hücum əzmi; ola bilər ki, dünyada hegemonluq edənlər bizi hansısa bir işi görməkdə günahlandırsınlar, biz də öz növbəmizdə and-aman edib bunu təkzib edək. Lakin bəzən həmin hegemon qüvvələrin bizim üstümüzə zorakı şəkildə hücumlar etdiyinin də şahidi ola bilərik. Belə bir situasiyada ən yaxşı müdafiə tədbiri hücuma keçməkdir. Beynəlxalq arenadakı “qoluzorlular”ın saysız-hesabsız zəif nöqtələri var: onlar çoxlu cinayətlər, fitnə-fəsad törədir, insan haqlarını tapdalayır, xalqların hüquqlarına təcavüz edir, insanları ayaqları altına salıb əzir –bir sözlə, bütün çirkin işləri görürlər. Axı bələlərinin hamıdan nə isə bir umacağı var! Biz heç də beynəlxalq siyasi hücumların qarşısında cavab axtarmalı deyilik. Bir vaxt –əvvəlki illərdəmənə tez-tez belə bir sual verirdilər: “Siz filan sözün cavabında nə deyə bilərsiniz?” Mən deyirdim: “Biz heç bir sözü cavablandırmaq niyyətində deyilik. Biz konkret məsələlərdə iddialıyıq və öz iddiamızı irəli sürürük. Qadınlarla bağlı məsələdə iddialıyıq; insan haqları məsələsində iddialıyıq; təməl insan hüquqları məsələsində iddialıyıq. Biz bütün bu məsələlərlə bağlı öz fikrimizi, öz mövqeyimizi iddia edirik. Biz cavabdeh qismində çıxış etmirik. Nə üçün onlar suallar verərək kimi isə həmin sualları cavablandırmaq məcburiyyəti qarşısında qoymalıdırlar? Onların suallar verərək öz iddialarını irəli sürməsi yersizdir. Məhz belə bir əhval-ruhiyyədə olmaq çox yaxşıdır. İnqilabi əhval-ruhiyyə məhz budur! Həqiqəti aşkara çıxarıb aydınlaşdıran da, bax budur!”

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

## Xalqa yaxın olmaq əhval-ruhiyyəsi

Dövlətin xalqa, torpağa bağlılıq əhval-ruhiyyəsində olması da çox dəyərli bir amildir. Bunun qədrini bilin! Sizin malik olduğunuz imtiyaz zahiri şəxsiyyətinizdən, görkəminizdən və qiyafənizdən asılı deyil. Sizin imtiyazınız budur ki, özünüzü xalqla eyni səviyyədə tutasınız, camaatın arasında onlar kimi olasınız, xalqla əlaqə saxlayıb ünsiyyət qurasınız, onların dərdini eşidəsiniz. Bu, böyük bir imtiyazdır... Onu qoruyub saxlayın!

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

## Xalqa yaxın olmaq və sadə həyat tərzi keçirmək

Bizim israfçılığın qarşısını almaq üçün görməli olduğumuz ən önəmli iş budur ki, hakimiyyət nümayəndələri, ölkədə yüksək vəzifə postları tutan şəxslərin özləri və onların ətrafındakı insanlar, yaxınları və qohumları israfçı, dəbdəbəli həyat tərzinə meyilli olmasınlar. Biz özümüz israfçı olsaq, camaata necə "İsrafa yol verməyin!" – deyə bilərik.

أَتَأْمُرُونَ النّاسَ بِالْبِرِّ وَتَنْسَوْنَ أَنْفُسَكُمْ وَأَنْتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلا تَعْقِلُونَ

**"Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda özünüzü unudursunuz? Halbuki, özünüz Tövrat oxuyursunuz. Məgər çirkin əməllərinizi başa düşmürsünüz?"***("Bəqərə" surəsi, ayə 44)*

يا أيّها الّذين امنوا لم تقولون ما لا تفعلون. كبر مقتا عند اللّه ان تقولوا ما لا تفعلون

**"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? (Bəzi müsəlmanlar: "Hansı əməllərin Allaha daha xoş getdiyini bilsəydik, onları edər, malımızı və canımızı onların yolunda qoyardıq!" – deyirdilər. Lakin cihad əmri nazil olduqda bu, bir çox möminlərin xoşuna gəlmədi). Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar".***("Səf " surəsi, ayə 2, 3)*

Ən başlıcası isə budur ki, biz ölkədə məsul vəzifələrə xalqa daha yaxın olan, sadə həyat tərzi keçirməyi özünə yaraşdıran, camaatın dərdindən xəbərdar olan, xalqın dərdi ilə ağlayıb, sevinci ilə gülən şəxsləri seçək. Zənnimcə, bu da olduqca mühüm bir meyardır. Seçim edərkən bu meyarı nəzərə alaraq dərindən düşünüb qərar verin. Qərarınızı dəqiqləşdirdikdən sonra Allaha yaxın olmaq, Allah naminə iş görmək niyyəti ilə (qəsdi-qürbətlə) seçki məntəqələrinə yollanın. Uca Yaradan bu əməlinizin savabını və əvəzini mütləq verəcək!

**Sənəndəc şəhərinin “Azadlıq” meydanında Kürdüstan vilayətinin əhalisi ilə görüşdə söylənilmiş bəyanat** (22.02.1388)

**Cəmiyyətdəki təbəqələr arasında məsafənin azaldılması**

Sadə həyat tərzi keçirmək dəyərli bir şeydir. Allaha şükürlər olsun ki, ölkəmizdə məsul vəzifələrdə çalışan insanlarda bu xüsusiyyət bu və ya digər dərəcədə, bəzi yerlərdə az, bəzi yerlərdə isə daha çox müşahidə olunur. Sadə yaşamaq olduqca dəyərli bir cəhətdir. Biz, doğrudan da, böyük bir bəla olan aristokratik dəbdəbə, zahiri parıltı, israfçılıq, sağa-sola pul xərcləmək kimi xüsusiyyətlərin cəmiyyətimizdə kökünü kəsmək istəyiriksə, bilməliyik ki, buna yalnız sözlərlə, danışmaqla nail olmaq mümkün deyil. Belə ki, bir yandan biz səhərdən axşama qədər bu barədə danışaq, digər tərəfdən isə camaat əməldə başqa cür davrandığımızı görsün. Biz əməldə sübut etməliyik! Bizim sözlərimizin kiməsə təsir göstərməsi üçün əməllərimiz sözlərimizi təsdiq edən dəlillər olmalıdır. Xoşbəxtlikdən, bu, bizim cəmiyyətimizdə var! Özünüzlə sadə xalq, aztəminatlı camaat arasındakı məsafəni azaltmısınız. Bu prinsipi qoruyub-saxlamağa və bu məsafəni bacardıqca daha da azaltmağa, xalqa yaxın olmağa çalışın!

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

## Sadə, dəbdəbəsiz yaşayışa üstünlük vermək

Sadə yaşayışa üstünlük vermək; bu, olduqca əhəmiyyətli bir şüardır. Buna barmaqarası baxmamaq lazımdır. Biri var ki, biz məsəl üçün, öz şəxsi həyatımızda hər hansı bir dəbdəbəli nüansa yer veririk, bu, Tanrı ilə öz aramızda qalan bir məsələdir. Əgər haramdırsa, haram, məkruhdursa, məkruh, mübahdırsa, mübah hökmündədir. Biri də var ki, biz camaatın gözü qarşısında aristokratik həyat tərzinə aid olan hansısa dəbdəbəli çalara yol veririk. Bax, bunun artıq məkruh və mübahı yoxdur, başdan-ayağa haramdır! Çünki bu cür davranış aristokratik dəbdəbəyə, zahiri parıltı elementlərinə həvəsi, əvvəla, bizim tabeçiliyimizdə çalışanlara öyrədir, ikincisi isə xalqın nümayəndələrini bu işə təşviq edir. Biz xalqı belə bir işə təşviq etməməliyik. Ola bilər ki, cəmiyyətdə varlı, pulunu göyə sovuran insanlar olsun. Bu, şübhəsiz, pis, bəyənilməyən bir iş olsa da yalnız həmin insanların özünə aiddir. Bizim isə sağa-sola pul xərcləməyimiz, birincisi, öz cibimizdən yox, beytul-maldandır, ikincisi isə bizim pulu göyə sovurmağımız başqalarını da bu cür davranışa təşviq edə bilər. Həqiqətən də:

النّاس علی دین ملوکهم

**“İnsanlar öz padşahlarının dinində olarlar”.**

Burada “moluk” sözü “padşahlar” mənasında deyil ki, biz hansısa padşaha tabe olmadığımızı bəhanə gətirək. Xeyr! “Moluk” sizlərsiniz! (Ölkə başçısı və nazirlərə xitabən) İnsanlar bizim dinimizdədirlər!

**Ölkə başçısı və nazirlərlə görüş** (02. 06. 1387)

**Qanunlara riayət etmək**

Qanunlara riayət etmək də meyarlardan biridir. Qanunlara böyük əhəmiyyət verin! Qanun konstitusiyaya müvafiq surətdə hazırlandıqdan sonra təsdiq olunaraq qüvvəyə minir. Məclis, dövlət, yaxud başqaları tərəfindən görülən konkret tədbirlər – Məclisdə irəli sürülən və ya dövlətin təqdim etdiyi layihələr, yaxud müxtəlif sahələrdə çıxarılan qərarlar nəticəsində həmin qanunda dəyişikliklər edilə bilər. Qanun nöqsanlı, zəif, yaxud yanlışdırsa, başqa bir qanunla əvəz oluna bilər. Lakin o vaxta qədər ki, qanun qanun kimi qüvvədədir, ona əməl olunması və əhəmiyyət verilməsi vacibdir. Mən bunu təkidlə vurğulayıram. Müxtəlif sferalarda da vəziyyət eynilə bu cürdür. Mümkündür ki, siz hansısa bir məsələyə hüquqi cəhətdən düzgün etaplarla baxılmadığını, yaxud bu işin İcra Hakimiyyətinin səlahiyyətinə aid olmadığını düşünəsiniz. Məclis tərəfindən konstitusiyaya müvafiq surətdə qəbul olunmuş qanundövlətə təqdim olunandan sonra İcra Hakimiyyəti onu qanun kimi tanımalıdır. Deməli, əgər qanunda hər hansı zəif məqamlar, yaxud digər bir çatışmazlıq varsa, bunu aradan qaldırmaq üçün istər Məclisin özündə, istərsə də Nəzarət Şurasında və bu qəbildən olan instansiyalarda digər amillər mövcuddur. Qanuna lazımi səviyyədə əhəmiyyət verin!

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02. 06. 1387)

**Tabeçiliyində olan kollektivə nəzarət**

Tabeçiliyində olan kollektivə nəzarət etmək də olduqca mühümdür. Mən təkid və israrla qeyd etmək istəyirəm ki, sizlər, əziz dostlar – öhdəsinə böyük məsuliyyət düşən yüksək rəhbər işçilər rəhbərlik etdiyiniz orqanlarda çalışan kollektivə nəzarət işinə olduqca böyük əhəmiyyət verəsiniz. Sizin öz səlahiyyət dairənizdəki kollektivin işinə olan daim diqqətli, tələbkar, tükü-tükdən seçən nəzarətiniz görülən işin düzgün istiqamətdə getməsinə və inkişafa zəmanət verə bilər. Siz öz işinizdə azacıq səhlənkarlıq göstərib, hansısa sahəni diqqətdən kənarda saxlasanız, həmin sahədə intizamsızlıq, özbaşınalıq əmələ gələ bilər. İnsanların çalışdığı kollektiv avtomatik çalışan hansısa bir dəzgah deyil ki, bircə düyməyə basmaqla öz-özünə işə başlasın. İnsan kollektivi dürüst və yanlış olan müxtəlif niyyətlərin, fikirlərin, rəylərin, zövqlərin və nəfsani istəklərin toplumudur. Beləliklə, siz düşünüb-daşınaraq nəyi isə qərara aldıqda və öz rəhbərlik etdiyiniz orqanda həmin qərarı icra etmək fikrinə gəldikdə, ola bilər ki, sizin qərarınızın qarşısında hansısa məqamda həmin növbənöv istək, fikir, zövq və niyyətlərdən ibarət olan maneələr əngəl olsun. Bu eynilə qarşısına böyük bir daş çıxan axar suya bənzəyir. Zəif bir su şırımı kiçik bir daşla da üzləşdikdə geri qayıdır. Beləliklə, işinizdə qarşılaşdığınız həmin maneəni aradan qaldırmalısınız. Bu isə yalnız ciddi nəzarətlə mümkündür. Nəzarət olduqca mühümdür.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**Digər hakimiyyət orqanları ilə əməkdaşlıq**

Tövsiyələrimdən biri də digər iki hakimiyyət orqanı ilə əməkdaşlıq etməkdir. Məclis və Məhkəmə Hakimiyyəti ilə əməkdaşlıq etmək lazımlı bir işdir. Bunu hökmən nəzərdən qaçırmamaq lazımdır. Əlbəttə, bu yolda xoşagəlməzliklər və problemlər ola bilər. Lakin bunların hamısına dözmək lazımdır. Bu, daha yaxşıdır.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**Hakimiyyət nümayəndələrinin görkəmli şəxslər və ziyalılarla həmkarlıq etməsi**

Əhəmiyyətli olan digər bir məsələ hökumət nümayəndələrinin görkəmli şəxslər və ziyalılarla – hətta müxalif cinahda və mövqedə olsalar belə – qarşılıqlı əməkdaşlıq etməsidir. Onlarla da əməkdaşlıq etmək vacibdir. Cəmiyyətdəki görkəmli şəxsiyyətləri qətiyyən diqqətdən kənarda saxlamaq olmaz. Mən bu fikirdəyəm ki, imam Əli (ə) da buyurduğu kimi, görkəmli şəxsiyyətlərlə adi camaatın istəkləri ziddiyyətli olduqda adi camaatın fikrini əsas götürmək lazımdır. Bu məsələyə Həzrət Əlinin (ə) Malik Əştərə yazdığı məşhur məktubundakı məşhur fərmanında rast gəlinir. Lakin həmişə bu cür olmur. Bəzən qabaqcıl, görkəmli şəxslər elə islahatçı fikirlər irəli sürürlər ki, onlardan mütləq istifadə olunmalıdır. Yəni necə deyərlər: "El bir olsa, dağ oynadar yerindən". Həqiqətdə də, elə bu cürdür. Bütün mövcud qüvvələrdən, ideyalardan və səylərdən səmərəli istifadə olunmalıdır.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**Mədəniyyətə diqqət göstərmək**

Daha bir önəmli və olduqca mühüm olan məsələ məhz mədəniyyət məsələsidir. Razıyam, şübhəsiz ki, müəyyən işlər görülmüşdür. Verilən hesabatlarda buna işarə olundu. Mən özüm də bu sahədə görülən bir çox tədbirlərdən şəxsən xəbərdaram. Lakin buna baxmayaraq mədəniyyət mühüm bir problem olaraq qalır. Dəfələrlə qeyd etdiyimiz kimi, bu, insanın tənəffüs etdiyi havaya bənzəyir.Böyüklər, kiçiklər, aşağı, yaxud yuxarı –müxtəlif təbəqələrin nümayəndələri, vəzifəli, yaxud vəzifəsi olmayan şəxslər – hamı eyni hava ilə nəfəs alır. Bu havanı, bu atmosferi hər cür çirkinliklərdən təmizləməyə çalışın ki, hamı sağlam atmosferdə tənəffüs edə bilsin.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**Tənqidlərə qarşı diqqətli olmaq**

Tənqidlərə qarşı da diqqətli olun. “Tənqid” anlayışı “təxribat” anlayışından tamamilə fərqlidir. Təəssüflər olsun ki, çoxları təxribat aparmaqla məşğul olur, adını isə “tənqid” qoyurlar. Həqiqi tənqid budur ki, kimsə xeyirxah məqsədlə görülən bir işin müsbət tərəflərinə diqqət yetirir və nöqsanlı tərəflərini də qeyd edir. Belə şəxslərin sözünü canla-başla eşitməyə çalışın. Demirəm ki, onların bütün dediklərini qəbul etməlisiniz. Ola bilər ki, tənqidçi səhvə yol vermiş olsun. Lakin sizi tənqid edənləri dinləyin ki, onların, həqiqətən də, haqlı olduğu məqamlar diqqətinizdən yayınmasın. Bütün bunlar mənim əvvəllər də dəfələrlə qeyd etdiyim məsələlərdir. Bu gün də mən onları təkidlə nəzərinizə çatdırıram. Bunlardan bəzilərinə kifayət qədər diqqət yetirilib, bəzilərinə də daha artıq diqqət yetirilməsi olduqca vacibdır.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

**“Tərəqqi və ədalət” şüarı**

Qarşıdan gələn onillik bizim üçün “tərəqqi və ədalət” onilliyidir. Bu iki şüar gələcək onilliyin şüarlarıdır: tərəqqi və ədalət. Bu, o demək deyil ki, indiyə qədər biz inkişaf etməmişik, yaxud indiyə kimi ədalətə tamamilə etinasız yanaşılmışdır. Xeyr! Bizim əsl məramımız budur ki, bu onillikdə sıçrayışlı, hərtərəfli bir tərəqqi, geniş, çoxcəhətli bir ədalət meydana gəlsin. Xoşbəxtlikdən, bunun üçün artıq lazımi zəmin hazırlanmışdır. Bu onillikdə ölkədə məsul vəzifələrdə çalışanların devizi mütləq “tərəqqi və yüksəliş” olmalıdır, “tərəqqi və ədalət” olmalıdır.

Şübhəsiz, aydındır ki, mənəviyyat və rasional yanaşma olmadan ədalətin gerçəkləşməsi qeyri-mümkündür. Mən bunu əvvəllər də qeyd etmişəm. Mənəviyyatın olmadığı yerdə ədalət riyakarlığa (gözdən pərdə asmağa) çevrilir. Məntiqi yanaşma olmadan ədalət qətiyyən gerçəkləşə bilməz və həqiqi ədalətin yerini insanın ədalət hesab etdiyi yanlış bir şey tutar. Buna görə də mənəviyyat və məntiqi yanaşma ədalətin gerçəkləşməsi üçün zəruri şərtdir.

Lakin ədalətin olmadığı yerdə tərəqqi və yüksəlişin heç bir mənası yoxdur. Tərəqqi olmadan isə ədalət özünün həqiqi mənasını kəsb edə bilməz. Həm tərəqqi, həm də ədalətin olması olduqca vacibdir. Əgəs özünüz başqalarına nümunə olmaq, bu ölkənin də müsəlman ölkələri üçün nümunə olmasını istəyirsinizsə, sizin əsl deviziniz, hamının uğrunda çalışdığı ali hədəf məhz bu olmalıdır.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (02.06.1387)

Ədalətə söykənmək hər bir İlahi işin ən əsas və fundamental prinsipi, bütün peyğəmbərlərin, tarix boyu

gəlib-getmiş bütün əzəmətli, saleh insanların öz missiyasını davam etdirməsinin zəruri amilidir. Əlbəttə, ədalətin düşmənləri çox olur. Çörəyi ədalətsizlikdən çıxanların hamısı ədalətə düşmən kəsilmişlər. İstər milli, istərsə də beynəlxalq arenada qarnını quldurluq və zorakılıqla doyuranlar ədalətə müxalifdirlər. Ədalət İslam İnqilabının, İslam Respublikası dövlət quruluşunun əsas şüarı və ən böyük hədəfi olmuşdur, hal-hazırda da belədir!

Bəziləri "hiddət, hirslilik, qeyzlilik" damğası vuraraq ədaləti ittiham etmək istəyirlər. Ədalət hiddət və qeyzlilik yox, haqqı tələb etməkdir. Xalqın nümayəndələrinin hüquqlarına diqqət yönəltməkdir. Ayrı-seçkiliyin qarşısını almaqdır. Məzlumların hüquqlarına təcavüzün yaranmasına mane olmaqdır. Hər hansı bir ölkədə bir çox insanlar tapılar ki, əgər hüquq-mühafizə orqanları onların imdadına çatmasa, cürbəcür çaxnaşma dalğaları arasında ayaqlar altında tapdanıb qalarlar. "Ədalət" prinsipi üzərində qurulmuş bir dövlətin vəzifəsi yoxsul təbəqəyə xüsusi diqqət göstərməkdir. Ədaləti hiddət və qeyzlə eyniləşdirmək, rasional intellektual metodların əleyhinə olan bir prinsip kimi qavramaq lazım deyil. Rasional metodlardan, məqsədəuyğun tədbirlərdən istifadə etməklə cəmiyyətdə ədaləti bərqərar etmək mümkündür.

**Ölkə prezidentinin inauqurasiya mərasimi** (12.05.1384)

Dövlətin şüarlarından biri ədalətdir. Şübhəsiz ki, ədalət İslam İnqilabının mehvəri idi. Buna heç bir şəkk-şübhə yoxdur. Heç bir dövlət hakimiyyətə gələn kimi açıq-aşkar "Mən ədalətlə rəftar etmək fikrində deyiləm" – deyə elan etmir. Lakin mən onlara yeni bir iş gördükləri üçün öz təşəkkürümü bidirməliyəm. Onlar "ədalətsevərlik" prinsipini bir şüar kimi ortaya qoydular. Bu, həddən artıq böyük bir iş idi. O, öz seçki kampaniyalarını həyata keçirdikdə mən öz ailə üzvlərimə deyirdim ki, səs toplamasa belə "ədalət" şüarını irəli sürməsi ilə İslam İnqilabı üçün böyük xidmət göstərmiş oldu. O, heç bir vəchlə "ədalət" prinsipinə, "ədalət" şüarına etinasızlığın cəmiyyətdə adi bir hala çevrilməsinə imkan vermədi. Bu şüar irəli sürüldü və zehinləri özünə cəlb etdi. Xoşbəxtlikdən, xalq da bunu anladı, bəyəndi, sevdi və səs verdi. Bu, çox mühüm bir işdir. Buna görə də bu dövlətin təməlində "ədalət" prinsipinin durması olduqca böyük bir məna kəsb edən önəmli bir faktdır. Bu şüarın dövlətin hərəkət strategiyası kimi irəli sürülməsi yeni bir işdir. Bunun özü bir dəyişiklikdir. Bu şüara lazımi əhəmiyyət verərək daim ona sədaqətli olun!

**Ölkə prezidenti və nazirlərlə görüş** (08.06.1384)

**Prinsipial dövlət**

Bu dövlət "prinsipial" bir dövlət kimi tanınır, bu günə qədərki bütün rəftar və danışıqlarında, əməllərində və sözlərində həmin prinsipiallıq açıq-aşkar müşahidə olunmuşdur. İnşallah, bunun ölkə üçün və sizlər üçün bərəkəti çox olacaqdır. Prinsipiallığın meyarlarını bilmək olduqca mühümdür. Bu meyarlara lazımi diqqət yetirilməlidir. Mən onlardan bəzilərini qeyd edirəm. Sizin öz çıxışlarınızda da onlara rast gəlinir. Siz də bu barədə təkrar-təkrar danışır, həyata keçirdiyiniz proqramlarda bunu nəzərə alırsınız. Bütün bu prinsipiallıq göstəriciləri sözün əsl mənasında gerçəkləşdikdə dövlət "prinsipial bir dövlət" kimi dünyada tanınacaq.

## Birinci meyar ədalətsevərlik və daim ədalət tələb etməkdir

Birinci meyar ədalətsevərlik və hər yerdə ədalət tələb etməkdir. Bunu dildə demək çox asandır. Əməldə isə bu, olduqca çətin, öncədən müəyyən hazırlıq tələb edən bir işdir. Ədalətin reallaşması üçün xeyli iş görmək lazımdır. Coğrafi ədalət, cəmiyyətdəki təbəqələr arasında ədalət, iqtisadi məsələlərdə ədalət, mədəni məsələlərdə ədalət, məsul vəzifə postları tutmaqda ədalət, mühakimələrdə (burada yalnız məhkəmədə hakimlərin etdiyi mühakimələr deyil, bizim özümüzün müəyyən şəxslər və hadisələrlə əlaqədar yürütdüyümüz mühakimələr də nəzərdə tutulur) ədalət –bütün bunlar ədalətə misaldır və bunlarda ədalətin özünəməxsus rolu vardır. Bütün bunların mahiyyətində "ədalətsevərlik və ədalət tələb etmək" durur. Əlbəttə, hal-hazırda ölkəmiz hər şeydən çox iqtisadi ədalətə ehtiyac duyur. Səbəb isə budur ki, doğrudan da, keçmişdən eybəcər nöqsan kimi miras qalmış bir boşluq var idi və həmin boşluğu doldurmaq lazım idi. Lakin həmin boşluq hələ də doldurulmamış qalıb. Şübhəsiz ki, bu nöqsan məntiqəuyğun surətdə aradan qaldırılmalıdır. Biz bu boşluğu, bu nöqsanı İslamın tövsiyə etdiyi tərzdə doldurmağı təklif edirik. Həmçinin məntiqsiz, qeyri-mümkün, ağlasığmaz sözlər danışmaq istəmirik. İslam dinində buyrulduğu kimi: "şanslar hamının üzünə üçün açıq olsun və ümumi imkanlar hamının istifadəsinə qoyulsun". Buna görə də prinsipiallığın meyarlarından biri olduqca genişmiqyaslı olan ədalətsevərlik və ədalət tələb etmək məsələsidir.

**Ölkə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Fəsada qarşı çıxmaq**

Fəsadın əleyhinə olmaq digər bir meyardır. Ölkədə məsul vəzifələrdə çalışan, xüsusilə də hökumət nümayəndələri və onların müavinləri kimi yüksək vəzifə postlarını tutan şəxslərin əxlaqlı və əqidəli olması olduqca əhəmiyyətlidir. Bu qəbildən olan insanların sağlam əxlaq və əqidəyə malik olması da digər bir meyarlardan biridir.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Din, şəriət baxımından bəyənilən və qanuni sayılan fəaliyyət**

Mənim və sizlərin fəaliyyətimizin şəriət baxımından təsdiq olunaraq qanuni hesab edilməsi fəsadla, hüquq pozuntuları ilə nə dərəcədə mübarizə aparmağımıza, nə qədər ədalətpərvər olmağımıza sıx bağlıdır. Bu, bizim fəaliyyətimzin şəriət nöqteyi-nəzərindən qanuni fəaliyyət kimi tanınmasının əsasıdır. Hazırda bu barədə bir çox sözlər danışılır, mənim özümün də bu haqda kifayət qədər məlumatım var. Lakin əsl həqiqət budur ki, əgər biz ədalət arxasınca getməsək, doğrudan da, elə mənim özümün də burada varlığım şəriət baxımından qeyri-qanuni olacaq. Başqa sözlə desək, bütün səlahiyyətlərim, atdığım bütün addımlar şəriət nöqteyi-nəzərindən qeyri-qanuni sayılacaq. Başqaları da eynilə bu cürdür. Biz ədaləti bərqərar etmək, hüquqların tapdanmasına son qoymaq üçün gəlmişik. Biz gəlmişik ki, cəmiyyətin ona Allah-Taala tərəfindən əta edilmiş nemətlərdən (Allah-Taalanın ən mühüm nemətləri ədalətdə öz əksini tapır), həmçinin əxlaqi və mənəvi nemətlərdən faydalanmasına lazımi şərait yaradaq.

**Hökumət nümayəndələri ilə görüşdə söylənilmiş bəyanat** (05.06.1382)

**Fəsadla mübarizə aparmaq**

Mən bu fikirdəyəm ki, fəsadla mübarizə aparmaq, ilk növbədə, dövlətin özünün öhdəsinə düşən bir işdir. Xüsusilə də bizim ölkəmizdə yüksək vəzifələrdə çalışan hökumət nümayəndələri, yəni sizlər – möhtərəm nazirlər, ölkə prezidentinin möhtərəm müavinləri və digər yüksək dövlət postları tutan şəxslər pak əxlaqlı və əqidəli insanlardır. Siz düzgün işləmək, sağlam, şəffaf fəaliyyət göstərmək niyyətindəsiniz. Buna görə də məhz sizin özünüz fəsadla mübarizə apara bilərsiniz! Bunu mütləq edin!

**"Dövlət həftəsi" münasibətilə hökumət nümayəndələri ilə keçirilən görüşdəki bəyanat** (04.06.1381)

**Fəsadla mübarizədə qətiyyət və ciddilik**

Digər bir məsələ fəsadla mübarizədə qətiyyətli və ciddi olmaqdır. Bu günümüzdə, xoşbəxtlikdən, dövlətin və ölkə prezidentinin siyasi kursu elə bir istiqamətdədir ki, fəsada meyilli olan şəxslər qorxuya düşmüşlər. Lakin düzgün istiqamətdə iş aparılmasa, real addımlar atılmasa, get-gedə bu qorxu azala və nəticədə fəsadla mübarizənin bu təntənəsi yox ola bilər. Müəyyən yerlərdə fəsada meyillilik mövcuddur.

Fəsada, maliyyə pozuntularına qarşı cəsarətlə çıxış edin. Əlbəttə, "cəsarətlə, heç nədən qorxmadan, qətiyyətlə çıxış etmək" dedikdə bu, öncədən hansı mübarizə metodundan istifadə edəcəyini düşünmədən, kor-koranə şəkildə mübarizə aparmaq anlamında deyil. Bunları bir-biri ilə vəhdətdə, paralel götürmək lazımdır. Bu baxımdan tərəzinin hər iki gözü bir-biri ilə mütləq tarazlaşdırılmalıdır.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüşdə söylənilmiş bəyanat** (06.06.1385)

**İslam dinini uca tutmaq**

İslam dinini uca tutmaq prinsipiallığın ikinci meyarıdır. Belə ki, biz bu iyirmi yeddi il ərzində İslam Respublikasında bəzi hökumət nümayəndələrinin İslam dinin hökmlərini, İslamın hansısa bir problemə münasibətdə mövqeyini birbaşa deməkdən xəcalət çəkdiklərinin şahidi olmuşuq. Xeyr! Biz iddialıyıq! Mən dəfələrlə demişəm ki, qadın mövzusu ilə bağlı biz Qərbin qarşısında cavabdeh qismində çıxış etməli deyilik! Əksinə, qadın problemi ilə əlaqədar Qərb bizim önümüzdə cavabdeh kimi çıxış etməlidir! Həllini tapmamış problemləri, cavablanmalı olan sualları ortaya qoyan bizik! İnsan hüquqlarının yalançı və ikiüzlü carçılarını cavabdeh kürsüsünə oturtmağa çalışan da bizik! Buna görə də İslam dinini əziz və uca tutun! İslamın bizə öyrətdiyi hər bir şeylə – əgər düzgün dərk olunsa, səhv fikirlərə, yanlış qavramaya düçar olub düzgün istiqamətli təfəkkürdən sapınmasaq – fəxr etməliyik!

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Sadə həyat tərzi keçirmək və xalqa yaxın olmaq**

Sadə həyat tərzi keçirmək və xalqa yaxın olmaq digər bir meyardır. Allaha şükürlər olsun ki, bu meyar sizdə müşahidə olunur.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Təvazökarlıq və eqoizm girdabında batıb qalmamaq**

Təvazökarlıq və eqoizm girdabında batmamaq prinsipiallığın mühüm amili olan göstəricilərdəndir. Bu göstəricinin bizə birbaşa aidiyyatı var. Baxın, əzizlərim! Sizlərdən hər biriniz yüksək postlar tutursunuz və sizə böyük ehtiram göstərilir. İnsanlar sizinlə qarşılaşdıqda ünvanınıza təriflər söyləyir, sizi yüksək qiymətləndirdiklərini büruzə verirlər. Bəziləri bunu, həqiqətən, səmimi-qəlbdən, bəziləri isə sizə xoş gəlmək məqsədilə edirlər. Biz özümüz diqqətli olmalıyıq ki, bizə ünvanlanan tərif dolu sözlərə inanıb aludə olmayaq. Biz öz daxilimizə nəzər salmalıyıq:

الانسان علی نفسه بصيرة

Nöqsanlarımızı, əyər-əskiklərimzi və çatışmayan cəhətlərimizi görməli, gəlişigözəl sözlərə əsla aldanmamalıyıq. Bu cür sözlərə uymaq insanı təkəbbür və eqoizm girdabına atır. İnsan özü özünü obyektiv qiymətləndirməsə, daha heç bir zaman həmin girdabdan xilas ola bilməz.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**İsrafçılıqdan, sağa-sola pul xərcləməkdən çəkinmək**

İsrafçılıqdan, lazımsız yerə sağa-sola pul xərcləməkdən çəkinmək sizlərin rəhbər tutduğunuz olduqca müsbət prinsiplərdən biridir.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Məntiqli və tədbirli olmaq, müdrik qərarlar qəbul etmək və düşünülmüş addımlar atmaq**

Məntiqli, tədbirli olmaq, müdrik qərarlar qəbul edə bilmək və düşünülmüş şəkildə iş görmək sizin hökmən ehtiyac duyduğunuz məsələlər sırasına daxildir. Bizim hamımızın qəbul etdiyimiz qərarlarda və atdığımız addımlarda buna böyük ehtiyacımız var.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Məsuliyyətli olmaq və cavabdehlik daşımaq**

Məsuliyyətli olmaq və cavabdehlik daşımaqvar olduğumuz bütün sferalarda öhdəmizə götürdüyümüz işlərin məsuliyyətini dərk edərək qəbul etməyimizdir. Rəhbərlik etdiyimiz sahələr, kollektivlər bizim rəhbərliyimiz altındadırlar və biz bunun məsuliyyətini lazımınca hiss etməliyik. Hər hansı bir sferada öhdəmizə düşən konkret bir məsuliyyət varsa, biz bunu dərk etməli, qəbul etməli və cavabdehlik daşımalıyıq.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Elmə və elmi tərəqqiyə can atmaq**

İslamın ortaya çıxdığı ilk vaxtlarda insanlara namaz, zəkat və bu qəbildən olan əməllərə riayət etmək vacib olduğu andan bəri elm öyrənmək, elmin ardınca getmək də tövsiyə edilmişdir, hətta “Elm Çində olsa belə öyrənin, çünki elm öyrənmək hər bir müsəlmana vacibdir” – deyə buyurulmuşdur. Mən dəfələrlə qeyd etmişəm, bu, məhz ona görədir ki, elm olmadan cəmiyyət özünün yüksək amallarını irəliyə doğru apara bilməz. Bu, ona bənzəyir ki, insanın ətrafındakılara deməyə haqq sözü ola, lakin onu demək üçün danışan dili olmaya. Elmsiz olmaq eynilə buna bənzəyir. Elm səbəb olur ki, sizlər açıq-aydın olan doğru yolun (صراط مستقيم) yüksək amalları və məqsədlərini özünüz üçün dəqiq müəyyənləşdirib bu yolda başqa insanlara da bələdçilik edəsiziniz. Elminiz olmasa, bu, mümkün olmayacaq. Buna görə də elm hər bir xalqın, bütövlükdə bütün bəşəriyyətin və ayrı-ayrı fərdlərin inkişafının, dünya arenasında yüksəlişinin olduqca vacib olan amillərindən biridir. Bu yolda səy və əzmkarlıq göstərməyiniz zəruridir.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Genişqəlblilik və əleyhdarlarına qarşı dözümlülük**

Genişqəlblilik və əleydarlarına qarşı tolerantlıq prinsipiallığın əsaslarındandır. Bəzən insan deyilən müxtəlif sözlərdən narahat olur, əsəbləşir, bəzən də üzünü Allaha tutub şikayət edərək: “Pərvərdigara! Sən ki, əslində, işin nə yerdə olduğunu, bunların dediklərinin həqiqətdən nə qədər uzaq olduğunu bilirsən?!” – deyir. Lakin eyni zamanda insan tolerantlıq nümayiş etdirməlidir. “Tolerantlıq” dedikdə insanın özünə müxalif olan şəxsin fikrini eşitməkdə səbir, dözümlülük göstərə bilmək bacarığı başa düşülür. Əlbəttə, bu, o demək deyil ki, (çox güman ki, mən daha sonra bu mövzuya bir də qayıdacağam) dövlət atdığı atdımları müdafiə etməsin. Xeyr! Mütləq müdafiə etməlidir!

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Nəfsin istəklərinə uymaqdan çəkinmək**

“Nəfsin istəklərinə uymaqdan çəkinmək” dedikdə istər şəxsi, istərsə də insanın aid olduğu toplumun nəfsi istəkləri nəzərdə tutulur. Bir qədər əvvəl möhtərəm ölkə prezidenti bu mövzuya toxundu və bu, olduqca müsbət bir haldır. Allaha şükürlər olsun ki, dövlət nümayəndələri heç bir qruplaşmaya, dəstəyə, yaxud cərəyana bağlı deyillər. Bu, olduqca mühüm bir məqamdır. Diqqətli olun ki, əməlləriniz, yürütdüyünüz fikirlər və davranışınız sizin hansısa cərəyana, yaxud qruplaşmayaaid olunmağınızla nəticələnməsin. Əks təqdirdə, nəfsin istəklərinin qarşısını almaq, demək olar ki, mümkün olmayacaqdır. Toplumun nəfsi istəkləri eynilə bir şəxsin nəfsi istəklərinə bənzəyir. Toplumun nəfsi istəkləri də insanı özünü düşünmədən oda-közə vurmağa məcbur edir, ağıllı, məntiqəuyğun, doğru yoldan sapındırır. Bu da prinsipiallığın zəruri amilllərindəndir.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

## Layiqli şəkildə rəhbərlik etmək

**·Rəhbərlik etdiyi sahədə kollektivin işinə ciddi nəzarət etmək**

**·Xalqa xidmət yolunda daim səy göstərmək**

**·Qanunları rəhbər tutmaq**

**·Haqq olan hər bir şeyi deməkdə və ona əməl etməkdə cəsarət və qətiyyət**

İnsafən, bu dövlətdə layiqli şəkildə rəhbərlik etmək, rəhbərlik etdiyi sahədə kollektivin işinə lazımi nəzarət etmək və bunun üçün yorulmadan səy göstərmək gündəmdə olan mövzulardan biridir. Hamı, o cümlədən biz özümüz də bu yolda, həqiqətən də, daima yorulmadan səy göstərildiyinin şahidiyik. Dövlətin, xüsusən də şəxsən ölkə prezidentinin nümayiş etdirdiyi gərgin səy və fəaliyyət olduqca qiymətlidir. Qanunu rəhbər tutmaqda, haqq olan hər bir şeyi bəyan etməkdə və ona əməl etməkdə cəsarət və qətiyyət çox dəyərlidir.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Allahla, Quranla ünsiyyətdə olmaq, daim Tanrıdan kömək ummaq**

Allah-Taala ilə, Qurani-Kərimlə ünsiyyətdə və onlara bağlı olmaq, daim Tanrıdan yardım istəmək; prinsipiallığın göstəriciləri sırasında sonda qeyd etdiyim bu məsələ əvvəldə adlarını çəkdiyim bütün amillər üçün həlledici rol oynayır. Üzünüzü daim Allahın dərgahına tutub Onunla ünsiyyət qurmağı əsla unutmayın! Biz dəfələrlə qeyd edirik ki, dövlət nümayəndələrinin, məsul şəxslərin etdiyi xidmətlər hər cür ibadətdən üstündür. Bu, tamamilə mübaliğəsiz və düz sözdür. Lakin bilməlisiniz ki, həmin xidmətlər yalnız sizin qəlbləriniz Allahla olan zaman əsl xidmət hesab olunub, öz ixlası, parlaqlığı və şəffaflığı ilə əbədiləşəcək. Ürək Uca Yaradandan bixəbər olanda, Allah-Taalanın zikri, Tanrıya qarşı diqqətini yönəltmək, Onun qarşısında müti olmaq yadına düşməyəndə bizim ən üstün ibadət hesab etdiyimiz həmin xidmət sual altına düşür. Həqiqətən də, böyük bir sual altına düşür və ona cürbəcür qərəzli məqsədlər, umacaqlar əlavə olunur.

**Ökə başçısı və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)

**Çoxsaylı problemləri olan ucqar məntəqələrə yardım**

Mənim ölkənin bugünkü vəziyyəti barədə siz möhtərəm cənablara deyə biləcəyim yalnız bundan ibarətdir ki, Allaha çox şükürlər olsun ki, Allahın gözəl yardımları ilə, bütün sferalarda ölkədəki ümumi vəziyyət yaxşılığa və tərəqqiyə doğrudur. Heç vəchlə bəzi müvəqqəti göstəricilər, ötəri təzahürlər bizi ölkədəki real vəziyyət barədə uzaqgörənliklə nəticə çıxarmaqdan yayındırmamalıdır. Bəli! Biz, həqiqətən də, bu günə qədər irəliyə – İslam İnqilabının ali hədəflərinə doğru hərəkət etmişik! Bu günümüzdə açıq-aydın olan gerçəklik bundan ibarətdir ki, ölkədə quruculuq fəaliyyətinin inkişaf tempi xeyli sürətlənmişdir. Həqiqətən, insafla qeyd etmək lazımdır ki, hazırkı hökumət nümayəndələri və məsul şəxslər ölkə üçün məqsədəuyğun olan lazımi tədbirlərin görülməsi istiqamətində sürətlə, ləngimədən, fürsəti əldən buraxmadan irəliləməkdədirlər. Onların qarşıya qoyduğu məqsədlər və tutduğu mövqelər də düzgündür. "İctimai ədalət"ə nail olmaq bizim hamımızın qarşımıza qoyduğumuz əsas bir məqsəddir. Əslində, bu, bizim varlığımızın fəlsəfəsidir. Yaxud qayğı və problemlər yaşayan, ehtiyacı olan ucqar məntəqələrə yardım etmək bizimqarşıya qoyduğumuz məqsədlərimizdən və arzularımızdan biridir.

**Xalqın seçilmiş nümayəndələri ilə görüş** (09.06.1385)

**Ölkənin müxtəlif məntəqələrinə qayğı və diqqətlə yanaşmaq**

Lakin həmişə bu səfərlərdə digər bir hədəfimiz də bu olmuşdur ki, məsul vəzifələrdə çalışan şəxslərin diqqəti ölkənin müxtəlif məntəqələrinə cəlb olunsun. Allah-Taalaya çoxlu şükürlər olsun ki, həmin hədəf bu gün hakimiyyətdə olan dövlət aparatının fəaliyyəti nəticəsində öz-özlüyündə yerinə yetirilir. Xoşbəxtlikdən, hakimiyyət nümayəndələri, ölkə prezidenti və möhtərəm nazirlərin ölkənin müxtəlif məntəqələrinə vaxtaşırı baş çəkməsi bizim çoxdankı arzumuzu ən gözəl şəkildə həyata keçirir.

## **Simnan vilayətinin əhalisi ilə görüşdə söylənilmiş bəyanat** (17.08.1385)

**Nəticələri göz qabağında olan müsbət istiqamətli fəaliyyət**

Vilayətlərə edilən səfərlər olduqca müsbət, lazımlı və faydalı bir iş idi. Mən, həqiqətən də, təəccüb edirəm ki, bəziləri səmərəliliyi bu qədər açıq-aydın olan belə bir işi necə inkar edərək sual altına salırlar. Bu nazirlər, ölkə prezidenti, icra aparatları və dövlət üçün zəhmət tələb edən və olduqca yorucu bir işdir. Lakin bu işin nəticəsi bundan ibarətdir ki, ölkədəki gerçəkliyə uzaqdan nəzər salmaqla real vəziyyətlə yaxından şahidi olmaq arasında nə qədər böyük fərq olduğunu aşkara çıxarır. Bunlar arasında böyük fərq var.

**Ölkə prezidenti, məsul şəxslər və dövlət nümayəndələri ilə görüş** (09.04.1386)

**İslami dəyərlərə qəlbən bağlı olmaq**

Xoşbəxtlikdən, hakimiyyətdə də xalqyönlü və dini dəyərlərə qiymət verən bir dövlət aparatıdır. Şəxsən respublika prezidenti xalqa yaxın davranış və xarakteri, sadə, dəb-dəbəsiz həyat tərzi, İslami dəyərlərə mükəmməl bağlılığı, cəsarət və özünəinamla iş başındadır. Ayrı-ayrı hökumət nümayəndələri və ölkə prezidentinin özü "xalqa xidmət" şüarını rəhbər tutaraq gərgin fəaliyyət göstərməkdədirlər, həm ölkə, həm də beynəlxalq miqyasda qətiyyətli addımlar atmaqda təşəbbüsü öz əllərinə almışlar. Bu gün beynəlxalq arenadakı vəziyyət artıq başqa cürdür və ölkəmizin rəsmiləri beynəlxalq siyasətçilərin, siyasi ssenaristlərin sözlərinin arxasınca qaçmaq məcburiyyətində deyillər. Xeyr! Qətiyyətli addımlar atmaq üçün təşəbbüs artıq bizim ölkə rəsmilərimizin öz əlindədir. Hökumət nümayəndələrinin özünəinamının, imanının və Allaha arxalanmasının özünəməxsus təsiri var və bu gün, Allaha şükürlər olsun ki, bu, bizim ölkəmizdə müşahidə olunur. Respublika prezidenti işgüzar, təşəbbüskar, xalqa ləyaqətlə xidmət edən, qətiyyətli addımlar atmağı bacaran, yorulmaq bilməyən bir insandır. Məhz bu, ölkəmizin gələcək perspektivlərini daha da artırır. Bu gün ölkəmizdəki siyasi vəziyyət bu cürdür: mövcud dövlət quruluşu sabit, xalqımız imanlıdır, gənclərimiz ölkədədi ictimai-siyasi vəziyyətlə yaxından maraqlanır, hadisələrdə böyük enerji və həyəcanla yaxından iştirak edirlər. Həmçinin hakimiyyət nümayəndələri və məsul şəxslər də öz işinə can yandıraraq böyük maraq göstərirlər, cəsarətlidirlər və qətiyyətli addımlar atmaq iqtidarındadırlar. Dövlətin müxtəlif meyarları sırasında hər yerdə inkişaf və yüksəlişin müşahidə olunması da nəzərdə tutulur.

**Gərmsar əhalisi ilə görüşdə söylənilmiş bəyanat**(21.08.1385)

### Sözün əsl mənasında gərgin əmək və səy göstərmək

Hakimiyyət nümayəndələri, sözün həqiqi mənasında, gecə-gündüz fədakarlıqla səy göstərir, müxtəlif proqramlar hazırlayır, daim lazımi tədbirlər görərək dövlətin və xalqın amalları uğrunda çalışırlar. Belə bir neməti tanımaq və qədrini bilmək lazımdır!

## Xubriqan Məclisinin IV etapında xalqın seçilmiş nümayəndələri ilə görüş(03.12.1385)

**Dini rəhbər tutaraq mövqe seçmək və inqilabi dəyərləri uca tutmaq**

Mən dövləti dəstəkləyirəm. Mən xalqın seçərək hakimiyyətə gətirdiyi bütün hökumətləri dəstəkləmişəm, bundan sonra da bu cür olacaq! Bu hökuməti də xüsusilə dəstəkləyir və müdafiə edirəm. Bu, heç də boş-boşuna, səbəbsiz və əsassız deyil. Əvvəla, İslam Respublikası quruluşunda və ölkəmizin siyasi quruluşunda dövlətin mövqeyi olduqca mühümdür. İkincisi, məsuliyyətin böyük bir qismi məhz dövlətin öhdəsinə düşür. Daha sonra isə dövlətin bu şəkildə dini rəhbər tutaraq mövqe seçməsi, İslami və İnqilabi dəyərləri bu qədər uca tutması olduqca qiymətlidir. İşgüzarlıq, zəhmətkeşlik, xalqla yaxından əlaqə yaratmaq, vilayətlərə səfərlərin təşkil olunması, ədaləti və xalqın maraqlarını əsas götürmək – bütün bunlar çox dəyərlidir və mən bu faktorların qədrini yaxşı bilirəm. Mən məhz bu amillərə görə dövləti dəstəkləyirəm.

## İmam Rzanın (ə) pak hərəminin zəvvarları və yaxınlıqda yaşayan əhali ilə izdihamlı görüş
(01.01.1386)

## Ən çox sevilən dövlət

Mən ABŞ rəsmilərinə, bu gün Amerikanın administrasiyasını öz əlinə almış və dünyaya ağalıq iddiası edən o komandaya üzümü tutaraq bir-iki söz demək istəyirəm. Kaş ki, onlar məni eşidə, dediklərim barədə düşünə və dərk edəydilər! Mən onlara müraciət edərək belə deyirəm: "Siz özünüzü bizim dövlətimizlə müqayisə edin! Öz ölkə prezidentinizlə bizim prezidentimiz arasında müqayisə aparın! Sizin dövlət administrasiyanız hal-hazırda Birləşmiş Ştatların tarixində ölkədə ən çox nifrət qazanmış bir administrasiyadır. Bu fakt elə ABŞ-ın özündə aparılan sosial sorğular nəticəsində bütün dünyaya elan olunub. Bu gün ABŞ-da hakimiyyətdə olan dövlət administrasiyası xalqın gözündə Birləşmiş Ştatların tarixində hakimiyyətdə olmuş bütün digər hökumətlər içərisində ən mənfur sayılan bir administrasiyadır. Siz bu faktı bizim dövlətimizlə müqayisə edin! Bu gün bizim dövlətimiz isə məşrutə (konstitusiyalı dövlət quruluşu) dövründən sonra bu günə qədər 100 il müddətindəən çox sevilən dövlət administrasiyalarından biridir".

**Həzrət imam Xomeyninin (r.ə) vəfatının 17-ci ildönümü ilə əlaqədar keçirilən mərasimdəki bəyanat** (14.03.1385)

### İqtisadi sferada müsbət istiqamətli işlərin görülməsi

Digər bir mühüm məqam isə iqtisadi sferada görülmüş müsbət istiqamətli işlərdir. İqtisadi istiqamətlərin tədbirlərin mahiyyətini və faydalarını camaat üçün düzgün formada aydınlaşdırın ki, həmin işlərin, həqiqətən də, görüldüyü məlum olsun. Əlbəttə, biz dəfələrlə qeyd etmişik ki, kamera arxasına, mikrofonların önünə keçərək çıxış etmək kifayət deyil. Konkret məsələlərin şərh edilməsi üçün onların xalqa planlı şəkildə və mütəxəssis təqdimatında çatdırılmasına böyük ehtiyac var.

**Ölkə prezidenti və hökumət nümayəndələri ilə görüş** (06.06.1385)